# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW
№ 447 Fevral 2025




AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



*Ön cərgədə: soldan birinci Rəşid Cəbrayılov (GEAD, Layihələrin idarə olunması şöbə müdiri), soldan dördüncü Elvin Hüseynov (GEAD sədri)*
*Arxa cərgədə: soldan üçüncü Turan Hüseynzadə*

# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ "ECOSTEPS: OUR CARBON FOOTPRINTS" LAYİHƏSİNİ UĞURLA HƏYATA KEÇİRİB

# KHAZAR UNIVERSITY STUDENT SUCCESSFULLY IMPLEMENTS "ECOSTEPS: OUR CARBON FOOTPRINTS" PROJECT

Xəzər Universitetinin tələbəsi Turan Hüseynzadə Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən maliyyələşdirilən "EcoSteps: Our Carbon Footprints" layihəsini uğurla həyata keçirib. Layihə karbon emissiyaları ilə bağlı maarifləndirməni artırmaq və ekoloji təsirləri azaltmaq üçün dayanıqlı vərdişləri təşviq etməyi hədəfləyir.

**Ekoloji təhsil və innovativ platforma**: Layihənin əsas istiqamətlərindən biri karbon emissiyaları üzrə ekoloji təhsildir. Bu təşəbbüs insanlara gündəlik fəaliyyətlərinin karbon izi yaratdığını anlamağa və bu təsiri minimuma endirmək üçün atmalı olduqları addımları öyrənməyə kömək edir. Bundan əlavə, layihə çərçivəsində fərdi karbon izini hesablayan və insanları daha ekoloji seçimlər etməyə təşviq edən rəqəmsal platforma – carbonfootprint.az – istifadəyə verilib.

**Layihənin icrası və gənclərin rolu**: Azərbaycan Gənclər Fondu tərəfindən 25 iyul 2024-cü ildə maliyyələşdirilən layihə altı ay sonra, 2025-ci ilin yanvar ayında istifadəyə verilib. Layihə "Gənclərin Elmi Araşdırmalarına Dəstək" İçtimai Birliyinin (GEAD) könüllüləri tərəfindən hazırlanıb və bu, gənc mütəxəssislərin dayanıqlılıq və ekoloji məsuliyyət sahəsində verdiyi töhfənin bariz nümunəsidir.

Bu təşəbbüs ekoloji maarifləndirmə və texnoloji həllərin birləşməsi ilə cəmiyyətə müsbət təsir göstərməyi hədəfləyir.

*Jurnalın üz qabığında: Turan Hüseynzadə*

Turan Huseynzade, a student at Khazar University, has successfully implemented the "EcoSteps: Our Carbon Footprints" project, financed by the Youth Foundation of the Republic of Azerbaijan. The initiative aims to enhance awareness regarding carbon emissions and promote sustainable habits to mitigate ecological impacts.

**Environmental Education and Innovative Platform**: One of the project's primary focuses is environmental education on carbon emissions. This initiative assists individuals in comprehending how their daily activities generate carbon footprints and learning necessary steps to minimize these impacts. Furthermore, within the framework of the project, a digital platform—carbonfootprint.az—has been launched, which calculates individual carbon footprints and encourages people to make more environmentally conscious choices.

**Project Implementation and Youth Involvement**: Initially funded by the Azerbaijan Youth Foundation on July 25, 2024, the project was officially launched six months later in January 2025. The initiative was developed by volunteers from the Association for Support of Youth Scientific Research, exemplifying the significant contribution of young professionals in the domains of sustainability and environmental responsibility. This endeavor aims to positively influence society through the integration of environmental awareness and technological solutions.

*On the cover of the journal: Turan Huseynzadeh*

# PROF.AKAD. HAMLET İSAXANLININ AD GÜNÜ QEYD OLUNUB

# BIRTHDAY CELEBRATION HELD FOR PROF. ACAD. HAMLET ISAKHANLI



Fevralın 28-də Xəzər Universitetində universitetin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının 1 mart-ad günü qeyd olunub.

Xəzər Universitetinin rektoru vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev çıxış edərək, Hamlet İsaxanlının çoxşaxəli fəaliyyətindən danışmış, qarşıdakı illərdə də ona universitetin kollektivi adından cansağlığı, uzun ömür, səmərəli işgüzarlıq və yeni uğurlar arzulamışdır.

Hamlet İsaxanlı sonda universitet kollektivinə təşəkkürünü bildirmişdir.

On February 28, Khazar University commemorated the birthday of the university's founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, which falls on March 1 .

During the distinguished gathering, Acting Rector Prof. Mahammad Nuriyev delivered a substantive address highlighting the multifaceted contributions of Hamlet Isakhanli. On behalf of the university community, he extended heartfelt wishes for continued robust health, longevity, productive endeavors, and future accomplishments in the forthcoming years.

At the end, Hamlet Isakhanli expressed his gratitude to the university personnel.

# İÇİNDƏKİLƏR

Xəzər Universitetinin tələbəsi “EcoSteps: Our Carbon Footprints” layihəsini uğurla həyata keçirib ....2
Prof.Akad. Hamlet İsaxanlının ad günü qeyd olunub ....3
Yüksəliş Müsabiqəsi çərçivəsində Mentorluq Proqramında iştirak hüququ qazanmış tələbələr ....6
Təbiət elmləri və mühəndislik fakültəsinin tələbələri Clima Tech & Sustainability Hackathon-unda 2-ci yeri qazandı ....7
Xəzər Universitetinin nümayəndələri Türkiyə səfiri ilə görüşdə....8
Xəzər Universitetinin məzunu Rüfət Mahmud “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin idarə heyətinin sədri təyin edilib....9
Siyasi elmlər və fəlsəfə departamentinin yeni layihəsinin - Khazar Talks-un ilk akademik seminarı: “Texnologiyanın geosiyasəti” ....10
“Dil və cəmiyyət: müasir yanaşmalar” mövzusunda elmi-praktik seminar ....14
ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndələri “Xəzər”də ....16
Gənclər gününə həsr olunmuş tədbir ....18
Elmi araşdırmalar üzrə illik hesabat görüşü ....22
“Kitablar ən yaxşı dostumdur” mövzusunda tədbir ....26
“Xəzər Xəbər” jurnalının redaksiya heyətinin üzvü, riyaziyyatçı alim, yazıçı-publisist İsmixan Yusubovun “Ömrümə nur çiləyənlər” adlı yeni kitabı çapdan çıxıb ....28
Departament müdiri Hindistanda elmi və mədəni mübadilə proqramında iştirak edib....32
Kırşehir Ahi Evran Universitetinin nümayəndə heyəti "Xəzər"də....33
“Qlobal təhsil trendləri və yeni istiqamətlər” mövzusunda seminar....37
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri....38
*Əlirza Balayev.*Töhmətdən töhmətə....40
Prof. Akad. Hamlet İsaxanlı BDU-da Beynəlxalq Türk Akademiyasının prezidenti Akad.Şahin Mustafayevin tərtib etdiyi “Təbriz livasının müfəssəl dəftəri” kitabının təqdimatında ....56
“Dilimiz kimliyimizdir: Dilimizi qoruyaq!” ....58
Prof.Akad. Hamlet İsaxanlı “AI bəşəriyyətlə görüşür: korporativ mədəniyyətin formalaşdırılması və psixi rifahın təşviqi” konfransında çıxış edib ....62
Psixologiya departamenti müəlliminin məqaləsi “Journal of Behavioral Addictions” jurnalında ..64
Xocalı faciəsinin anım tədbiri ....66
“Köhnə çamadanlar” filminin nümayişi....68
Xəzər Univeristetinin dəvəti ilə Azərbaycana gələn Ege Universiteti professorunun seminarı ....70
“Müəllif hüquqları və plagiarizm” mövzusunda təlim ....71
Dillər və ədəbiyyatlar departamentinin Bakı Yunus Əmrə İnstitutu ilə birgə seminarı....72
DIRNA layihəsi çərçivəsində İnstitusional repozitoriya şəbəkəsi daxilində inklüziv təhsil” mövzusunda təlim....73
“Biznes və Elm: Akademik Biliklərin Sənaye və İnnovasiyada Tətbiqi üzrə I Forum” ....74
Elmi Şuranın iclası ....77

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Khazar University Student Successfully Implements "EcoSteps: Our Carbon Footprints" Project....2
Birthday Celebration Held for Prof. Acad. Hamlet Isakhanli ....3
Students Securing Participation in the Mentoring Program as part of the "Yuksalish" Competition ....6
School of Science and Engineering Students Win Second Place in Clima Tech & Sustainability Hackathon ....7
Khazar University Representatives Meet with Turkish Ambassador....8
Khazar University Alumnus Rufat Mahmud Appointed as Chairman of the Board of "Icherisheher" State Historical-Architectural Reserve Administration....9
First Academic Seminar of Political Science and Philosophy Department's New Initiative - Khazar Talks: "Geopolitics of Technology"....10
Scientific-Practical Seminar on "Language and Society: Modern Approaches"....14
US Embassy Representatives Visit Khazar....16
Event Dedicated to Youth Day ....18
Annual Research Report Meeting ....22
Event on "Books Are My Best Friends" ....26
"Khazar Review" Editorial Board Member, Mathematician and Writer Ismikhan Yusubov Publishes New Book "Those Who Brightened My Life" (*in Azerbaijani*)....28
Head of Department Participates in Academic and Cultural Exchange Program in India ....32
Delegation from Kirsehir Ahi Evran University Visits "Khazar"....33
Seminar on "Global Trends and New Directions in Higher Education" ....37
News of the Institute of ANAS Named after Nizami (*in Azerbaijani*) ....38
*Alirza Balayev.* From Reprimand To Reprimand....40
Prof. Acad. Hamlet Isakhanli Attends Book Launch at BSU for "Detailed Register of Tabriz Liva" by International Turkic Academy President Acad. Shahin Mustafayev ....56
"Our Language is Our Identity: Let's Preserve Our Language!"....58
Prof. Acad. Hamlet Isakhanli Speaks at the Conference "AI Meets Humanity: Shaping Corporate Culture and Promoting Mental Well-Being" ....62
Khazar University Psychology Department Professor's Article Published in the "Journal of Behavioral Addictions"....64
Commemoration Ceremony for the Khojaly Tragedy....66
Screening of the film "Old suitcases"....68
Seminar by Ege University Professor Invited by Khazar University....70
"The 1st Forum on Business and Science: Application of Academic Knowledge in Industry and Innovation Was"....74
Academic Council Meeting....77

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

## YÜKSƏLİŞ MÜSABİQƏSİ ÇƏRÇİVƏSİNDƏ MENTORLUQ PROQRAMINDA İŞTİRAK HÜQUQU QAZANMIŞ TƏLƏBƏLƏR

## STUDENTS SECURING PARTICIPATION IN THE MENTORING PROGRAM AS PART OF THE "YUKSALISH" COMPETITION

Oktyabr-dekabr aylarında İqtisadiyyat və menecment departamentinin təşkilatçılığı ilə Yüksəliş Müsabiqəsinin qalibləri – mentor Əsəd Qurbanzadə, Fərahim Hacıyev, Ülkər Məlikova və İlahə Baxışova Tahirli tərəfindən təşkil olunan Mentorluq Proqramı haqqındakı informasiya sessiyasına tələbələrin böyük maraq göstərməsi nəticəsində İqtisadiyyat və menecment fakültəsinin III və IV kurs tələbələrinin proqrama müraciətləri qeydə alınmışdır. Müraciətlərin qiymətləndirilməsi əsasında fakültənin altı tələbəsi Yüksəliş Müsabiqəsi çərçivəsində Mentorluq Proqramında iştirak hüququ əldə etmişdir.

Mentorlar tərəfindən seçilən İqtisadiyyat və menecment fakültəsinin tələbələri – Nuray Əzizova, Ənvər Bədəlov, Emil Babazadə, Ülkər Hüseynli, Aytac Şahverənova və Hüseyn Dadaşov bir il müddətində mentorluq dəstəyi alacaq, həmçinin bu dövr ərzində təcrübə və iş imkanlarından yararlanmaq imkanı qazanacaqlar.

Proqram çərçivəsində təşkil edilən fərdi görüşlər zamanı mentorlar öz təcrübələrinə əsaslanaraq, tələbələrə karyera planlaşdırılması, iş mühitində uğur qazanmağın yolları, potensial çətinliklərin həlli metodları və peşəkar inkişafla bağlı tövsiyələr verilib. Görüşlərin sonunda tələbələrin sualları cavablandırılmışdır.

Following a strong showing of interest by students at an information session about the Mentoring Program, organized by the Department of Economics and Management and the distinguished winners of the "Yuksalish" Competition, mentors Asad Gurbanzadeh, Farahim Hajiyev, Ulkar Malikova, and Ilaha Bakhishova Tahirli, a call for applications was made for III and IV year students of the School of Economics and Management. The application period took place from October to December. After a thorough evaluation of the applications, six students from the school were selected to participate in the Mentoring Program within the framework of the "Yuksalish" Competition.

The students selected by the mentors from the School of Economics and Management–Nuray Azizova, Anvar Badalov, Emil Babazade, Ulkar Huseynli, Aytaj Shahveranova, and Huseyn Dadashov–will receive personalized mentorship for one year, in addition to the opportunity to gain experience through internships and potential employment during the program. Throughout the Mentoring Program, during individual meetings mentors provided valuable guidance on career planning and professional development. Drawing from their own experiences, the mentors shared insights on how to thrive in the workplace and how to address potential challenges. At the end, the students have their questions addressed.




*Nuray Əzizova, Ənvər Bədəlov, Aytac Şahverənova, Hüseyn Dadaşov, Ülkər Hüseynli, Emil Babazadə*

# TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ CLİMA TECH & SUSTAINABILITY HACKATHON-UNDA 2-Cİ YERİ QAZANDI

# SCHOOL OF SCIENCE AND ENGINEERING STUDENTS WIN SECOND PLACE IN CLIMA TECH & SUSTAINABILITY HACKATHON




*Aysu Məmmədli, Leyla Yusifzadə*

Təbiət elmləri və mühəndislik fakültəsinin tələbələri - Aysu Məmmədli (Elektrik və elektronika mühəndisliyi, 3-cü kurs) və Leyla Yusifzadə (Kimya mühəndisliyi, 3-cü kurs) Clima Tech & Sustainability Hackathon - Baku 2025 çərçivəsində AirVive layihələri ilə 2-ci yerin qalibi olublar.

Hackathon İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Transformation Lighthouse və Impulse 4Women şirkətləri tərəfindən təşkil edilib və 2025-ci il fevralın 8-9-da baş tutub. Yarış iştirakçılara iqlim texnologiyaları və davamlı inkişaf sahəsində innovativ həllər üzərində işləmək və daha sağlam, dayanıqlı bir gələcək üçün öz baxışlarını təqdim etmək imkanı yaradıb.

AirVive layihəsi ağıllı hava təmizləyicisi olaraq dizayn edilib və havanın keyfiyyətini ölçərək müvafiq təmizləmə proseslərini avtomatik həyata keçirmə funksiyasına malikdir. Bu innovativ həll ekoloji problemlərin həllinə töhfə vermək və insanların daha sağlam bir mühitdə yaşamasına dəstək olmaq məqsədi daşıyır.

Students from the School of Science and Engineering - Aysu Mammadli (Electrical and Electronics Engineering, 3rd year) and Leyla Yusifzade (Chemical Engineering, 3rd year) - secured second place with their AirVive project at the Clima Tech & Sustainability Hackathon - Baku 2025.

The hackathon, organized by the Agency for Innovation and Digital Development, Transformation Lighthouse, and Impulse 4Women companies, took place on February 8-9, 2025. The competition provided participants with the opportunity to develop innovative solutions in climate technology and sustainable development, presenting their visions for a healthier, more sustainable future.

The AirVive project was engineered as an intelligent air purification system with the capability to measure air quality and automatically implement appropriate purification processes. This innovative solution aims to contribute to environmental problem-solving and support human health by creating a more salubrious living environment.

## XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ TÜRKİYƏ SƏFİRİ İLƏ GÖRÜŞDƏ

## KHAZAR UNIVERSITY REPRESENTATIVES MEET WITH TURKISH AMBASSADOR

Fevralın 12-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev Türkiyə Respublikasının Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Prof. Birol Akgün`lə görüşmüşlər. Görüşdə səfirin media üzrə müşaviri Dr. Cihangir İşbilir də iştirak etmişdir.

Hamlet İsaxanlı səfiri təbrik etdikdən sonra Xəzər Universitetinin Türkiyə universitetləri ilə mövcud əməkdaşlıqları və potensial imkanlar müzakirə olunmuşdur.

Görüşdə Hamlet İsaxanlı Birol Akgün`ə "Xəzərin Sorağında", "Mənim Qarabağım və ya Qarabağ Düyünü" kitabları daxil olmaqla müəllifi olduğu kitablardan hədiyyə vermişdir. O, həmçinin, səfiri 2025-ci il fevralın 18-19-da universitetin təşkilatçılığı ilə "Texnologiyanın geosiyasəti" mövzusunda keçiriləcək akademik seminarın açılış programına dəvət etmişdir.



*Orxan Vəliyev, Hamlet İsaxanlı, Birol Akgün, Cihangir İşbilir*

On February 12, Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, and Assoc. Prof. Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy, met with Prof. Birol Akgun, newly appointed Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Türkiye to Azerbaijan. Dr. Cihangir Ishbilir, media advisor to the ambassador, also attended the meeting.

After congratulating the ambassador, Hamlet Isakhanli discussed existing collaborations and potential opportunities with Turkish universities.

During the meeting, Hamlet Isakhanli presented Ambassador Birol Akgun with several books he authored, including "In Search of Khazar" and "My Karabakh or the Karabakh Knot." He also invited the ambassador to the opening program of an academic seminar on "Geopolitics of Technology" to be held at the university on February 18-19, 2025.

# XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU RÜFƏT MAHMUD "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ TƏYİN EDİLİB

# KHAZAR UNIVERSITY ALUMNUS RUFAT MAHMUD APPOINTED AS CHAIRMAN OF THE BOARD OF "ICHERISHEHER" STATE HISTORICAL-ARCHITECTURAL RESERVE ADMINISTRATION



Xəzər Universitetinin məzunu Rüfət Mahmud Azərbaycan Prezidentinin 13 fevral 2025-ci il tarixli sərəncamı ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilib. Qeyd edək ki, qurumun sabiq sədri Şahin Seyidzadə Milli Məclisin deputatı seçildiyinə görə vəzifəsindən azad olunmuşdu.

1975-ci ildə anadan olan Rüfət Mahmud 1992-1997-ci illərdə Xəzər Universitetinin bakalavr pilləsini, 2000-2002-ci illərdə Dövlət İqtisad Universitetində təhsilinin magistratura pilləsini bitirib.

2006-2007-ci illərdə ABŞ-ın Sirakuza Universitetinin (Nyu York) Vətəndaşlıq və İctimai Əlaqələr Məktəbində ("Maxwell School") təhsilini davam etdirib.

2001-2006-cı illərdə İqtisadiyyat Nazirliyində şöbə müdiri vəzifəsində çalışıb.

2007-ci ildə Dünya Bankında məsləhətçi, 2008-2009-cu illərdə İqtisadiyyat Nazirliyində departament rəhbəri olub. 2009-2010-cu illərdə Beynəlxalq Valyuta Fondunda işləyən R.Mahmud 2009-2018-ci illərdə Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının (ARPA) Müşahidə Şurasının sədri vəzifəsində çalışaraq, eyni zamanda, Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Maarifçi" Tələbə Kredit Fondunun icraçı direktoru işləyib.

2019-2022-ci illərdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müşaviri vəzifəsində çalışıb.

2023-cü ilin yanvarında Dövlət Neft Şirkətinin Rusiyadakı törəmə şirkəti "SOCAR RUS"-un baş direktoru təyin olunaraq, yeni təyinatadək həmin vəzifəni icra etmişdir.

Ölkə saytları bu barədə xəbər yayımlayıb:

Rufat Mahmud, an alumnus of Khazar University, has been appointed as Chairman of the Board of "Icherisheher" State Historical-Architectural Reserve Administration by Presidential Decree dated February 13, 2025. The previous chairman, Shahin Seyidzade, was released from his position following his election as a member of Parliament.

Born in 1975, Rufat Mahmud completed his bachelor's degree at Khazar University (1992-1997) and obtained his master's degree from the State University of Economics (2000-2002). He furthered his education at the Maxwell School of Citizenship and Public Affairs at Syracuse University (New York) during 2006-2007.

In 2001-2006, he worked as a department head at the Ministry of Economy.

In 2007, he was a consultant at the World Bank, and in 2008-2009, he was a department head at the Ministry of Economy. R. Mahmud, who worked at the International Monetary Fund in 2009-2010, served as the Chairman of the Supervisory Board of the Association of Accountants and Risk Professionals of Azerbaijan (ARPA) in 2009-2018, and at the same time, he worked as the Executive Director of the "Maarifchi" Student Loan Fund operating under the Ministry of Education.

In 2019-2022, he worked as an advisor to the Chairman of the State Committee for Urban Planning and Architecture. In January 2023, he was appointed General Director of "SOCAR RUS", a subsidiary of the State Oil Company in Russia, and held that position until a new appointment.

National websites reported on this:

*https://qafqazinfo.az/news/detail/yuksek-vezifeye-teyin-edilen-rufet-mahmud-kimdir-461746*

*https://bizim.media/az/siyaset/234607/ldquoceriseherrdquo-dovlet-qorugunun-sedri-teyin-olunan-rufet-mahmud-kmdr-ndash-dosye/*

*https://lent.az/xeber/bioqrafiya/prezidentin-sedr-teyin-etdiyi-rufet-mahmud-kimdir-dosye-40629680*

*https://protest.az/olke/4240-cherisheherin-yeni-rehberi-kmdr.html*

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN YENİ LAYİHƏSİNİN - KHAZAR TALKS-UN İLK AKADEMİK SEMİNARI: "TEXNOLOGİYANIN GEOSİYASƏTİ"





*Orxan Vəliyev*

# FIRST ACADEMIC SEMINAR OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT'S NEW INITIATIVE - KHAZAR TALKS: "GEOPOLITICS OF TECHNOLOGY"

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin 2025-ci ildən etibarən təşkil edəcəyi akademik tədbirlərin Khazar Talks başlığı altında keçirilməsinə qərar verilmişdir. Khazar Talks-un ilk seminarı üçün hazırda dünyanın ən aktual mövzularından olan süni zəka seçilmişdir. Buna müvafiq olaraq Ankara Hacı Bayram Veli Universiteti Beynəlxalq münasibətlər ka-



fedrasından Prof. Erman Akıllı`ya, SETA-dan isə Dr. Gloria Özdemir`ə akademik seminar ilə bağlı təklif göndərilmişdir. Türkiyəli tədqiqatçılarla müzakirələrdən sonra programın mövzusu "Texnologiyanın geosiyasəti" olaraq müəyyən edilmişdir. Be-

The Department of Political Science and Philosophy at Khazar University has inaugurated a new academic series titled "Khazar Talks" starting from 2025. For its inaugural seminar, artificial intelligence, one of the world's most pertinent contemporary issues, was selected as the focal point. Subsequently, invitations were extended to Prof. Erman Akıllı from the Department of International Relations at Ankara Hacı Bayram Veli University and Dr. Gloria Özdemir from SETA. Following deliberations with the Turkish scholars, the program's theme was established as "Geopolitics of Technology." The academic seminar was successfully conducted on February 18-19.

The opening ceremony, held in the Marble Hall, drew participation from university administration, faculty members, students, and specialists. The event was particularly distinguished by the presence of Türkiye's newly appointed Ambassador to Azerbaijan, Prof. Birol Akgün, marking Khazar University as the first higher education institution visited during his tenure.

Associate Professor Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy, moderated the opening program. In his address, he provided a concise overview of the Khazar Talks initiative and the organization of the technology geopolitics seminar. The ceremony commenced with



Hamlet İsaxanlı




Birol Akgün

ləliklə, Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə fevralın 18-19-da "Texnologiyanın geosiyasəti" akademik seminarı baş tutmuşdur. Qeyd edək ki, Dr. Gloria Özdemir bu ildən etibarən Xəzər Universitetində "Texnologiyanın geosiyasəti" fənnini magistratura səviyyəsində tədris etməyə başlamışdır.

Mərmər salonda keçirilən açılış mərasimində universitetin rəhbərliyi, əməkdaşları, tələbələr və mütəxəssislər iştirak etmişlər. Türkiyənin Azərbaycana yeni təyin olunmuş səfiri Prof. Birol Akgün tədbirin qonağı olmuşdur. Qeyd edək ki, Xəzər Universiteti ölkədə səfirin ilk gəldiyi ali təhsil müəssisə-

(*Ardı səh.12-də*)

the national anthems of Azerbaijan and Türkiye.

In his opening remarks, Prof. Academician Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, welcomed Ambassador Prof. Birol Akgün and the distinguished guests, expressing gratitude for the ambassador's inaugural visit. Prof. Isaxanli elaborated on technology's transformative impact on politics, global change, and the unprecedented implications of artificial intelligence for human existence.

Ambassador Prof. Birol Akgün's address highlighted both the benefits and potential risks of

(*To be continued page 12*)





Gloria Özdemir

sidir.

Açılış proqramı Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin moderatorluğunda öz işinə başlamışdır. Dos. Vəliyev öz çıxışında Khazar Talks layihəsi, texnologiya geosiyasəti seminarının təşkili haqqında qısa məlumat vermişdir. Sonra Azərbaycan və Türkiyənin dövlət himnləri ifa edilmişdir.

Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı açılış nitqində Türkiyə səfiri Prof. Birol Akgün`ü və qonaqları salamlamış, səfirin ilk səfərini Xəzər Universitetinə etdiyi üçün təşəkkürünü bildirmişdir. Prof. İsaxanlı texnoloji inkişafın siyasətə olan təsiri, texnologiyanın dünyanı dəyişdirdiyini, süni intellektin isə dünyaya, insan həyatına gözlənilməz təsiri haqqında danışmışdır. Buna müvafiq olaraq insan həyatına təsir imkanları artan süni zəkanın diqqətlə izlənilməli olduğunu vurğulamışdır.

Səfir Prof. Birol Akgün öz çıxışında texnoloji in-

technological advancement, emphasizing Turkey's emergence as a significant hub for new technology development, particularly in the defense industry sector. He also underscored the strategic alliance between Turkey and Azerbaijan within this context.

The first day featured lectures by Dr. Gloria Özdemir on "Introduction to AI" and "AI, International Relations, and Technopolar System," followed by an engaging Q&A session. Notably, Dr. Özdemir has commenced teaching "Geopolitics of Technology" at the graduate level at Khazar University this year.

The opening ceremony included a concert performance by the University Chamber Orchestra, led by Zulfiyya Sadigova, an honored teacher and renowned pianist who heads the Music and Fine Arts Department.



Erkan Akıllı

The second day of the seminar featured Prof. Erkan Akıllı's presentations on "Türkiye and Turkic World Cooperation in Technology" and "Counterterrorism, AI and Usage of AI in the Security of the Black Sea

kişafın fayda ilə bərabər zərərlərinin də olduğundan, bununla bərabər texnoloji inkişafı nəzərə almamağın da mümkün olmadığından, texnoloji istifadəni məqsədli şəkildə aparmağın zərurətindən bəhs etmişdir. Səfir Türkiyənin xüsusilə hərb sənaye çərçivəsində olmaqla yeni texnologiya istehsalında əhəmiyyətli bir mərkəzə çevrildiyini vurğulamışdır. Bu çərçivədə Türkiyə-Azərbaycan arasındakı strateji müttəfiqliyə də toxunmuşdur.

Seminarın birinci günündə Dr. Gloria Özdemir "Süni zəkaya giriş" (Introduction to AI) və "Süni zəka, beynəlxalq münasibətlər və texnopolar sistem" (AI, International Relations, and Technopolar System) mövzularında mühazirə oxumuş, sualları cavablandırmışdır.

Açılış mərasimində iştirakçılara Xəzər Universiteti



*Telman Quliyev*



Region," followed by substantive discussions.

The event concluded with the presentation of certificates of appreciation and commemorative gifts to the guest speakers, facilitated by Associate Professor Telman Guliyev, Head of the History and Archaeology Department, and Alovsat Amirbayli, Director of Public Relations and Media. The seminar culminated with a commemorative photograph session.

The opening program received extensive coverage in both Azerbaijani and Turkish media outlets.

Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu  Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin konsert proqramı təqdim olunmuşdur. Günün sonunda Türkiyə Məzunları, Aydınlar və İş adamları Platforması Türkiyə məzunları, Türkiyə Respublikasının Azərbayandakı səfirliyinin təhsil və media müşavirləri, Xəzər Universiteti müəllimlərinin iştirakı ilə qonaqların şərəfinə  ziyafət vermişdir. Tədbirin ikinci günündə Prof. Erkan Akıllı "Türkiyə və Türk Dünyasının texnoloji əməkdaşlığı" (Türkiye and Turkic World Cooperation in Technology) və "Terrorla mübarizə, süni zəka və Qara Dəniz reqionunun təhlükəsizliyində süni zəkanın istifadəsi"(Counterterrorism, AI and Usage of AI in the security of the black sea region) mövzularında mühazirə oxumuş, müzakirələr aparılmışdır. Qonaq məruzəçilərə Xəzər Universitetinin təşəkkür sertifikatı və hədiyyələr təqdim edilmişdir. Hədiyyə təqdimatında Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Quliyev, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak etmişlər. Tədbirin açılış proqramı Azərbaycan və Türkiyə mediasında  işıqlandırılmışdır.

*https://interpress.az/birol-akgun-turkiye-ve-azerbaycan-arasindaki-emekdasliq-strateji-ehemiyyet-dasiyir.html*

*https://www.ekoturk.com/son-dakika/bakude-yapay-zeka-ve-sorumlu-kullanimi-konusuldu/*

*https://www.setav.org/hazar-universitesi-ve-setadan-teknoloji-jeopolitigi-uzerine-soylesi-yapay-zeka-ve-sorumlu-kullanimi-turkiye-ve-azerbaycanin-dijital-gelecegi*

*https://www.youtube.com/watch?v=WsCTZqHjvMg*

# "DİL VƏ CƏMİYYƏT: MÜASİR YANAŞMALAR" MÖVZUSUNDA ELMİ-PRAKTİK SEMİNAR

# SCIENTIFIC-PRACTICAL SEMINAR ON "LANGUAGE AND SOCIETY: MODERN APPROACHES"



*Fərrux Rüstəmov*

Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə fevralın 20-də "21 fevral - Beynəlxalq ana dili günü" çərçivəsində "Dil və cəmiyyət: Müasir yanaşmalar" mövzusunda elmi-praktik seminar keçirilib.

Seminarın məqsədi dil və cəmiyyətin qarşılıqlı əlaqəsini dəyişən cəmiyyətin prinsipləri çərçivəsində müasir yanaşmalarla izah etmək olub.

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müdiri dosent Dilbər Zeynalova seminarı açıq elan etdikdən sonra tədbir əsas məruzəçilərin çıxışları ilə davam edib.



*İbrahim Bayramov*

ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiri, Əməkdar müəllim, filologiya elmləri doktoru, professor İbrahim Bayramov "Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibinin zənginləşməsi yolları" mövzusunda, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm"

A scientific-practical seminar on "Language and Society: Modern Approaches" was held at Khazar University on February 20, organized by the Department of Languages and Literature as part of the "February 21 - International Mother Language Day" framework.

The aim of the seminar was to explain the interaction between language and society using modern approaches within the principles of a changing society.



*Vəfa Abdullayeva-Nəbiyeva*

After Associate Professor Dilbar Zeynalova, Head of the Department of Languages and Literature at Khazar University, declared the seminar open, the event continued with presentations by the main speakers.

Professor Ibrahim Bayramov, Doctor of Philological Sciences, Honored Teacher and Head of the Scientific-Organizational Department of ADPU, presented on "Ways of Enriching the Vocabulary of Modern Azerbaijani Literary Language." Professor Farrukh Rustamov, Full Member of the International Pedagogical Academy, Academician of the Academy of Pedagogical and Social Sciences, Member of the Azerbaijan Journalists Union, Laureate of the "Golden Pen" Award, Honored Scientist, and Doctor of Pedagogical Sciences, presented on "The Struggle for Language by Azerbaijani Enlighteners in the Late 19th and Early 20th Centuries." Associate Professor Vafa



mükafatı laureatı, Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmov “XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin dil uğrunda mübarizəsi” mövzusunda, YUNESKO-nun Seçki qrupunun eksperti, YUNESKO-nun Qlobal Gənclər Birliyinin üzvü, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Nitq mədəniyyəti və monitorinq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Abdullayeva - Nəbiyeva “Dil normativlərinin qorunması, sosial təşviqat” mövzusunda və Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru İlkin Əsgərov “Azərbaycan dilinin tədrisi və təbliği dövlət siyasətinin prioritet istiqaməti kimi” mövzusunda məruzə ediblər, seminar iştirakçılarının suallarını cavablandırıblar.



*İlkin Əsgərov*

Sonra tədbirin əsas məqsədini – dilin cəmiyyətə və cəmiyyətdəki dəyişikliklərin dilə təsirini əks etdirən videoçarx izlənilib. Süni zəka ilə səsləndirilən materialda ana dilimizə müasir yanaşma xətti, Azərbaycan dilinin texnologiyanın dili olma potensialının cari durumu müşahidə edilib. Qeyd edək ki, tədbir Xəzər Universitetinin tələbələri ilə yanaşı, “Dünya” məktəbinin 10-cu sinif şagirdlərinin də fəal iştirakı ilə keçib. Seminar tələbələrin Xəzər Universitetinin “Hər gün, hər saat mükəmməlliyə doğru!” şüarını fərqli dillərdə səsləndirmələri ilə başa çatıb.

Bəzi saytlar tədbiri işıqlandırıb:

*https://tehsil365.news/az/news/23777/* və s.

Abdullayeva-Nabiyeva, UNESCO Election Group Expert, Member of UNESCO Global Youth Union, Head of the Department of Speech Culture and Monitoring at the Institute of Linguistics named after Nasimi of ANAS, Doctor of Philosophy in Philology, presented on "Protection of Language Standards, Social Promotion." Dr. Ilkin Asgarov, Lecturer at the Department of Languages and Literature at Khazar University, Doctor of Philosophy in Philology, presented on "Teaching and Promotion of the Azerbaijani Language as a Priority Direction of State Policy." The speakers answered questions from seminar participants.

Afterward, a video reflecting the main purpose of the event—showing the influence of language on society and societal changes on language—was viewed. The material, voiced by artificial intelligence, demonstrated the modern approach to our mother tongue and the current state of the Azerbaijani language's potential as a language of technology. It should be noted that the event was held with the active participation of Khazar University students as well as 10th-grade students from "Dunya" school. The seminar concluded with students voicing Khazar University's slogan "Every day, every hour towards excellence!" in different languages.

## ABŞ-IN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ



*Səbinə Abdullayeva, Rendi Koul, Con Silver, Aycan Yaman*

Yanvarın 28-də Xəzər Universiteti ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndələrini qəbul edib. Görüşdə Regional ingilis dili mütəxəssisi (RELO) Con Silver, İngilis dili proqram koordinatorları Aycan Yaman və Səbinə Abdullayeva, eləcə də səfirliyin Mədəniyyət işləri üzrə mütəxəssisi Rendi Koul iştirak etdilər.

Qonaqları universitetin Tədris işləri üzrə prorektoru Prof. Məhəmməd Nuriyev, Humanitar, təhsil və sosial

## US EMBASSY REPRESENTATIVES VISIT KHAZAR

On January 28, Khazar University hosted representatives from the US Embassy in Azerbaijan. The meeting was attended by Regional English Language Officer (RELO) John Silver, English Language Program Coordinators Ayjan Yaman and Sabina Abdullayeva, and Cultural Affairs Specialist Randy Cole.

The guests were welcomed by Prof. Mohammed Nuriyev, Vice Rector for Academic Affairs, Aygun



*Michael Collins*

elmlər fakültəsinin dekan vəzifəsini icra edən Aygün Verdiyeva, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru Jalə Məmmədova qarşıladılar.

Görüş zamanı ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən "English Language Fellowship" çərçivəsində həyata keçirilən fəaliyyətlər və gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldı. Proqramın cari vəziyyəti, ingilis dili müəllimləri və tələbələr üçün yaradılan imkanlar, eləcə də növbəti il üçün planlaşdırılan layihələr müzakirə olundu. Səfirlik nümayəndələri proqramın Xəzər Universitetində 2024-2025-ci akademik ili üçün təqaüdçüsü Michael Collins`in dərsində iştirak etdilər.

Görüşdə hədiyyə mübadiləsi oldu.



*Məhəmməd Nuriyev*

Verdiyeva, Acting Dean of the School of Humanities, Education and Social Sciences, Dr. Milana Abbasova, Head of the English Language and Literature Department, Fatima Valiyeva, Head of International Affairs Office, and Jala Mammadova, coordinator.

During the meeting, discussions focused on activities implemented under the US State Department-funded "English Language Fellowship" program and future collaboration opportunities. The current status of the program, opportunities created for English language teachers and students, as well as projects planned for the next year were discussed. Embassy representatives attended a class taught by Michael Collins, the program's fellow at Khazar University for the 2024-2025 academic year.

The meeting concluded with an exchange of gifts.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİNƏ FƏLSƏFƏ DOKTORU DİPLOMU TƏQDİM EDİLİB

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 07 fevral 2025-ci il tarixli qərarı ilə Xəzər Universitetinin Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin doktorantı, həmçinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi İlkiyyə Hacıyevaya (Məmmədova) 5716.0 – Azərbaycan ədəbiyyatı ixtisasında filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir.

Fəlsəfə doktoru diplomu İ.Hacıyevaya təqdim edilmişdir.

## PHILOSOPHY DOCTORATE DIPLOMA PRESENTED TO FACULTY MEMBER OF LANGUAGES AND LITERATURES DEPARTMENT




*İlkiyyə Hacıyeva (Məmmədova)*

Ilkiyya Hajiyeva (Mammadova), doctoral candidate at Khazar University's Graduate School of Science, Art and Technology and faculty member of the Department of Languages and Literatures, has been conferred the degree of Doctor of Philosophy in Philology, specializing in Azerbaijani Literature (specialty code 5716.0), in accordance with the February 7, 2025 resolution of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

The doctoral diploma was officially presented to Dr. Hajiyeva on February 28.

## GƏNCLƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR

## EVENT DEDICATED TO YOUTH DAY



*Asya Məmmədova, Aygül Qasımova, İskəndər Məmmədov, Rasimə Əhmədova (Məmməd Səid Ordubadi muzeyi), Ləman Hacıyeva, Nigar Həsənli, Gülgün Əliyeva*

Yanvarın 31-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Əzim Əzimzadə Mənzil Muzeyində Məmməd Səid Ordubadinın Xatirə Muzeyi və Cəfər Cabbarlının Ev-Muzeyinin birgə təşkilatçılığı ilə 2 fevral – Gənclər Günü münasibətilə "Gələcəyin Gəncliyi" adlı  tədbir keçirib.

Tədbirdə Xəzər Universitetinin Memarlıq və dizayn departamentinin müəllimi İskəndər Məmmədovun rəhbərliyi ilə universitetin tələbələri iştirak ediblər. Tələbələrdən Ceyran Süleymanova, Asya Məmmədova, Ləman Hacıyeva, Aygül Qasımova, Gülgün Əliyeva və Nigar Həsənlinin müxtəlif mövzularda rəsm əsərləri nümayiş olunub.

Tədbirin məqsədi gənc istedadların yaradıcı imkanlarını göstərmək və onları yeni layihələrə səfərbər etmək idi. “Xəzər”in tələbələrinin əsərləri iştirakçılar tərəfindən maraqla qarşılanıb.

On January 31, the Baku City Main Department of Culture organized an event titled "Youth of the Future" at the Azim Azimzade House Museum, in collaboration with the Mammad Said Ordubadi Memorial Museum and Jafar Jabbarli House Museum, celebrating Youth Day on February 2.

Students from Khazar University participated in the event under the guidance of Iskandar Mammadov, lecturer at the Department of Architecture and Design. Artwork on various themes by students Jeyran Suleymanova, Asya Mammadova, Leman Hajiyeva, Aygul Gasimova, Gulgun Aliyeva, and Nigar Hasanli was exhibited.

The event aimed to showcase the creative potential of young talents and engage them in new projects. The works by Khazar's students were well-received by the attendees.



Gülgün Əliyeva



Asya Məmmədova



Nigar Həsənli



Ləman Hacıyeva



Aygül Qasımova



Ceyran Süleymanova

## PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞLARI BEYNƏLXALQ KONFRANSDA

isarc
INTERNATIONAL SCIENCE AND ART RESEARCH CENTER

## PSYCHOLOGY DEPARTMENT STAFF AT INTERNATIONAL CONFERENCE




Fevralın 2-3-də İstanbulda Beynəlxalq Elm və İncəsənət Araşdırma Mərkəzi (ISARC) tərəfindən təşkil olunan 9-cu Beynəlxalq Marmara Elmi Araşdırmalar və İnnovasiya Konqresində Xəzər Universitetinin Psixologiya departamentinin əməkdaşları Mələk Kərimova və Mirsadiq Muxtarov "Birinci kurs universitet tələbələrinin cinsiyyətə görə psixoloji simptom göstəricilərinin təhlili" adlı tədqiqatla çıxış etdilər. Onlar universitetə yeni daxil olmuş 204 nəfər birinci kurs tələbəsi üzərində apardıqları tədqiqatın nəticələrini təqdim ediblər. Təqdimat zamanı universitet təhsilinə yeni başlayan tələbələrin həm tədris, həm də sosial-emosionallıq baxımından müxtəlif çətinliklərlə qarşılaşdıqları qeyd olunub. Mütəxəssislər, tələbələrin əvvəlki təhsil mərhələsindən fərqli olaraq, universitetə daxil olduqda daha çox məsuliyyət daşıdıqlarını və müstəqil həyata adaptasiya prosesində bir sıra psixoloji çətinliklərlə üzləşdiklərini vurğulamışlar. Bu dəyişikliklərin, onların psixoloji vəziyyətinə təsir edərək adaptasiya çətinliklərini artırması mümkündür. Tədqiqatın nəticələrinə əsasən, qadın tələbələrin kişilərə nisbətən əhəmiyyətli dərəcədə daha yüksək psixoloji simptomlar nümayiş etdirdiyi müşahidə edilib. Bu, onların universitetə keçid prosesində daha çox psixoloji çətinliklər yaşadıqlarını və bu çətinliklərin onların ümumi adaptasiya qabiliyyətinə mənfi yöndə təsir etdiyini göstərir. Həmçinin, akademik gözləntilər və standartların tələbələr üçün əlavə stress mənbəyi olacağına dair tapıntılar diqqətə çatdırılıb.

Bu təqdimat iştirakçılar tərəfindən maraqla qarşılanmış və tədqiqatın universitet tələbələrinin psixoloji vəziyyətinin qiymətləndirilməsi sahəsində daha dərindən araşdırılmasına ehtiyac olduğunu bir daha ortaya qoymuşdur.




On February 2-3, Khazar University Psychology Department staff members Malak Karimova and Mirsadig Mukhtarov presented their research titled "Analysis of Psychological Symptom Indicators by Gender in First-Year University Students" at the 9th International Marmara Scientific Research and Innovation Congress organized by the International Science and Art Research Center (ISARC) in Istanbul.

They presented findings from their research conducted on 204 first-year students who had newly enrolled in the university. During the presentation, it was noted that students beginning their university education face various challenges both academically and socio-emotionally. The experts emphasized that unlike previous educational stages, students carry more responsibility upon entering university and face several psychological challenges during their adaptation to independent life. These changes may affect their psychological state and increase adaptation difficulties. According to the research results, female students demonstrated significantly higher psychological symptoms compared to males. This indicates that they experience more psychological difficulties during their transition to university, which negatively impacts their overall adaptation ability. Additionally, findings highlighted that academic expectations and standards would serve as additional sources of stress for students.

The presentation was well-received by participants and reinforced the need for more in-depth research in evaluating the psychological state of university students.

# DEPARTAMENT MÜDİRİ “DAHA SƏRBƏST” LAYİHƏSİNDƏ

# DEPARTMENT HEAD IN "MORE LIBERAL" PROJECT




*Aqşin Yenisey (yazıçı), Nicat Məmmədli (Elm və Təhsil Nazirinin müşaviri), Orxan Vəliyev*

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, Dos. Orxan Vəliyev Daha TV-nin təşkilatçılığı, Asan İnovasiyalar Mərkəzi və ASAN TV-nin dəstəyi ilə 5-dən etibarən hər ay bir akademik mövzu müzakirə olunacaq “Daha sərbəst” layihəsinə başlamışdır.

Layihə çərçivəsində sosial elmlərin dövlət, suverenlik, dil, Türk Dünyası, millətçilik, kapitalizm, insan və cəmiyyət, fəlsəfə və tarix və s. mövzular akademik dərinliklə, ancaq anlaşıqlı bir üslubla müzakirə ediləcəkdir.

Layihə Daha TV-nin rəhbərlərindən şair, yazıçı Aqşin Yeniseyin moderatorluğu ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin müşaviri Nicat Məmmədli və Dos. Orxan Vəliyevin çıxışları ilə baş tutacaqdır.

2025-ci ilin Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə “Konstitusiya və Suverenlik İli” elan edildiyi nəzərə alınaraq, ilk veriliş suverenlik mövzusuna həsr edilmişdir.

Programda suverenlik anlayışı nəzəri, fəlsəfi və tarixi aspektdən müzakirə edilmişdir.

Dr. Orkhan Valiyev, Head of the Department of Political Sciences and Philosophy and Associate Professor of Political Sciences, has commenced participation in the "More Liberal" project, organized by Daha TV with support from the ASAN Innovation Center and ASAN TV. Starting February 5, the project will feature monthly discussions on academic topics. The project will explore various subjects within social sciences with academic rigor yet accessible presentation, including state governance, sovereignty, language, Turkic World, nationalism, capitalism, human society, philosophy, and history.

The program will be moderated by Agshin Yenisey, poet, writer, and one of Daha TV's executives, featuring discussions between Dr. Orkhan Valiyev and Nijat Mammadli, Advisor to the Minister of Science and Education of the Republic of Azerbaijan.

Considering President Ilham Aliyev's decree declaring 2025 as the "Year of Constitution and Sovereignty" in Azerbaijan, the inaugural episode was dedicated to the concept of sovereignty. The program examined sovereignty from theoretical, philosophical, and historical perspectives.

*https://www.youtube.com/watch?v=ufS2_RE1Z74&t=2713s*

## ELMİ ARAŞDIRMALAR ÜZRƏ İLLİK HESABAT GÖRÜŞÜ





*Hamlet İsaxanlı*

## ANNUAL RESEARCH REPORT MEETING

Fevralın 4-də Xəzər Universitetində fəaliyyət göstərən tədqiqat mərkəzlərinin, akademik departamentlərin və fərdi alimlərin elmi araşdırma fəaliyyəti haqqında illik hesabat görüşü keçirildi. Görüş çərçivəsində universitetdə aparılan elmi tədqiqatların nəticələri, əldə edilən nailiyyətlər, qarşıya çıxan çətinliklər və onların həlli yolları, həmçinin beynəlxalq və yerli əməkdaşlıqların təsiri, elmi nəşrlərin və layihələrin perspektivləri, eləcə də gələcək tədqiqat istiqamətləri müzakirə olundu.



*Fəxrəndə Əfəndiyeva*

Görüşü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı açdı. O, universitetin son illərdə elmi fəaliyyət sahəsində əldə etdiyi uğurlardan bəhs edərək, tədqiqatların universitetin beynəlxalq nüfuzuna təsirindən danışdı. Eyni zamanda, elmi tədqiqatların keyfiyyətinin artırılması,

On February 4, Khazar University held its annual report meeting on the scientific research activities of research centers, academic departments, and individual scientists. The meeting discussed the results of scientific research conducted at the university, achievements, challenges and their solutions, the impact of international and local collaborations, prospects for scientific publications and projects, as well as future research directions.

The meeting was opened by Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and




*Lyudmila Sotova*

Chairman of the Board of Directors and Trustees. He spoke about the university's recent scientific achievements and the impact of research on the university's international reputation. He also emphasized steps needed to improve research quality, promote

multidissiplinar araşdırmaların təşviq olunması və universitetin elmi nəşrlərinin beynəlxalq səviyyədə daha geniş tanıdılması istiqamətində atılmalı olan addımları vurğuladı. Həmçinin, tədqiqat mərkəzlərinin fəaliyyətinin dəyərlindirilməsi üçün yaradılmış komissiya və onların üzərinə qoyulan öhdəliklərlə bağlı fikirlərini səsləndirdi.

Qeyd edək ki, komissiya bu tərkibdə yaradılmışdı: Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxərəndə Əfəndiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Raziyə İsayeva, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova.

Komissiya adından geniş hesabatı Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva təqdim etdi. O, bu mərkəzlərin qarşıya qoyduğu əsas



*Günel İmanova*

məqsədlər, əldə olunan nəticələr və qarşıdakı dövrdə nəzərdə tutulan strateji planlar haqqında ətraflı məlumat verdi. Hesabatın sonunda komissiyanın irəli sürdüyü tövsiyələr dinlənildi və onların reallaşdırılması üçün müvafiq addımlar müzakirə edildi.

Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova 2024-cü il üzrə departamentlərin və fərdi tədqiqatçıların elmi fəaliyyət nəticələrini əks etdirən hesabatı təqdim etdi. O, universitetin elmi məhsuldarlığının artırılması, tədqiqatların keyfiyyətinin yüksəldilməsi və məqalələrin beynəlxalq reytinqli jurnallarda dərc olunması istiqamətində görülən işlər barədə ətraflı məlumat verdi.

Tədbirin yekun hissəsində 2024-cü ildə ən çox elmi araşdırma aparan departamentlər və fərdi tədqiqatçılar

(*Ardı səh.24-də*)

multidisciplinary research, and enhance international visibility of the university's scientific publications. Additionally, he shared his thoughts on the commission established to evaluate research centers' activities and their responsibilities.



*Fəridə Tatardar*

The commission was formed with the following members: Fakhranda Efendiyeva, Dean of the School of Science and Engineering; Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Arts and Technology; Raziya Isayeva, Dean of the School of Economics and Management; Ingilab Ahmadov, Dean of the Graduate School of Economics and Business; Farida Tatardar, Head of Physics and Electronics Department; and Lyudmila Sotova, Director of Quality Assurance Center.

Fakhranda Efendiyeva, Dean of the School of Science and Engineering, presented a comprehensive report on behalf of the commission. She provided detailed information about the main objectives of these centers, achieved results, and strategic plans for the upcoming period. The commission's recommendations were heard at the end of the report, and steps for their implementation were discussed.

Lyudmila Sotova, Director of the Quality Assurance Center, presented a report reflecting the scientific activities of departments and individual researchers for 2024. She provided detailed information about efforts to increase the university's scientific productivity, improve research quality, and publish articles in internationally ranked journals.

At the conclusion of the event, departments and individual researchers who conducted the most scientific research in 2024 were awarded certificates and prizes.

(*To be continued page 24*)

təşəkkürnamə və mükafatlarla təltif olundu. Belə ki, 2024 - cü ildə ən çox elmi məqalələr dərc etdirən Fizika və elektronika departamenti "İlin ən yaxşı departamenti" və həmin departamentin tədqiqatçısı Günel İmanova və İqtisadiyyat və menecment fakultəsinin tədqiqatçısı Mustafa Kartal "İlin ən yaxşı tədqiqatçısı" kimi sertifikat və mükafata layiq görüldülər. Yekunda Hamlet İsaxanlı tədqiqat mərkəzlərinə və departamentlərə universitetin elmi potensialının daha da gücləndirilməsi, beynəlxalq tədqiqat şəbəkələrinin genişləndirilməsi və müasir elmi çağırışlara cavab verən araşdırmaların həyata keçirilməsi üçün müvafiq tövsiyələr verdi. Tədbirin sonunda iştirakçılar universitetin elmi inkişafına dair yeni təşəbbüsləri müzakirə edərək, gələcək əməkdaşlıq və layihələr haqqında fikir mübadiləsi apardılar.

The Physics and Electronics Department was named "Best Department of the Year" for publishing the most scientific articles in 2024, while Gunel Imanova from the same department and Mustafa Kartal from the School of Economics and Management received certificates and awards as "Researchers of the Year." In closing, Hamlet Isakhanli provided recommendations to research centers and departments for further strengthening the university's scientific potential, expanding international research networks, and conducting research that responds to modern scientific challenges. At the end of the event, participants discussed new initiatives for the university's scientific development and exchanged ideas about future collaborations and projects.

## TƏLƏBƏLƏRİN *FAB* ŞİRKƏTLƏR QRUPUNA SƏFƏRİ

Fevralın 13-də Xəzər Universitetinin bir qrup tələbəsi təhsil ekskursiyası çərçivəsində *FAB* Şirkətlər Qrupuna səfər etdilər. Bu səfər şirkətin istehsal prosesləri, keyfiyyətə nəzarət tədbirləri və innovasiyayönümlü istehsal yanaşması haqqında ətraflı məlumat əldə etməyə imkan yaratdı. Tələbələr şirkət nümayəndələri tərəfindən səmimi qarşılandılar və onlara *FAB* Qrupunun tarixi, əsas dəyərləri və missiyası haqqında məlumat verildi. Bundan sonra tələbələrə istehsal müəssisələrinin təlimatlandırılmış turu təqdim edildi. Burada onlar xammalın seçilməsi, qarışdırılma və emal mərhələləri, qablaşdırma və keyfiyyətə təminat daxil olmaqla istehsalın müxtəlif mərhələlərini müşahidə etmək imkanı əldə etdilər. Səfərin ən maraqlı hissələrindən biri *FAB* Akademiyasının keyfiyyətə nəzarət laboratoriyaları ilə tanışlıq idi. Burada tələbələr məhsul təhlükəsizliyi və ardıcıllığını təmin etmək üçün istifadə olunan müxtəlif elmi və texniki proseslər haqqında məlumat əldə etdilər. Akademiyanın mütəxəssisləri tərəfindən kimyəvi analiz, davamlılıq qiymətləndirmələri və sensor qiymətləndirmələri də daxil olmaqla, ən yüksək keyfiyyət standartlarını qorumaq üçün müxtəlif testlərin necə aparıldığı izah olundu. Tələbələr, həmçinin, bu testlərin bəzilərinin praktiki tətbiqini müşahidə etmək imkanı qazandılar ki, bu da onlara sənaye istehsalında tədqiqat və inkişafın əhəmiyyətini daha yaxşı anlamağa kömək etdi.

Təlim təcrübəsini zənginləşdirmək məqsədilə şirkət nümayəndələri istehsalda istifadə olunan texnologiya və avadanlıqlar haqqında ətraflı izahat verdilər və müasir istehsalda avtomatlaşdırma, dəqiq mühəndislik və dayanıqlılıq təcrübələrinin rolunu vurğuladılar. Tələbələr xüsusilə şirkətin tullantıların azaldılması, təkrar emal təşəbbüsləri və enerjiyə qənaət prosesləri vasitəsilə ətraf mühitə təsiri minimuma endirmək səyləri ilə maraqlandılar.

## KHAZAR UNIVERSITY STUDENTS VISIT *FAB* GROUP OF COMPANIES

On February 13, a group of students from Khazar University had an opportunity to visit the *FAB* Group of Companies as part of an educational excursion. This visit provided an insightful look into the company's manufacturing processes, quality control measures, and innovation-driven approach to production.

The students were warmly welcomed by the company representatives, who introduced them to *FAB* Group's history, core values, and mission. Following this, the students were given a guided tour of the production facilities, where they had the chance to observe the different stages of manufacturing, including the selection of raw materials, the blending and processing phases, packaging, and quality assurance. One of the most engaging parts of the visit was the introduction to *FAB* Academy's quality control laboratories, where students learned about the various scientific and technical procedures used to ensure product safety and consistency. The experts at the academy explained how different tests, including chemical analysis, durability assessments, and sensory evaluations, are conducted to maintain the highest quality standards. The students also had the chance to witness some of these tests in action, giving them valuable insights into the importance of research and development in industrial production. To enhance the learning experience, the company representatives provided detailed explanations of the technology and machinery used in production, highlighting how automation, precision engineering, and sustainability practices play a role in modern manufacturing. Students were particularly interested in the company's efforts to minimize environmental impact through waste reduction, recycling initiatives, and energy-efficient processes.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİ MÜƏLLİMİNİN “BOZ DÜNYAYA SƏYAHƏT” ADLI KİTABI ÇAP OLUNUB




Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, yazar, ədəbiyyatşünas fil.ü.f.d.Yeqzar Cəfərlinin “Boz dünyaya səyahət” adlı kitabı işıq üzü görüb. Üç bölmədən ibarət olan kitabda müəllifin indiyə kimi yazdığı bütün bədii əsərləri toplanıb.

“Boz kəpənək” adlı I bölmədə müəllifin müxtəlif səpkili şeirləri verilib. “Qəhvəyi pencəkli oğlan” adlı II bölmə hekayələrdən ibarətdir. III bölmədə isə “Daşlar ulduzlarla görüşəndə” adlı roman yer alıb.

“Boz dünyaya səyahət” müəllifin sayca dördüncü kitabıdır. Bundan əvvəl onun “Əli Fəhmi dünyası” və “Nəriman Əbdülrəhmanlının bədii yaradıcılığı” adlı monoqrafiyaları və “Uçurum” hekayələr kitabı çapdan çıxıb.

## LANGUAGES AND LITERATURE DEPARTMENT PROFESSOR'S BOOK "JOURNEY TO THE GRAY WORLD" PUBLISHED

A new book titled "Journey to the Gray World" by PhD. Yegzar Jafarli, professor at Khazar University's Department of Languages and Literature, writer, and literary scholar, has been published. The book, divided into three sections, compiles all of the author's literary works to date.

The first section, titled "Gray Butterfly," features the author's various poems. The second section, "The Boy in the Brown Jacket," consists of short stories. The third section contains a novel titled "When Stones Meet Stars."

"Journey to the Gray World" is the author's fourth book. His previous works include two monographs, "Ali Fahmi's World" and "Nariman Abdulrahmanli's Literary Works," and a collection of short stories titled "The Abyss."

## “KİTABLAR ƏN YAXŞI DOSTUMDUR” MÖVZUSUNDA TƏDBİR






Güllü Tomarova

## EVENT ON "BOOKS ARE MY BEST FRIENDS"

Fevralın 14-də Xəzər Universitetinin Mərmər salonunda universitetin Mədəni Antropologiya və Folklor İnstitutunun və Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin birgə təşkilatçılığı ilə “Kitablar ən yaxşı dostumdur” mövzusunda tədbir keçirildi. Tədbirdə universitetin rəhbərliyi, əməkdaşları, tələbələr və şəhid ailələri iştirak edirdilər.



Sevil Hüseynova

Əvvəlcə şəhidlərin xatirəsi yad edildi, sonra mövzuya aid qısa videoçarx nümayiş olundu. Universitetin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxışında tələbələrə kitabın, mütaliənin mahiyyətini və əhəmiyyətini izah etdi və kitab oxumaları üçün onlarla təşviqedici söhbət apardı.

Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin rəhbəri Güllü Tomarova kitab oxumağın – mütaliənin zehni inkişaf üçün mühüm vasitə olması haqqında fikir və mülahizələrini bildirdi. O, çıxışından sonra

An event titled "Books Are My Best Friends" was jointly organized by Khazar University's Institute of Cultural Anthropology and Folklore and the Mirvarid Dilbazi Poetry Assembly Public Union at the University's Marble Hall on February 14. The event was attended by university administration, staff, students, and families of martyrs.

The event began with a moment of remembrance for the martyrs, followed by a short video presentation on the topic. Prof. Academician Hamlet Isakhanli, founder of the university and Chairman of the Board




Turan İbrahimov

of Directors and Trustees, addressed the students, explaining the essence and importance of books and reading, and held an encouraging discussion to promote reading among students.

tələbələrə müxtəlif kitablar hədiyyə etdi.



Riyaziyyatçı mütəxəssis Turan İbrahimov çıxışından sonra çox sevdiyi tanınmış yazıçı Əzizə Cəfərzadənin kitablarını tələbələrə hədiyyə verdi. Yazıçı Vahid Osmanlı da öz kitablarını iştirakçılara bağışladı.

Şəhid ailələri adından çıxış edən Sevil Hüseynova oğlu - şəhid Zaur haqqında danışdı və onun xatirəsinə yazılmış bir kitabı Hamlet İsaxanlıya təqdim etdi. Sonra Aynur Qəzənfərqızı tədbiri daha maraqlı edərək, tələbələrlə bir sorğu keçirdi. Doğru cavab verənlərə Hamlet İsaxanlının müəllifi olduğu kitablar hədiyyə edildi.

**Nigar Ələsgərli**
*Xəzər Universiteti, Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası, 1-ci kurs*



*Vaqif Osmanlı*



*Aynur Qəzənfərqızı*

Gullu Tomarova, head of the Mirvarid Dilbazi Poetry Assembly Public Union, shared her thoughts and observations about reading being an essential tool for intellectual development. Following her speech, she presented various books to the students.

Mathematics specialist Turan Ibrahimov, after his presentation, gifted students with books by his favorite renowned author Aziza Jafarzade. The writer Vahid Osmanli also donated his books to the participants.

Speaking on behalf of martyrs' families, Sevil Huseynova talked about her son - martyr Zaur and presented a book written in his memory to Hamlet Isakhanli. Later, Aynur Gazanfargizi made the event more engaging by conducting a quiz with students. Those who answered correctly were awarded books authored by Hamlet Isakhanli.

**Nigar Alasgarli**
*Khazar University, Azerbaijan Language and Literature Teaching, 1st year*

# “XƏZƏR XƏBƏR” JURNALININ REDAKSİYA HEYƏTİNİN ÜZVÜ, RİYAZİYYATÇI ALİM, YAZIÇI-PUBLİSİST İSMİXAN YUSUBOVUN “ÖMRÜMƏ NUR ÇİLƏYƏNLƏR” ADLI YENİ KİTABI ÇAPDAN ÇIXIB

Xəzər Unversiteti “Xəzər Xəbər” jurnalının redaksiya heyətinin üzvü, riyaziyyatçı alim, yazıçı-publisist İsmixan Yusubovun yeni “Ömrümə nur çiləyənlər” adlı kitabı “Füyuzat” nəşriyyatında işıq üzü görüb. Kitab müəllifin oxuduğu, yazdığı kitablar haqqında bir kitabdır. Kitabda uşaq və heyvanat aləmi, riyaziyyat, fizika, fantastika və ədəbi abidələrə aid yazilarla yanaşı, alman və yapon kitablarına da yer verilmişdir. Bundan başqa, kitabda tanınmış müəlliflərin əsərləri haqqında yazılmış məqalələr yer almışdır.




Kitab müəllifin kitaba olan sevgisinin qısa tarixçəsi ilə başlayır, proloq ilə davam edir. Bu bölümlərdə müəllif bu kitabın yaranma tarixçəsindən və ilk dəfə oxumağa başladığı kitablardan söz açır. Kitabda “Böyük formatlı uşaq kitablarım”, “Kiçik formatli uşaq kitablarım” bölümlərində uşaq vaxtı oxuduğu kitablar haqqında məlumat və şəkillər yer alıb. “Kitab haqqında xatirələrim və sevgili kitablarım” bölümündə orta məktəb illərində çox sevdiyi və həyatında silinməz izlər qoymuş kitablardan söhbət açır, kitabların tarixçəsi, içində olan maraqlı, didaktik informasiya daşıyan parçalar haqqında məlumat verir. Bu bölümdə hekayə və nağıllarla yanaşı Molla Nəsrəddin lətifələri, təbiət qanunları ilə bağlı lətifələr, Məntiq və riyaziyyatla əlaqəli lətifələr, Siyasətlə əlaqəli lətifələr, Ədalətlə əlaqəli lətifələr yer alıb. Müəllif sonda “Nəticələr paraqrafında bu kitablar haqqında yekun fikirlərini təqdim edir.

Kitabın növbəti fəsli heyvanlar haqqındakı kitablardır. Burada heyvanlar haqqında iri həcmli kitablar və heyvanlar aləmi haqqında A.Brem va digərlərinin kitabları və heyvanlar aləmi haqqında çox sevdiyi kitablar bölümlərində kitabların şəkilləri və onlar haqqında qısa məlumat verilmiş, heyvanlar haqqında sevdiyi kitablardan iqtibaslar təqdim edilmişdir. “Heyvanlar haqqında öz yazdıqlarım” bölümündə müəllif yazdığı hekayələri “Bir riyaziyyatçının dilindən təbiət hekayələri. I yazı” və “Bir riyaziyyatçının dilindən təbiət hekayələri. II yazı” adları altında qruplaşdırıb, sonda “Son söz yerinə” bölümündə müxtəlif heyvanlaın şəkilləri verilib.

“Riyaziyyat va fizikaya aid kitablar” fəsli məllifin kitabxanasındakı riyaziyyat haqqında kitabların şəkilləri və qısa məlumatlarla başlayır. “Çox sevdiyim riyaziyyat va fizikaya aid kitablarım” bölümündə müəllif riyaziyyat və fizika elminin tarixi və oxuduğu rizayiyyat və fizika kitabları haqqında geniş məlumat vermişdir. Burda, həmçinin, A.N.Kalmaqorov, Anri Puankare, Lev S. Pontryagin, Karl Fridrix Qauss, Harold Qotfird Hardi, Sirinvaza Ramanucan, leonard Eyler və s. tanınmış riyaziyyatçıların yazdığı kitablardan söz açılmışdır.

“Fəlsəfəyə aid kitablar”, “Fəlsəfə haqqında filosofluq cəhdi”; “Fantastika janrına aid kitablar”, “Fan-

tastika janrına aid sevimli kitablarımız"; "Ədəbi abidələrə aid kitablar", "Ədəbi abidələrdən nümunələr" fəsllərində bu mövzularda olan kitabların şəkilləri və geniş məlumatlar verilmişdir.

"Almanca uşaq kitablarımız" və "Almanca böyüklar üçün olan kitablar" bölümlərində almanca kitablar haqqında qısa məlumat və şəkillər təqdim edilir. "Alman dili və bu dildə olan kitablar haqqında xatirələrim" bölümündə müəllif alman dilini öyrənməyə başlamasından və bu dildə oxuduğu kitablardan bəhs edir. Növbəti fəsildə Yaponiya və yaponlar haqqında kitabların şəkilləri və qısa məlumat verilmişdir. "Yapon(iya) kitabları haqqında bildiklarimdən" bölümündə Yapon dilinə və mədəniyyətinə olan sevgidən və yapon kitablarından geniş məlumat verilmişdir.

Kitabın böyük bir fəsli İslam va Qur`anla bağli kitablara həsr olunub. "Qur`an və İslam haqqında düşündüklərim" bölümündə müəllif Qur`anı oxumağa başladığı ilk dönəmdən (2008-ci il), Qur`anın yazıldığı ərəb əlifbası ilə hələ uşaq ikən Poylu kəndində qəbrüstü abidələrdə tanış olub, sonradan bu əsrarəngiz yazıları oxumaq üçün unversitet illərində orta məktəb üçün ərəb və fars dili kitabları almasından, dili öyrənmək arzusunun isə övladları ilə birlikdə onlar məktəbə gedərkən baş tutmasından söz açır. Kitabda "İslam və Qur`an-i Kərim baxımından elm və din əlaqələri" bölümündə müəllifin İman və elm haqqında düşüncələri, İslam və Qur`anın elmə baxışı, elmi tədqiqatların nəticələri baxımından İslam və Qur`an mövzularına aid fikirlər yer alır. Növbəti paraqraflarda Yasin-i Şərif (Surə - 36), Qur`an-i Kərimin qısa surələri və Qur`an-i Kərim haqqında geniş məlumatlar verilib.




"İsmixan Yusubovun öz kitabları" bölümündə onun yazdığı kitablar yer alıb: "Lineer Cebr" (2004); "Lineer Cebr" (2006); "Lineer Cebr" (2009); "Bilimsəl devrimin baş yapıtları"; "Реинкарнация прерванной дружбы"; "Xətti cəbrin əsasları"; "Ehtimal nəzəriyyəsinin elementləri"; "Mənim Poylu kəndim"; "Şeirim – həyatım mənim"; "Писмо другу – Постскриптум"; "Kompleks dəyişənli funksiyalar nəzəriyyəsindən məsələ həllinə dair rəhbərlik və çalışmalar"; "Sayısal görüntü"; "Числовая область"; "Bilim və Bilimsəl yöntəm"; "Mənim Atlantidam"; "Cəlilabadnamə"; "Anlatmanın əzabı, sevinci və kədəri"; "Anlamanın sevinci ve kederi"; "Riyazi fizikanın bəzi klassik məsələlərinin həll üsulları"; "Elm və metafizika haqqında monoloqlar"; "Erməni Dosyası"; "Atam və Biz, Siz, Onlar"; "Писмо другу"; "Dosta məktub"; "Dosta mektup"; "Возвращение Одиссея или путь в длиною 55 лет" (2019-1964); "Моя армейская Одиссея и латышские друзья" (1964-1967). "Oxumaq, Düşünmək, Anlamaq, Əməl Etmək" Dördlüsü haqqında bəzi diletant mülahizələrim" yazısında bu anlayışlar haqqında öz fəlsəfi fikirlərini bildirib.

Növbəti bölümdə müəllifin kitabxanasında olan Prof. Akad. Hamlet İsaxanlının bəzi kitablarından bəhs edilir: "Bu da bir həyatdır" (şeirlər); "Əlkimya" (elm, sənət və mistika); "Şeirə dönən duyğular" (fars əlifbası ilə); "Hamlet İsaxanlı" (alim və qurucu ömrü); Nailəxanım İsayeva, "Xoşbəxtlik göydən düşmür..."; Hamlet İsaxanli, "Xəzərin sorağında"; "Ziyarət"; "Kontrastlar" (rus dilində); "Təzadlar"; "Dördlüklər".

"Xəzərin sorağında" risaləsini oxuduqdan sonra paylaşmaq istədiyim incəliklər haqqında" adlı bu

fəsil, müəllifin yazdığı kimi, "Bütün məclislərimizn canı-ruhu olan unudulmaz Nailə xanımın əziz xatirəsinə" həsr olunmuşdur. Burada müəllif Hamlet İsaxanlı ilə tanışlıq, birgə keçirdikləri universitet illəri, ayrı düşdükləri zamanlar haqqında, unversitet illərindən sonra Azərbaycan Dövlət Universitetində dərs deyərkən yollarının kəsişməsi haqqında xatirələrini bölüşmüş, Hamlet İsaxanlının qurucusu olduğu Xəzər Unversiteti haqqındakı "Xəzərin sorağında" kitabını oxuduqdan sonra kitab haqqındakı fikirlərini yazmışdır. İsmixan Yusubov kitabın bütün fəsilləri haqqında qısa məlumat verərək, sondakı epiloq bölümündə Türkiyə Cumhuriyyətinin yaradıcısı M.K.Atatürkün Milli Məclisdə 6 gün boyunca Cumhurriyyətin yaradılması haqqında olan çıxışının "Nutuk" kitabı ilə paralellər apararaq, "Xəzərin sorağında" kitabının 120 səhifə deyil, bu gün yazılarsa Bakı, Sumqayıt və Gəncədə açılmış "Dünya" məktəblərini nəzərə alaraq daha böyük həcmli oacağını vurğulamışdır.

Kitabın sonrakı bölümləri "Şəhla Nihanın kitabları"; "Rafiq Tağının Kitabları"; "Rasim Qaracanın kitabları"; "Corc Ouelin və digər üç nəfərin kitabları" haqqında qisa məlumat verilmişdir.

Kitab müəllifin "Sifarişli yazı" məqaləsi ilə tamamlanır.

**Dilarə Məstəliyeva**

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "*BAKU DIALOGUES*" JURNALINDA

Xəzər Universitetinin Siyasi elmlər və Fəlsəfə departamentinin müəllimi Dr. Vasif Hüseynovun "Breaking Free from Parochial Geopolitical Complexity: Azerbaijan's Quest for a Third Path" (Paroxial geosiyasi mürəkkəblikdən qurtulmaq: Azərbaycanın üçüncü yol axtarışı) adlı məqaləsi "*Baku Dialogues*" jurnalında dərc edilmişdir (2024-2025, Cild 8. № 2. Səhifə 70-85).

Qeyd edək ki, ADA Universitetinin ingilisdilli rüblük nəşri olan "*Baku Dialogues*" jurnalı Kolumbiya Universiteti Nəşriyyatının "Columbia International Affairs Online (CIAO)" akademik tammətnli elektron jurnal və məqalələr bazasına daxil edilib. Bununla da ADA Universiteti "CIAO"nun 300-dən artıq qlobal akademik tərəfdaşı sıralarına qoşulub.




## POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT FACULTY MEMBER'S ARTICLE PUBLISHED IN "*BAKU DIALOGUES*" JOURNAL

Dr. Vasif Huseynov, a faculty member of Khazar University's Department of Political Science and Philosophy, has published an article titled "Breaking Free from Parochial Geopolitical Complexity: Azerbaijan's Quest for a Third Path" in the "*Baku Dialogues*" journal (2024-2025, Volume 8, No. 2, Pages 70-85).

It should be noted that "*Baku Dialogues*," a quarterly English-language publication of ADA University, has been included in Columbia University Press's "Columbia International Affairs Online (CIAO)" academic full-text electronic journal and article database. With this achievement, ADA University has joined the ranks of more than 300 global academic partners of "CIAO."

*https://bakudialogues.ada.edu.az/media/2025/02/19/bd-v8-n2-winter_2024-25_huseynov.pdf*

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ DOS. TELMAN NÜSRƏTOĞLUNUN *AZTV* PROQRAMINDA DAİMİ ANALİTİK KİMİ FƏALİYYƏTİ DAVAM EDİR

## HEAD OF HISTORY AND ARCHAEOLOGY DEPARTMENT ASSOC. PROF. TELMAN NUSRATOGLU CONTINUES AS REGULAR ANALYST ON *AZTV* PROGRAM

Xəbər verdiyimiz kimi, Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos.Telman Nüsrətoğlu dövlət televizyası *AZTV* ilə əməkdaşlıq çərçivəsində “Hədəf “ verilişinin tarix və strateji mövzulu xüsusi buraxılışlarının daimi analitiki kimi fəaliyyətə başlamışdır. Yanvarın 24-də başlanan xüsusi buraxılış fevral ayında davam etdirilmişdir.

Fevralın 17-də yayımlanan növbəti verilişdə tarixdən gələcəyə ABŞ-Rusiya münasibətlərinin bütün istiqamətləri geniş təhlil edilmiş, Ukrayna məsələsi və yeni dünya nizamı uğrunda gedən mübarizənin inkişaf perspektivləri ilə bağlı tamaşaçılara müxtəlif mülahizələr təqdim olunmuşdur.

Fevralın 21-də Bu proqramda Hələb və Şam şəhərlərinin Türk İslam tarixindəki yeri, xüsusilə Abbasilər dövründən etibarən Oğuz-Türkmən qruplarının bölgəyə yerləşməyə başlaması, Osmanlı dövləti parçalandıqdan sonra Suriyanın idarəçiliyi və Baas iqtidarı dövründə orada baş verən hadisələr, Azərbaycan-Suriya tarixi-mədəni əlaqələri və Aralıq dənizi hövzəsinə hakimiyyət baxımından Suriyanın yerləşdiyi ərazinin önəmi ilə bağlı tamaşaçılara geniş məlumatlar verilmişdir.

As previously reported, Assoc. Prof. Telman Nusratoglu, Head of the History and Archaeology Department at Khazar University, has begun working as a regular analyst for special editions of the "Hadaf" (Target) program focusing on history and strategic topics, as part of a collaboration with state television *AZTV*. The special editions, which began on January 24, continued throughout February.

In the next broadcast aired on February 17, all aspects of US-Russia relations from history to the future were extensively analyzed, and viewers were presented with various perspectives on the Ukraine issue and the development prospects of the struggle for a new world order.

On February 21, the program provided viewers with comprehensive information about the place of Aleppo and Damascus in Turkish-Islamic history, particularly the settlement of Oghuz-Turkmen groups in the region starting from the Abbasid period, Syria's governance after the dissolution of the Ottoman state and events that occurred during the Baath regime, historical-cultural relations between Azerbaijan and Syria, and the importance of Syria's territory in terms of dominance over the Mediterranean basin.



*Milana Abbasova, Elçin Hüseynli*



## DEPARTAMENT MÜDİRİ HİNDİSTANDA ELMİ VƏ MƏDƏNİ MÜBADİLƏ PROQRAMINDA İŞTİRAK EDİB

Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamenrinin müdiri Dr. Milana Abbasova fevralın 3-dən 11-dək Bakıdakı "Evrika" liseyinin Pedaqoji Təcrübə və İnkişaf Mərkəzinin Hindistanın "Modern Public School" məktəbi ilə birgə təşkil etdiyi Elmi və Mədəni Mübadilə Proqramında iştirak edib.

Proqram çərçivəsində Dr. Abbasova "Modern Public School" məktəbinin müəllimləri üçün innovativ pedaqoji yanaşmalar və dil tədrisinin metodologiyasına həsr olunmuş ixtisaslaşdırılmış təlim keçirib. Bundan əlavə, o, Cəvahirləl Nehru Universiteti və Dehli Universitetində dil və dilçilik ixtisası üzrə təhsil alan tələbələr və professor-müəllim heyəti ilə görüşərək, dilçilik tədqiqatları və təhsil təcrübəsi sahəsində fikir mübadiləsi aparıb. Akademik səfər zamanı Abbasovanın da tərkibində olduğu Azərbaycan nümayəndə heyəti Azərbaycan Respublikasının Hindistandakı fövqəladə və səlahiyyətli səfiri Elçin Hüseynli və attaşe Rauf İsmayılovla görüşüb. Görüşdə iki ölkə arasında təhsil əlaqələrinin möhkəmləndirilməsində beynəlxalq akademik əməkdaşlığın və mədəni mübadilənin əhəmiyyəti vurğulanıb.

Bu proqram Azərbaycan və Hindistan arasında akademik tərəfdaşlığın inkişafı və mədəniyyətlərarası anlaşmanın təşviqi üçün əhəmiyyətli platforma rolunu oynayıb.

## HEAD OF DEPARTMENT PARTICIPATES IN ACADEMIC AND CULTURAL EXCHANGE PROGRAM IN INDIA


*Alka Kapur (Modern Public School-un direktoru)*

From February 3 to 11, Dr. Milana Abbasova, Head of the English Language and Literature Department, participated in the Academic and Cultural Exchange program organized by the Department of Pedagogical Experience and Development Center of Evrika Lyceum in collaboration with Modern Public School in India.

As part of the program, Dr. Abbasova conducted a specialized workshop for teachers at Modern Public School, focusing on innovative pedagogical approaches and language teaching methodologies. Additionally, she engaged with students and faculty members majoring in languages and linguistics at Jawaharlal Nehru University and Delhi University, exchanging insights on linguistic research and educational practices. During the academic visit, the Azerbaijani delegation, including Dr. Abbasova, had the opportunity to meet with H.E. Mr. Elchin Huseynov, Ambassador of the Republic of Azerbaijan to India, and attaché Mr. Rauf Ismayilov. The discussions highlighted the importance of international academic collaboration and cultural exchange in strengthening educational ties between the two countries. This program served as a valuable platform for fostering academic partnerships and promoting cross-cultural understanding between Azerbaijan and India.

## *KIRŞEHİR AHI EVRAN UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ*

## *DELEGATION FROM KIRSEHIR AHI EVRAN UNIVERSITY VISITS "KHAZAR"*

Fevralın 19-da Xəzər Universiteti Kırşehir Ahi Evran Universitetinin nümayəndə heyətini qəbul edib.

Qəbul Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru Prof. Məhəmməd Nuriyev, İctimaiyyətlə əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru Seyran Əliyevanın iştirakı ilə keçib.



*Yusuf İslam Sürücü, Hüseyin Şimşek, Mustafa Kasım Karahocagilin, Selahattin Çınar, Telman Nusrətoğlu, Məhəmməd Nuri, Əlövsət Əmirbəyli, Seyran Əliyeva*

Görüşdə Kırşehir Ahi Evran Universitetinin rektoru Prof. Dr. Mustafa Kasım Karahocagilin, prorektor Prof. Dr. Hüseyin Şimşek, Kənd təsərrüfatı fakültəsi dekanı Prof. Dr. Selahattin Çınar və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Yusuf İslam Sürücü iştirak edib. Görüşdə Kırşehir Ahi Evran Universiteti ilə Xəzər Universiteti arasında tərəfdaşlıq və əlaqələrin gücləndirilməsi müzakirə olunmuş, növbəti addımlarla bağlı fikir mübadiləsi aparılmışdır

Görüşün sonunda hədiyyələr təqdim edilib, kampus turu təşkil olunub.

On February 19, Khazar University hosted a delegation from Kirsehir Ahi Evran University.

The reception was attended by Prof. Muhammad Nuriyev, Vice-Rector for Academic Affairs at Khazar University, Alovsat Amirbayli, Director of Public Relations and Media, Fatima Valiyeva, Head of International Relations Department, and Seyran Aliyeva, Coordinator. The meeting was attended by Prof. Dr. Mustafa Kasim Karahocagil, Rector of Kirsehir Ahi Evran University, Prof. Dr. Huseyin Simsek, Vice-Rector, Prof. Dr. Selahattin Cinar, Dean of the Faculty of Agriculture, and Yusuf Islam Surucu, Coordinator of International Relations Department. During the meeting, strengthening partnership and relations between Kirsehir Ahi Evran University and Khazar University was discussed, and ideas were exchanged regarding next steps. At the end of the meeting, gifts were presented, a campus tour was organized.

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN ƏMƏKDAŞI MƏHƏMMƏD İMRANIN MƏQALƏLƏRİ XARİCİ JURNALLARDA

# ARTICLES OF ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT`S STAFF MEMBER MUHAMMAD IMRAN IN FOREIGN JOURNALS

## "*SOCIETIES*" JURNALINDA

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı Dr. Məhəmməd İmranın “Trends and Gender Dynamics in Professional Certification Growth in Saudi Arabia” (“Səudiyyə Ərəbistanında peşəkar sertifikatlaşmanın inkişafında tendensiyalar və gender dinamikası”) adlı məqaləsi Scopus Q2 və Web of Science-ESCI 1.7 impakt faktorlu "*Societies*" jurnalının 15-ci cildinin 28-ci nömrəsində dərc edilib.

Məqalədə Səudiyyə Ərəbistanında dil təhsili və digər sahələrdə peşəkar sertifikatlaşmanın inkişafındakı tendensiyalar və gender dinamikası araşdırılır, onların əhatə dairəsi, əhəmiyyəti və karyera inkişafı və işçi qüvvəsinin inkişafına təsiri vurğulanır.

## IN “*SOCIETIES*” JOURNAL

Dr. Muhammad Imran, staff member of Khazar University's English Language and Literature Department has published an article titled “Trends and Gender Dynamics in Professional Certification Growth in Saudi Arabia” in *Societies*, Vol. 15(28), a Scopus Q2 and Web of Science-ESCI with 1.7 Impact Factor journal.

The article examines the trends and gender dynamics in the growth of professional certifications in language education and other industries in Saudi Arabia, highlighting their scope, significance, and impact on career advancement and workforce development.

*https://www.mdpi.com/2075-4698/15/2/28*

## "*COGENT EDUCATION*" JURNALINDA




Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı Dr. Məhəmməd İmranın “Multiple Modalities of Teaching Civic Education Awareness among Students: A Pragmatic Approach-Based Case Study” (“Tələbələr arasında vətəndaşlıq təhsili haqqında məlumatlılığın çoxsaylı tədris modallıqları: Praqmatik yanaşmaya əsaslanan tədqiqat işi”) adlı məqaləsi Scopus Q2 və Web of Science-ESCI 1.6 impakt faktorlu "*Cogent Education*" jurnalının 12-ci cildinin 1-ci nömrəsində dərc edilib.

Məqalədə vətəndaşlıq təhsilinin gənclərin təfəkkürünə müsbət təsiri araşdırılır, onun mövcud təcrübəsindəki çətinliklər vurğulanır və gənclər arasında vətəndaşlıq haqqında məlumatlılığın artırılması üçün təhsil müəssisələri, dövlət və ictimaiyyət arasında birgə səylərin vacibliyinə diqqət yetirilir.

Məqaləyə keçid: *https://www.tandfonline.com/doi/full/10.1080/2331186X.2025.2460967*

## IN “*COGENT EDUCATION*” JOURNAL

Dr. Muhammad Imran, staff member of Khazar University's English Language and Literature Department has published an article titled “Multiple Modalities of Teaching Civic Education Awareness among Students: A Pragmatic Approach-Based Case Study” in *Cogent Education*, Vol. 12(1), a Scopus Q2 and Web of Science-ESCI with 1.6 Impact Factor journal.

The article explores the positive impact of civic education on young minds, highlights challenges in its current practice, and emphasizes the need for collaborative efforts between educational institutions, the state, and communities to enhance civic awareness among youth.

This paper can be read at: *https://www.tandfonline.com/doi/full/10.1080/2331186X.2025.2460967*

## "*CONTEMPORARY EDUCATIONAL TECHNOLOGY*" JURNALINDA
## IN "*CONTEMPORARY EDUCATIONAL TECHNOLOGY*" JOURNAL



Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı Dr. Məhəmməd İmran`ın "Effect of CALL-based multimodal pedagogy on learner motivation and willingness to communicate in English: A Study from university students' perspective" ("CALL əsaslı multimodal pedaqogikanın tələbələrin ingilis dilində ünsiyyət qurmaq motivasiyasına və istəyinə təsiri: universitet tələbələrinin perspektivindən araşdırma") başlıqlı məqaləsi "*Contemporary Educational Technology*" jurnalının 17(2) nömrəsində dərc edilib. Jurnal Scopus Q2 və Web of Science-ESCI Q1 indeksli olub, 2.40 impakt faktora malikdir.

Məqalədə CALL əsaslı multimodal pedaqogikanın universitet tələbələrinin ingilis dilində ünsiyyət qurmaq motivasiyasına və istəyinə necə təsir etdiyi, onların dərslərdə iştirakını və dil öyrənmə təcrübəsini necə formalaşdırdığı araşdırılır.

Məqaləyə keçid: *https://doi.org/10.30935/cedtech/15961*

Dr. Muhammad Imran, staff member of Khazar University's English Language and Literature Department has published an article titled "Effect of CALL-based multimodal pedagogy on learner motivation and willingness to communicate in English: A Study from university students' perspective" in *Contemporary Educational Technology*, Vol. 17(2), a Scopus Q2 and Web of Science-ESCI Q1 with 2.40 Impact Factor journal.

The article explores how CALL-based multimodal pedagogy influences university students' motivation and willingness to communicate in English, shaping their engagement and language learning experience.

This paper can be read at *https://doi.org/10.30935/cedtech/15961*

commonspace.eu

## ARTICLE BY A LECTURER FROM THE DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY ON *COMMONSPACE.EU*

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Vasif Hüseynovun "Opinion: The World Must Know More about the Khojaly Genocide" ("Dünya Xocalı Soyqırımı haqqında daha çox bilməlidir") mövzusunda məqaləsi "Commonspace.eu"da dərc edilmişdir.

Qeyd edək ki, "*Commonspace.eu*" 1997-ci ilin iyulunda Londonda yaradılmış LINKS şəbəkəsinin bir hissəsi olan, Niderlandın Haaqa şəhərində qeydiyyatdan keçmiş LINKS Europe fondunun nəşridir.

Məqavələyə keçid: *https://www.commonspace.eu/opinion/opinion-world-must-know-more-about-khojaly-genocide*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "*COMMONSPACE.EU*"DA

An article by Dr. Vasif Huseynov, Lecturer of Political Science and Philosophy Department at Khazar University, titled "Opinion: The World Must Know More about the Khojaly Genocide", has been published in "Commonspace.eu".

It is important to note that "*Commonspace.eu*" is an activity of LINKS Europe, a foundation registered and based in The Hague, the Netherlands, and which forms a part of the LINKS network, established in London in July 1997.

Link to the article: *https://www.commonspace.eu/opinion/opinion-world-must-know-more-about-khojaly-genocide*



## TƏLƏBƏLƏR ARXEOLOGİYA VƏ ANTROPOLOGİYA İNSTİTUTUNDA

Fevralın 17-də Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisası üzrə təhsil alan IV kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun rəhbərliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunda olublar. Burada tələbələr qədim dövrün silahları, qabları, bəzək əşyaları haqqında öyrəndikləri bilikləri daha da təkmilləşdiriblər.

## STUDENTS VISIT INSTITUTE OF ARCHAEOLOGY AND ANTHROPOLOGY

On February 17, fourth-year History Education students from the School of Humanities, Education and Social Sciences visited the Institute of Archaeology and Anthropology of the Azerbaijan National Academy of Sciences, led by Orkhan Zamanov, lecturer from the Department of History and Archaeology. At the institute, students enhanced their knowledge about ancient weapons, vessels, and ornamental items.

## "QLOBAL TƏHSİL TRENDLƏRİ VƏ YENİ İSTİQAMƏTLƏR" MÖVZUSUNDA SEMİNAR


*Engin Karadağ*

Fevralın 17-də Xəzər Universitetində "Qlobal təhsil trendləri və yeni istiqamətlər" mövzusunda seminar keçirilmişdir. Seminarın spikeri Xəzər Universiteti Beynəlxalq və Qlobal Ali Təhsil Araşdırmaları Mərkəzinin direktoru Prof. Dr. Engin Karadağ idi.

Tədbir İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayevanın açılış nitqi ilə başlanmışdır. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxış edərək, belə seminarların əhəmiyyətini vurğulaymış, Prof. Dr. Engin Karadağ`a təşəkkürünü bildirmişdir.

Engin Karadağ dünyanın müxtəlif universitetlərində baş verən son inkişaf, çətinlik və innovasiyalar haqqında çıxış etmişdir. O, ali təhsilin gələcəyinə təsir edən əsas tendensiyalar, yeni tədris metodları və strategiyalar barədə danışmışdır. Seminarda ali təhsilin gələcəyi haqqında biliklər əldə etməyin və yaranan çətinliklərə hazırlıqlı olmağın zəruriliyi vurğulanmışdır.

## SEMINAR ON "GLOBAL TRENDS AND NEW DIRECTIONS IN HIGHER EDUCATION"

On February 17, Khazar University hosted a seminar on "Global Trends and New Directions in Higher Education." The seminar was presented by Prof. Dr. Engin Karadag, Director of the Research Center for International and Global Higher Education of Khazar University.

The event began with an opening speech by Dr. Razia Isayeva, the Dean of the School of Economics and Management, who provided an overview of the event's agenda. Following this, Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, gave a speech. He emphasized the importance of such seminars and expressed his gratitude to Prof. Dr. Engin Karadag.

Engin Karadag made a presentation focusing on the latest developments, challenges, and innovations that are shaping universities worldwide. He highlighted key trends, new teaching methods, and strategies that are influencing the future of higher education. It allowed participants to gain valuable insights into the future of higher education and to prepare for emerging challenges and opportunities.



"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




## "FİLOLOGİYA VƏ SƏNƏTŞÜNASLIQ" JURNALININ NÖVBƏTİ SAYI ÇAP OLUNUB

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin elmi jurnalı olan "Filologiya və sənətşünaslıq" dərgisinin növbəti sayı (2024, № 2) çap olunub. Jurnalda humanitar elmlər istiqaməti üzrə ədəbiyyatşünaslıq, Azərbaycan ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsi, müqayisəli ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik, sənətşünaslıq, mətbuat tarixi və publisistika sahələri üzrə elmi-tədqiqat əsərləri nəşr olunur. "Filologiya və sənətşünaslıq" elmi jurnalının baş redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. Jurnalın bu sayı akademik İsa Həbibbəylinin "Heydər Əliyevin akademik heyətlə tarixi görüşü və Akademiyanın statusu məsələsi" məqaləsi ilə açılır. Baş redaktorun müavinləri AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə və filologiya elməri doktoru Əlizadə Əsgərlidir. Redaksiya heyətinə bir sıra akademiklər və AMEA-nın müxbir üzvləri daxildir. Jurnalın məsul redaktoru Maral Poladovadır.

"Elm" nəşriyyatında çap olunan jurnalın bu sayı "Ədəbiyyatşünaslıq", "Jurnalistika", "Dilçilik", "Sənətşünaslıq" və "Yubiley" bölmələrindən ibarətdir. "Bələdçi" Azərbaycan və ingilis dillərindədir.

"Filologiya və sənətşünaslıq" jurnalının beynəlxalq redaksiya heyətinə Türkiyə, Rusiya, Belarus, Polşa və Gürcüstanın alimləri daxildir.

Qeyd edək ki, jurnalın təsisçisi Azərbaycan Milli Elmlər Akademiyasıdır və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 30.05.2019-cu ildə qeydiyyata alınıb. Jurnal 2019-cu ilə qədər "Xəbərlər" (Humanitar elmlər seriyası) adı ilə çap olunub.

# ƏDƏBİYYAT İNSTİTUTUNUN ƏMƏKDAŞI İRAQDA KEÇİRİLƏN KONFRANSLARDA İŞTİRAK EDİB

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işçisi Orxan İsayev İraqın Telafər və Kərbəla şəhərlərində keçirilən beynəlxalq elmi konfranslarda iştirak edib.

20 fevral 2025-ci il tarixində Telafərdə Avrasiya Regional Mərkəzi İslam Əməkdaşlıq Gənclər Forumu tərəfindən "Azərbaycan və İraq-türkman ədəbiyyatı" və "Azərbaycan dövlətçiliyi tarixində İraq türkmanlarının rolu" adlı beynəlxalq elmi konfrans keçirilib. Orxan İsayev bu konfransda "Azərbaycan – İraq-türkman ortaq ədəbi dəyərləri" adlı məruzə ilə çıxış edib.



*Orxan İsayev*

Azərbaycanlı alim hər il Telafərdə böyük təmtəraqla qeyd edilən Xıdır İlyas bayramında da iştirak edib.

Fevralın 22-də Kərbəla şəhərində yerləşən Kərbəla Tədris və Araşdırmalar Mərkəzində "İraq türkmanları və azərbaycanlılar: ortaq mədəniyyət və tarixin səhifələri" adlı beynəlxalq konfrans təşkil edilib. Ədəbiyyat İnstitutunun əməkdaşı Orxan İsayev bu konfransda "Azərbaycan və İraq-türkman elmi, ədəbi-mədəni əlaqələrin tarixi" adlı məruzə ilə çıxış edib.

Konfranslar çərçivəsində türkman alimləri ilə fikir mübadilələri aparılıb, Azərbaycan və İraq türkmanları arasında əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi istiqamətində müəyyən addımların atılmasının vacibliyi vurğulanıb.



Əlirza Balayev

# TÖHMƏTDƏN TÖHMƏTƏ

*("Həyatın hər üzü" adlı sənədli romandan hissə)*

## İlk şiddətli töhmət – birinci dərəcəli fəhlə ikən

...1960-cı ildə Bakının Orconikidze (indiki Suraxanı) rayonunun Kirov (indiki Yeni Suraxanı) qəsəbəsindəki Sovet İttifaqı Qəhrəmanı, Böyük Vətən müharibəsində həlak olmuş həmyerlimiz Əmi Məmmədov adına orta məktəbi bitirib, Sergey Mironoviç Kirov (*Сергей Миронович Киров*) adına Azərbaycan Dövlət Universitetinin (*indiki Bakı Dövlət Universiteti*) filologiya fakültəsinə daxil olmaq üçün sənəd verdim.

Bu o zaman idi ki, SSRİ-nin rəhbəri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin (Sov. İKP MK) birinci katibi Nikita Sergeyeviç Xruşşov (*Никита Сергеевич Хрущев*) Stalin diktaturasından sonrakı müəyyən dövrdə (təxminən 5-6 il) cəmiyyəti liberallaşdırmaq [*İlya Erenburqun (Илья Эренбург) həmin dövrü təsvir edən "Оттепель" povestinin adı ilə Azərbaycan dilində "Mülayimləşmə" adlanırdı*] sahəsindəki müstəsna xidmətləri ilə yanaşı, böyük bir ölkəni bütün sahələri ilə (təhsil də daxil) eksperiment meydanına çevirmişdi. Sonrakı illərdə Qərb dövlətləri kəşfiyyatlarının yüksək vəzifəli şəxsləri öz memuarlarında təxminən eyni məzmunlu belə bir fikir yazırdılar: "Xruşşovu xarici səfərlərində sovet kəşfiyyatından daha çox biz qoruyurduq ki, başından bir tük də əskik olmasın." Haqlı idilər. Çünki Xruşşov Siyasi Bürosu ilə birlikdə Qərbin elə təkcə məkrli "sürətlə silahlanma siyasəti"nə elə uymuşdu ki, böyük bir dövləti militarizmə və təbii nəticəsi olaraq iqtisadi tənəzzülə sürükləməklə Qərbin mənafeyinə xidmət edirdi.

1958-ci il dekabrın 24-də beşinci çağırış SSRİ Ali Sovetinin ikinci sessiyasının gündəliyinə "Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və SSRİ-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında SSRİ Qanunu"nun Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən irəli sürülmüş, ümumxalq müzakirəsində bəyənilmiş [yalnız akademik Andrey Dmitriyeviç Saxarov (*Андрей Дмитриевич Сахаров*) mətbuatda bir neçə həmkarı ilə fərqli mülahizə bildirmişdi] layihəsi də daxil edilmişdi. Qanun layihəsinin müzakirəsi zamanı SSRİ təhsil naziri Vyaçeslav Petroviç Yelyutin (*Вячеслав Петрович Елютин*) çıxışında deyirdi: "Ali məktəblərə, kitablardan aldıqları biliklərdən başqa, heç bir əməli iş təcrübəsinə və fiziki əmək vərdişlərinə malik olmayan bir çox şəxslər qəbul edilirlər... Ali məktəblərə qəbul zamanı əməli iş stajı olan adamlara üstünlük veriləcəkdir." (*"Kommunist" qəzeti, 25 dekabr 1958-ci il*).

Sessiyada ertəsi gün qəbul edilmiş "Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və SSRİ-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında SSRİ Qanunu"nun 28-ci maddəsində də təsbit olundu ki, "Ali təhsil müəssisələrinə qəbul zamanı əməli iş stajı olan şəxslərə üstünlük verilsin." (*Народное образование в СССР. Сб. Документов 1917-1973. Москва, "Педагогика", 1974, с.59;"Kommunist" qəzeti, 26 dekabr 1958-ci il*).

Dördüncü çağırış Azərbaycan SSR Ali Sovetinin 1959-cu il martın 25-də işə başlamış birinci

sessiyasında Nazirlər Sovetinin sədri Vəli Axundov "Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və SSRİ-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında" məruzəsində deyirdi: "Ali məktəbin işində ən zəif cəhətlərdən biri tələbə qəbulunda olan nöqsanlardan ibarətdir. Ali məktəb tələbələri arasında bir çox adamlar vardır ki, onlar təhsildən başqa, cəmiyyət üçün heç bir faydalı əməklə məşğul olmamış, əmək məktəbi keçməmiş, həyatda bərkiyib mətinləşməmişlər... Ali məktəblərə, birinci növbədə, əməli iş stajı olan şəxslər qəbul ediləcəklər". (*"Kommunist" qəzeti, 27 mart 1959-cu il*).

Sessiyada qəbul edilmiş "Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və Azərbaycan SSR-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında Azərbaycan SSR Qanunu"nun" 34-cü maddəsində də təsbit olundu ki, "Ali məktəblərə qəbul zamanı əməli iş stajı olan şəxslərə üstünlük verilməlidir". (*"Kommunist" qəzeti, 2 aprel 1959-cu il*). Göründüyü kimi, mənim qəbul imtahanı verəcəyim il qanunun ilk tətbiqinə təsadüf edirdi.

Qanunların tətbiqi haqqında müddəaları müttəfiq respublikaların nazirlər sovetləri təsdiq edirdilər. Mən Azərbaycan üzrə rəsmi sənədləri tapa bilmədim.

Azərbaycanda təcrübə belə idi ki, iki il iş stajı olanlar qanuni imtiyaza malik idilər. (Böyük Vətən müharibəsi iştirakçıları və Sovet Ordusu və Donanmasından tərxis olunanlar əvvəlki illərdən bəri imtiyaz sahibi idilər). Konkret nisbət də müəyyənləşdirilmişdi: ali məktəbə hər bir qəbul planına görə 80 faiz iki il və daha çox iş stajı olanlar, 20 faiz isə stajı olmayanlar qəbul olunmalı idi. Filfaka qəbul planı cəmi 25 nəfər idi. Yəni, mən 5 yerdən birini tuta bilərdim.

Rəsmi sənədlərə əlim yetməsə də, bu, digər mənbələrdə dolayısı ilə təsdiqini tapır. N.S.Xruşşov hələ 1957-ci il mayın 29-da Sov.İKP MK-da keçirilmiş müşavirədə demişdi: "Onilliyi bitirən istehsalata getməli və orda iki ildən az olmayaraq işləməlidir." (*Н.С. Хрущев. Два цвета времени. Документы из личного фонда Н. С. Хрущева. В 2-х томах. Т. 2. М., 2009, с. 141). Tatyana Vyaçeslavovna Molçanova (Татьяна Вячеславовна Молчанова*) "1950-1960-cı illərdə Leninqrad ali məktəblərinə tələbə qəbulunun xüsusiyyətləri" adlı məqaləsində yazırdı: "Müsabiqədənkənar və birinci növbədə qəbul olunmaq imtiyazlarına malik şəxslərin (Böyük Vətən müharibəsinin iştirakçıları, iki ildən az olmayaraq əməli iş stajı olanlar, həmçinin Sovet Ordusu və Donanmasından tərxis olunanlar) sayı fakültə üzrə qəbul planının 80 faizindən çox olanda rektorlara orta ümumtəhsil məktəblərinin ən bacarıqlı və layiqli məzunları üçün ayrılmış 20 faizdən kəsmək səlahiyyəti verilirdi." (*https://cyberleninka.ru/article/n/osobennosti-priyoma-studentov-v-leningradskie-vuzy-v-1950-1960-e-gody*).

Mən beş imtahan verməli idim. Ədəbiyyat yazılı (təklif olunan 3 mövzudan Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri haqqında inşa yazmış, 19-cu əsr Fransa yazıçısı və filosofu Fransua-Rene de Şatobriandan da sitat gətirmişdim, indiki kimi yadımdadır: "Mən ağılsızlıqdan taleyə inansaydım, onu adət-ənənələrdə axtarardım") və şifahidən (Molla Pənah Vaqifin yaradıcılığı), SSRİ tarixindən (Napoleon ordusunun Moskvanı tutması; "Azərbaycan tarixi" fənni filfakda mən 5-ci kursda oxuyanda tədris olunmağa başlandı) və fransız dilindən (oxu və tərcümə) "5", sonuncu imtahandan – rus dilindən (imla yazı) "4" alaraq (yəni, indiki 672 bal), universitetə qəbul olunmadım.

Xruşşovun tətbiq etdiyi bu qaydanın adi məntiqi nəticəsi bu idi ki, zəif biliklilər (iki il stajı olanlar bəzi institutlarda bütün imtahanlardan hətta "3" alanda belə qəbul olunurdular) ali məktəbə daxil olub sabahın ortabab mühəndisi, müəllimi, həkimi və s. kimi fəaliyyət göstərə bilər, özlərinə tay mütəxəssislər istehsal edə bilər, ancaq sabahın yüksək səviyyəli mütəxəssisi ola biləcək bilikli orta məktəb məzunları bundan məhrum edilirdilər. Bu, SSRİ məkanında məskunlaşan bütün xalqların, o cümlədən rus xalqının gələcəyini kökündən baltalamaq idi. Bu, kommunist hakimiyyətinin bir neçə il ərzində həyata keçirdiyi və bəşəriyyət tarixində tətbiq edilən ən ədalətsiz qanunlardan biri idi.

Xəyala qapılaraq düşünürəm ki, mağaralarda yaşamış əcdadlarımız da belə ədalətsizliyə yol verməz, mamonta yaxşı daş atanla pis daş atanı bir-birindən ayırardılar...

... Bir qədər irəli gedib qeyd edim ki, 1963-cü ilin sentyabrında ADU-da filfakın ikinci kursunda qrupumuza rus dilindən yeni dərs deməyə başlayan Mircavad Mövsümzadə (Ətağanın bacısı oğlu) tələbələrin səviyyəsini öyrənmək məqsədilə bizə imla yazdırdı. Gimnaziya təhsili görmüş, sovet dövründən əvvəlki maarif ənənələri əsasında tərbiyə almış savadlı, hərtərəfli biliyə malik ustad müəllim ucaboylu, qədd-qamətli bir kişi idi. Sonrakı dərsdə araşdırma zamanı tələbələrdən birini ayağa qaldırıb (Hüseynov Əjdər Misir oğlu idi, universiteti bizimlə bitirmədi, xatırlamıram nəyə görə), yazısından bəzi misallar çəkdi. O, "тот час" ("haman saat") əvəzinə "джаз" ("caz"), "барин" ("ağa") əvəzinə "баран" ("qoyun") və s. yazmışdı. Mircavad müəllimin sorğu-sualından sonra məlum oldu ki, həmin tələbə ötən

il stajı olmayanlar arasından daxil olmuş beş nəfərdən biridir və qəbul imtahanında rus dilindən “5” almışdır. Mircavad müəllim iki əlini başına çırparaq, “kül mənim başıma” dedi... Mənzərəni göz önünə gətirin. İri əllərin başa dəyən şappıltısını eşidin. 10-12 tələbənin şok vəziyyətini təsəvvürünüzə gətirin (dil dərslərində qrup iki yerə bölünürdü)... Mircavad müəllim dərindən duyurdu ki, bu, faciədir, məktəbi bərbad olmuş xalqın faciəsi...

Ailədə mənə münasib iş axtarmaq istəyəndə, dedim ki, özüm məşğul olacağam. Bir neçə müəssisəyə getdim, bəzilərində direktorların da yanında oldum, iş olmadığını dedilər. Onların bəzisinin oğlu, bəzisinin nəvəsi yerində olardım. “Bizdə iş yoxdur” sözünü qəlb incitmədən də demək olardı...

Bir gün mənimlə orta məktəbi bitirmiş sinif yoldaşımla rastlaşdım. İşlədiyini bilib, buna necə nail olduğunu soruşdum. Öyrəndim və ertəsi gün pasportumun arasına 10 manat qoyub, Orconikidze rayonunun işə düzəlmə müvəkkilliyinə getdim. Suraxanı elektrik qatarı (xalq dilində “elektriçka”) stansiyasının ikinci mərtəbəsində yerləşirdi. Müdir orta yaşlı bir kişi idi. Pasportu açıb, onluğu götürdü. İşimiz çoxalıb bu günlər – dedi – ali məktəblərə qəbul ola bilməyənlər iş axtarır... Qardaşım Ağakazım universitetdən mənim imtahan qiymətlərimin yazıldığı arayış almışdı, müdirə göstərdim, təəccübləndi. Telefonu götürüb kiminləsə danışdı. Məni Əmircandakı Geofizika Cihazları Zavodunun direktoru Bünyadovun yanına göndərdi. Onun qəbulunda oldum. Kimi isə çağırtdırıb, tapşırıq verdi, erməni soyadı da qulağıma dəydi. 1960-cı il oktyabrın 27-də işə başladım. 18 yaşı tamam olmayanlar işdən bir saat tez – saat 15.00-da çıxırdı. Sex rəisim Çesnokov soyadlı çox da yaşlı olmayan bir rus, müavini də gənc rus idi. Çesnokov məni şagird kimi (Əmək kitabçamda “birinci dərəcəli fəhlə” yazılıb) zavodun tornaçısı Raçik Aslanyana təhkim etdi...

* * *

Cansıxıcı vəziyyətə düşdüm. Bakı Xalq Komissarları Sovetinin sədri, Lenin tərəfindən Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin olunmuş Stepan Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak rejiminin1918-ci ilin martında Bakıda azərbaycanlılara qarşı törətdiyi milli qırğında iki dayım – Zeydulla və Yədulla, böyük əmim Sahib ermənilər tərəfindən qətlə yetirilmişdilər. Üçünün də meyiti quyulardan tapılaraq, dəfn edilmişdi. Anam, daha çox mən balaca olanda, qardaşlarını yada salar, kövrələr, gözləri yaşarardı. Atam da mənə böyük qardaşından danışar, gözləri yol çəkər, sanki bir möcüzə gözləyirmiş kimi qardaşının gözünə görünəcəyini umardı. Bəlkə də görünürdü...

Nuru Paşanın ordusunda vuruşmuş Qurban dayım mənə sentyabrın 15-də Bakını tutandan sonra erməni silahlılarına qarşı necə amansız olduqlarından, xalqımızın qisasını aldıqlarından danışardı. Həyatının son illərində mən artıq universitetin dördüncü, ya beşinci kurslunda idim və həmişə gözləyirdim deyəcəkmi ki, qardaşlarımın intiqamını aldım. Demədi, heç vaxt demədi. Qardaşlarının adını övladlarına qoymaqla təsəlli tapmışdı...

Bu yerdə Məhəmməd Əsəd Bəyin Bakıda iki, ya üç dəfə çap olunmuş irihəcmli “Şərqdə neft və qan” kitabını xatırlamalı oluram. Kitab ötən əsrin otuzuncu illərinin əvvəlində Almaniyada çapdan çıxan kimi alman mətbuatı və ziyalıları onu “dərin nifrətlə” qarşılamışdı.

Məhəmməd Əsəd Bəy 15 sentyabrdan sonrakı günlərdə azərbaycanlıların dinc və əsir götürülmüş ermənilərə qarşı elə müdhiş davranışlarından yazır ki, əslində, onları misal gətirmək də mümkün deyil – qələm onları yazmaz. Ancaq oxucularda təsəvvür olsun deyə, bir-neçə cümləni qeyd edirəm: “Böyük qisas başladı. Sonrakı üç günün şahidləri xəbər verirlər ki, tarix müntəxəbatları buna bənzər qan selinə şahidlik etməmişdir... Planlı şəkildə bütün erməni evlərinə hücum çəkildi və onların sakinləri məhv edildi...Qaliblər indiyə qədər qarət edilməmiş erməni evlərini yağmaladılar... Bir neçə yüz ermənini elə o saat öldürmədilər, onları iri şəhər meydanına gətirdilər və onlar burda əsgərlər tərəfindən keşik altında saxlandılar. Uşaqlı, qadınlı, qocalı hər müsəlman gəlib qan qisası barədə olan göstərişə əsasən tələb olunan sayda erməni öldürə bilərdi. Ermənilərin əl-qolu bağlanmışdı və qisasçının tələbi ilə xəncərlə birlikdə onun əlinə tapşırılırdı. Qan qisasının sübutunu evdə göstərmək üçün bəziləri öz paltarını düşmən qanına batırırdı. Heç kimə imdad yeri qoyulmadı... Bəzi azərbaycanlılar təsəllilərini ermənilərin qarnını yırtmaqda, bağırsaqlarını çıxarıb onu bədənlərində dolamaqda və trafey kimi gəzdirməkdə tapdılar. Digərləri də düşmənin beynini bədənlərinə sürtdülər. (*Məhəmməd Əsəd Bəy. Şərqdə neft və qan. Qafqazın Strateji Tədqiqatlar İnstitutu. Seriya: Qafqazın klassikləri. Bakı, “Nurlan”, 2005, səh. 244-247. Seriyanın məsul redaktoru: Eldar İsmayılov; Alman dilindən çevirəni: Çərkəz Qurbanlı; redaktorlar: Sərxan Abdullayev, Gülənbər Pirnəzərova*).

Məşhur Alman türkoloqu, Berlin Universitetinin professoru Q. Yaşke (G. Yaeschke) "Almanca nəşrlərdə Azərbaycan haqqında yazılanlar" adlı geniş icmal məqaləsində (məqalə əvvəlcə Berlində çıxan "İstiklal" qəzetinin 51-ci nömrəsində, sonra görkəmli türkoloq alim Əhməd Cəfəroğlunun təsisçisi və baş redaktoru olduğu "Azerbaycan Yurt Bilgisi"ndə çap edilmişdi) Azərbaycan xalqına qarşı qərəzli mövqe tutan "əsər"lərə də münasibətini bildirmişdi. O, "Kiyev yəhudisi" adlandırdığı Leo Noissumbaumun (Leo Noussumbaum) "Əsəd Bəy" adı altında 1930-1931-ci illərdə buraxdığı "şayani-təəssüf" olan "Oel und Blut im Orient" ("Şərqdə neft və qan") və "Der Kaukasus. Seine Berge, Völker und Gesschichte" ("Qafqaz. Onun dağları, xalqları və tarixi") kitablarında Azərbaycan xalqının tarixi və mədəniyyətinə aid iftiralarına cavab verərək qeyd edirdi ki, Noissumbaum "əsərlərində o qədər vəhşi bir fantaziya büruzə vermişdir ki, sadəcə bundan dolayı bu adam mötəbər bir müəllif olaraq hesab edilməz. Nə yaxşı ki, həm nüfuz sahibi olan bir çox alman ziyalısı və həm də alman mətbuatı bu əsərləri dərin nifrətlə qarşıladı. Almaniyada baş verən milli inqilabın (*1933-cü ildə Hitlerin sosial-nasionalist partiyasının hakimiyyət başına gəlməsi nəzərdə tutulur – **Ə. B.***) sevindirici bir cəhəti də budur ki, belə rəzil əsərlərin bu gün çap olunub yayılması imkanı artıq qalmamışdır" (*Yaeschke G. Azerbaycan hakkında almanca neşriyattan // Azerbaycan Yurt Bilgisi, 1934, № 25, s. 27-31*).

Əhməd Cəfəroğlu da H. Münşinin 1930-cu ildə Berlində çap olunmuş "Die Republik Aserbeidschan: Eine geshcichtliche und politische Skizze" ("Azərbaycan Respublikası: tarixi və siyasi oçerk") adlı kitabına yazdığı resenziyada qeyd edirdi ki, əsər Azərbaycan tarixi və həyatının hər bir nöqtəsinə təmas etmiş və bilxassə Azərbaycanı Avropa mühitinə olduqca çirkin bir şəkildə tanıtmaq istəyən, "Min bir gecə"ni andıran "Öl und Blut im Orient" ("Şərqdə neft və qan") əsərinin müəllifi – əsli yəhudi, adı türk olan Əsəd bəyin xətalarını həqiqi vaqiələrlə təshihə çalışmışdır..." (*Caferoğlu A. Hilal Münshi, Die Republik Aserbeidshan (tanıtım) // Azerbaycan Yurt Bilgisi, 1932, № 6-7, s. 53*).

* * *

... Beləcə, işə başladım. İndi düşünürəm ki, Bünyadov təcrübəli adam kimi fikirləşib: ali təhsil almaq üçün staja görə işləyirsə də, qoy bir peşə də öyrənsin və bu məqsədlə məni Aslanyana təhkim ediblər. Tezliklə bildim ki, o, zavodun ən usta tornaçısıdır və millimetrə qədər dəqiqliyi zəruri olan hissələri Çesnokov da yanında durmaqla məhz o hazırlayırdı.

İlk günlərdə mənə peşəni öyrətməyə başlasa da, tezliklə məlum oldu ki, məndə qətiyyən tornaçı olmaq həvəsi yoxdur. Sadəcə, yanında durub işinə baxır, bezəndə zavodu gəzməyə çıxır, başqa sexlərdə işə və işləyənlərə tamaşa edirdim. Bəzən zavod mənə dar gələndə hasarın üstündən aşıb, məşhur Dzerjinski adına nəhəng zavoda (indiki Suraxanı Maşınqayırma Zavodu) keçir, orda da sexləri gəzir, onların birində sex rəisinin müavini işləyən bibim oğlu Abbasla söhbətləşir, geri qayıdırdım.

Arada Raçikin mənə gördürdüyü bir iş isə məni heç açmırdı: sexdən kənarda qoyulmuş iri çəlləkdəki qarışıq mayedən bir vedrə doldurub gətirmək və iri əski parçaları ilə uzunluğu 4 metrdən çox olan dəzgahı yuyub-silmək. Ancaq bu işi həvəssiz və səliqəsiz yerinə yetirdiyimi görüb, arada dəzgahı özü yuyub təmizləyirdi.

İşə başlamağımdan 15-20 gün sonra məni zavodun komsomol komitəsinə çağırdılar. Gördüm ki, çox da böyük olmayan toplantıdır. Komsomol komitəsinin katibi gənc rus qızı çıxış edib dedi ki, respublikada hava şəraitinə görə pambıq yığımında ağır vəziyyət yaranıb, komsomola müraciət olunub ki, yardım göstərsin. Sabah səhər avtobusla yola düşürsünüz. Özünüzlə yemək və su götürün.

Səhərisi Əli Bayramlıya gəldik. Dəstəmizə Çesnokovun gənc rus müavini başçılıq edirdi. Təxminən 20 nəfər olardıq. Bizi hansısa bir kolxoza təhkim etdilər. Hava artıq dəyişmişdi. Gün yeri-göyü yandırırdı. Təsərrüfat rəhbərlərinin başı elə qarışıq idi ki, bizi kiməsə tapşırmış olsalar da, nəzarətə vaxtları yox idi. Birinci gün bizə su, yemək gətiriləcəyini vəd etsələr də, əməl olunmadı. İkinci gün artıq suyumuz qurtardı. Yaxınlıqda kiçik bir arx tapdıq. İçindən lehməyə bənzər su axırdı. Hamı içməyə başladı, mən nə qədər bacardımsa dözdüm, nəhayət içdim. Elə bil dirildim, gözlərimə işıq gəldi...

Sonralar, elə indi də məclislərin sonunda din xadimlərinin Allah-təalaya həmd-səna edərkən söylədikləri "İlahi, bizi susuzluqla, aclıqla imtahana çəkmə" sözlərini daha dərindən anlayıram.

Axşam bizi yaşayış yerimizə, yol-riz olan yerə gətirdilər. Bilmirəm hansı ağılla heç kimə heç nə demədən, heç kimdən icazə almadan şeylərimi yığışdırıb, Bakı yolunu soraqlaşıb, şəhərə səmt aldım.

Sonra mənə danışdılar ki, mən gedəndən sonra komsomolçular arasında çaxnaşma düşüb, Bakıya dönmək üçün avtobus tələb ediblər və s. Beləliklə, diqqəti cəlb ediblər və vəziyyət nisbətən düzəlib...

Bakıya gələndən sonra işə də çıxmadım. Nəyə görə, nə düşündüm bilmirəm. Zavodla əlaqəm vardı. Komsomolçularımızın da pambıq yığımı çox çəkmədi, 8-10 gün. İşə çıxdım. Komsomol komitəsinin katibi rus qızı məni çağırdı. Bakıya qayıtmağımın qeyri-adiliyini etiraf etdim, amma qeyri-adi rəftara da dözümümün olmadığını söylədim, susuz necə yaşamaq olar? Dedi ki, büro iclası başlayacaq, çıxışında susuzluğa aclığı da əlavə elə, axı iki gün öz yeməyinizlə dolanmısız. Səni komsomol sıralarından xaric etmək təklifi də var, lakin bu sənin gələcək taleyinə zərbə olar. Mən bir neçə büro üzvü ilə danışmışam ki, sənə şəxsi işinə yazılmaqla şiddətli töhmət verək.

İclasın təfərrüatını xatırlamıram. Nəticə əvvəlcədən deyildiyi kimi oldu: "Балаеву Алирза Мамед оглы объявить строгий выговор с занесением в учетную карточку члена ВЛКСМ". (Tərcüməsi: Balayev Əlirza Məmməd oğluna ÜİLKGİ üzvünün şəxsi uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət elan edilsin).

Təxminən beş aydan sonra (26.03.1961) zavoddan çıxıb, Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının "Neftkimyasənaye" İdarəsinin İstehsalat - Əmtəə Kontorunun Qaraşəhərdəki elektrik sexində "ikinci dərəcəli köməkçi fəhlə" işinə düzəldim...

## Günahsız cəza

Sonrakı töhmətlərim mətbuat sahəsindəki fəaliyyətimlə bağlıdır. 1973-cü il iyulun 13-də Azərbaycan LKGİ MK-nın (Lenin Kommunist Gənclər İttifaqının Mərkəzi Komitəsi) Təbliğat və mədəni-kütləvi işlər şöbəsi müdirinin müavini ikən "Azərbaycan gəncləri" qəzetinin redaktor müavini vəzifəsinə təyin olundum. Redaktor tanınmış yazıçı, dramaturq Şamil Fərzəliyev idi.



*Şamil Fərzəliyev, Əlirza Balayev*

... Təxminən altı ay idi ki, redaksiyada çalışırdım. Növbəti letuçkadan iş otağıma yenicə qayıtmışdım. (Hər nömrə çapdan çıxandan sonra iş günü başlayan kimi məcburi qaydada qəzetin operativ müzakirəsi keçirilirdi və bu "letuçka" adlanırdı. Letuçka növbətçisi qısa məruzə edir, aşkar etdiyi nöqsanlar, hətta adi bir hərf səhfi belə varsa, ciddi müzakirə olunur, günahkar üzə çıxarılır, irad bildirilirdi. "Adi hərf səhfi" ifadəsini işlətdim, ciddisi də olurdu. Mən komsomolun Mərkəzi Komitəsində işləyəndə "Azərbaycan gəncləri" qəzetində "SSRİ Gənclər Təşkilatları Komitəsi" "SSRİ Giclər Təşkilatları Komitəsi" şəklində getmişdi).

Redaktor selektor telefonla yanına çağırdı. İçəri girəndə Şamil müəllimi çox kefsiz, rəngi tutulmuş halda görüb, təəccübləndim. Əyləşdim. Dedi ki, İsa Kürdüstanlı bizi bu nömrədə çap etdiyimiz satirik şeiri ilə yaman işə salıb. Deme, işlədiyi APİ-də (*Azərbaycan Dövlət Pedaqoji İnstitutu, indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti*) rektor Həşim Ağayevlə neçə müddətdir ki, çəkişmədədir. Qəzet

çıxandan sonra 40-50 nüsxə alaraq institutda paylamış və əslində iğtişaş yaratmışdır. Həşim müəllim də, Mərkəzi Komitəyə rəsmi müraciət edib. Təbliğat və Təşviqat Şöbəsinə də məsələni araşdırmağı və günahkarı cəzalandırmaq tapşırılıb. Yəni, mənim cəzalandırılmağım. İstəyirəm belə bir versiya quraq ki, mən ezamiyyətdə olanda şeiri sən çapa göndərmisən. Belə olan halda məsələni yuxarı təşkilat yox , redaksiyada özümüz həll edərik.

Mən dərhal anladım ki, bunu hər ikimizin dostu, Azərbaycan KP MK Təbliğat və Təşviqat Şöbəsinin nüfuzlu işçilərindən olan Rafiq Zeynalov təklif edib və ağlabatandır. Ona görə ki, redaktor qısamüddətli ezamiyyətə gedəndə imza dəyişmirdi, qəzet onun adı ilə çap olunurdu.

Birgə işləməyimiz hələ o qədər böyük müddət olmasa da, Şamil müəllimi nəcib, xoşniyyətli, xeyirxah bir insan kimi tanıyırdım və aramızda səmimi münasibət vardı. Təbii ki, mən dərhal razılaşdım, həm də işin "kargüzarlıq" tərəfini də öz üzərimə götürdüm.

Bilirdim ki, Mərkəzi Komitənin Təbliğat və Təşviqat Şöbəsində müəyyən müddət işləməsinə baxmayaraq, Şamil müəllimin arayış yazmaqla arası yox idi, ya da bezmişdi. (Sonralar onu Mərkəzi Komitədən hansısa şikayəti yerində – rayon və ya şəhər partiya komitəsində yoxlamaq üçün göndərəndə, mənə də ezamiyyə yazdırar, redaksiyanın maşını ilə bir yerdə gedər, mənim iştirakımla şikayəti araşdırar, qayıdanda arayışı mən hazırlayardım).

Şeiri artıq oxucuya təqdim etmək vaxtıdır.

## Yanıram

*Mənəvi dünyam axır qaldı tamam boş yanıram!*
*Çıxarırlar məni işdən elə birbaş, yanıram!*

*Yağlı bir yerdə idim, calallı bir postda idim,*
*Öz işimdə bu sən öl, asta idim, usta idim,*
*Bir tərəfdən də böyük rütbələrə, dosta idim!*
*Qalmışam indi özüm gör necə çaş-baş yanıram!*
*Çıxarırlar məni işdən elə birbaş, yanıram!*

*Tənqidə əl atanı işdən atardım küçəyə,*
*Sıxaraq salxımını tez çevirərdim cecəyə,*
*Fil kimi işçi dönərdi otağımda cücəyə,*
*İfşa etdi məni bir adi vətəndaş, yanıram!*
*Yanıram, ey bizə sirdaş, bizə yoldaş yanıram!*

*Hey çalışdım ki, çıxım fitnə-fəsadla aradan,*
*Seçməsin kimsə ağı böhtan içində qaradan,*
*Düşünürdüm soruşarlar düzü kimdən, haradan?*
*Fikrimi eylədi dövran lap ayaq-baş, yanıram!*
*Oturub evdə qurummu hələ bardaş, yanıram!*

*Hələ allaha şükür, məhkəməyə vermədilər,*
*Elə basdım ki, "toza" görməlimi görmədilər,*
*Qaldırıb yaşlarımı göz önünə sərmədilər,*
*Gəlsə də xırdaca tənbeh mənə lap xoş, yanıram!*
*Çıxıb əldən necə alver, necə daş-baş, yanıram!*

*Verərək indi təsəlli çoxu çox söz də deyir,*
*"Yığdığın nəslinə də bəsdi" deyir, düz də deyir,*
*Mənliyim bir canavartək məni ancaq ki, yeyir...*
*İfşa etdi məni bir başlı vətəndaş, yanıram!*
*Mənəvi dünyam axır qaldı tamam boş, yanıram!*
*Çıxarırlar məni işdən elə birbaş, yanıram!*

*"Azərbaycan gəncləri"*
*24 yanvar 1974-cü il*

Göründüyü kimi, adi bir satirik şeirdir. Hər bir müvafiq tip özünə aid edə bilərdi. Əgər hardasa bunun konkret təsiri olacaqsa, redaktor haradan bilməlidir və niyə bilməlidir? Lakin yaşadığımız cəmiyyətdə Mərkəzi Komitənin tapşırığı müzakirə olunmurdu, icra edilirdi.

Arayış hazırladım: şeiri redaktor məzuniyyətdə olarkən müavin Əlirza Balayev çapa imzalayıb, mətbuat işində yenidir, təcrübəsi yoxdur və s. Redaksiya heyətinin iclasında ona töhmət verilib...

Arayışı redaksiyanın yaxınlığındakı "maşınbüro"da redaksiyanın blankında yazdırdım, gətirdim, redaktor imzaladı, Mərkəzi Komitəyə apardı...

Redaksiyada bu məsələni ikimizdən başqa heç kəs bilmədi.

Şamil müəllim indi haqq dünyasındadır. Bu hadisəni heç vaxt, heç yerdə dilimə gətirməmişəm, indi qələmə aldım...

# Əbədi sual: Hara gedir bu dünya?

… Belə bir ənənəmiz vardı ki, redaksiya rəhbərliyindən (redaktor, redaktor müavini, məsul katib) kimsə məzuniyyətə gedəndə üçümüz toplaşar, səmimi söhbət edər, sonrakı bir ay üçün tövsiyələrimizi verər, məzuniyyətə gedəni xoş əhhval-ruhiyyə ilə yola salardıq. Belə günlərin birində redaktor Şamil müəllimi yola salmaq üçün mən və məsul katib – mətbuat işinin dərin bilicilərindən biri olan, səriştəli tərcüməçi (rus dilindən Azərbaycan dilinə) Zeynal Babayev onun kabinetinə yığışmışdıq. Müəyyən söhbətlərdən sonra Şamil müəllim üzünü mənə tutub dedi ki, bilirəm sözə qulaq asan deyilsən (redaksiyanın şöbə müdiri, çox istedadlı və tanınmış jurnalist Şahin Quliyev bunu tez-tez, özü də başqa cür ifadə edirdi: "bildiyini atasına da verən deyil"), ancaq Xəlil Rzanın poemasını çap eləmə. Cavab verməmiyimi görüb, bir də dedi: çap eləmə…

Xəlil Rza elə həmin günlərdə redaksiyaya "Hara gedir bu dünya" adlı, özünün adlandırdığı kimi, "lirik poema" təqdim etmişdi. Təxminən bir qəzet səhifəsi həcmində idi. Poemanı ayrı-ayrılıqda oxumuşduq. Şamil müəllimin fikri belə idi ki, əsəri çap etmək olmaz. Mənsə redaktor səlahiyyətinə başlayacağım vaxt poemanı çap etməyi qərara almışdım və Şamil müəllim bunu duymuşdu. Məzmunu hələ bir yana, ümumiyyətlə poema çap etmirdik. "Ardı var"la bəzən kiçik povest çap edirdik.



*Xəlil Rza, Əlirza*

Poema ifrat dərəcədə mücərrəd idi. Hansı ittihamın, bəzi istisnalar olmaqla, kimə və hansı cəmiyyətə qarşı olduğu aydın deyildi. Xəlil Rzanın mətnaltı mənaları da öz yerində.

Özümə, necə olsa da, bir dayaq yaratmaq üçün poemanı redaksiya heyətinin bir neçə üzvünə oxutmaq qərarına gəldim. Onların əlyazma rəyləri arxivimdədir.

**Şahmar Əkbərzadənin rəyi:**

"Hara gedir bu dünya?" şairin son illərdə qələmə aldığı əsərlər içində xüsusilə seçilir. Poema planetimizin taleyini düşünən narahat şairin poetik harayıdır. Əsər işıqlı qayənin məhsuludur. Şair "Mən"i bir yurd, bir ölkə üçün deyil, Yer kürəsində yaşayan xalqların bü günü, gələcəyi üçün narahatdır. Xəlil Rza yaradıcılığında bəşəri hisslər, beynəlmiləl tərbiyə motivləri, həmişə olduğu kimi, bu əsərində də güclüdür… Keçmişlə gələcək, bu günlə sabah tutarlı şair qələmi ilə mənalandırılır. Poema başdan-başa humanist ideyalara əsaslanır. Kiçicik düzəlişlər aparılmaqla poemanın qəzetimizdə dərc olunmasını vacib hesab edirəm. Mövzu etibarilə poema qəzetimizin ümumi profilinə tam uyğundur və əminəm ki, gənc nəslin təlim-tərbiyəsində bu əsər böyük rol oynaya bilər. Planetin taleyini düşünmək yer üzünün hər bir sakininin müqəddəs borcudur."

**Abdulqəni Qədirovun rəyi:**

Poemanın mövzusu çox mühüm və aktualdır. Burada sülh, əmin-amanlıq, tam azad dünya amalları uğrunda xeyirxah insanların arzu və düşüncələri poetik tərzdə tərənnüm olunmuş, işıqlı ideallara qarşı çıxanlar konkret faktlarla ifşa edilmişlər. Oxucular, xüsusən gənclər bu əsərdən həm beynəlxalq hadisələri dərindən duyub qavramaq, həm də xeyirin şər üzərində qələbəsini təmin etmək yollarını öyrənmək, bu ülvi hisslərlə tərbiyələnmək baxımından çox bəhrələnə bilərlər. Gözəl bir qayə poemada

qabarıq verilib: düzdür, şər qüvvələr vardır, ancaq bu qüvvə işıqlı qüvvələrə üstün gəlməyə qadir deyil!

Poemada əsərə xələl gətirməyəcək atılası hissələr vardır. Bir neçə yerdə insan üçün "yırtıcı" deyimini bir qədər yumşaltmaq lazımdır. Çünki bütünlüklə insanlığa üz tutub qəfildən belə hökm vermək olmaz. Əsərin sonluğu zəif təsir bağışlayır. "Hara gedir bu dünya?" kimi narahat suala "Kəşf eləsin hər kişi ən gərəkli işini" kimi sönük cavab, məsləhət verilməməlidir.

Bu dediklərimin düzəldilməsi şərtilə poemanın qəzetimizdə çap olunmasına etiraz etmirəm."

**Şakir Yaqubovun rəyi:**

"Xəlil Rza günün hadisələrinə olduqca tez reaksiya verən şairlərimizdəndir. Onun yeni poeması fikrimizə daha bir sübutdur. Müəllif kiçik bir məişət incikliyi üstündə əsib-coşan qəhrəmanı ilə mükaliməyə girib, onun "insan-canavar" fəlsəfəsinə qarşı öz tutarlı dəlillərini irəli sürür. Müasir dünya hadisələrinin şərhində də şair bu fikri üstün tutur.

Poema olduqca aktual mövzuya həsr olunub və cüzi redaktə ilə qəzetimizdə dərc edilməyə layiqdir."

Redaksiya heyətinin mənim sədrliyimlə keçən 23 iyul 1980-ci il tarixli iclasında 3-cü məsələ "Şair Xəlil Rzanın "Hara gedir bu dünya?" poeması haqqında redaksiya heyəti üzvlərinin rəylərinin müzakirəsi" idi.

**Protokoldan:** "Redaktor müavini Ə.Balayev bildirdi ki, şair Xəlil Rza redaksiyaya "Hara gedir bu dünya?" adlı poema təqdim etmişdir. Redaksiya heyətinin üzvləri poema ilə tanış olmuşlar. Onlardan Ş. Yaqubov, A.Qədirov və Ş. Əkbərzadə poema haqqında rəylərini redaksiya heyətinin iclasına yazılı şəkildə təqdim etmişlər."

Rəylər oxundu.

**Protokoldan:** "Ş. Yaqubov, R. Cəbiyev, A. Qədirov və Z. Babayev çıxış edərək, poemanın məziyyətlərini qeyd etməklə yanaşı bildirdilər ki, qəzetdə dərc olunmaq üçün ciddi redaktə edilməlidir."

**Qərar:**

Poemanın qəzetdə çap edilmək üçün oxunub redaktə edilməsindən ötrü Ə.Balayev, Ş.Yaqubov və Ş. Əkbərzadədən ibarət heyət yaradılsın."

Bu, redaktorla üçlükdə söhbətimizin iştirakçısı olmuş Zeynal müəllimin təklifi idi. Görünür, redaktorun tapşırığının yerinə yetirilməsi üçün cidd-cəhd göstərdiyini bildirmək istəyirdi. Onu da qeyd edim ki, Zeynal müəllim redaksiya heyətinin daimi katibi idi və bütün protokolları da səliqə-sahmanla o yazırdı. Həm də protokolları hansısa bir "uzaqgörənlik"lə tərtib edirdi. Redaksiyaya işə keçəndən sonra redaksiya heyəti iclaslarının redaksiyada olan protokolları ilə tanış olarkən bunun şahidi oldum. Misal üçün, dəqiq yadımda qaldığı kimi yazmışdı: "Redaktor Qəşəm Aslanov: mən hələ də orkestrdə öz yerini tapmamış musiqiçi kimiyəm". Təxminən bir il redaktorluq edəndən sonra iclasda hansısa ötəri hissin təsiri ilə redaktor bu sözləri söyləyibsə də, protokola daxil etməyə nə zərurət var idi?

(Qaydaya görə, hər neçə müddətdən bir Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivindən (SPİHMDA) gəlib, protokolları təhvil-təslim qaydası ilə aparırdılar. Sonralar həmin arxivdə protokollardan istifadə etmək istəyəndə bildirdilər ki, redaksiyalardan illərlə toplanmış protokollar işlənib hazırlanmadığına görə üst-üstə yığılaraq qalıb və istifadəyə yararlı deyil. Xəlil Rzanın poeması ilə əlaqədar protokolun surətini çıxarıb özümdə saxlamışdım).

Redaksiya heyətinin iclasında Zeynal müəllimin təklifi ilə yaradılmış Heyət isə qərarı belə "icra etdi" ki, poemanı nöqtəsinə - vergülünə toxunmadan çapa imzaladım. Ümumiyyətlə, həmişə bu fikirdə olmuşam və indi də bu fikirdəyəm ki, şairin (söhbət şeir yazandan yox, şairdən gedir) yazdığı kimsə tərəfindən redaktə olunmamalıdır. Redaktəni, lazım biləndə, şair özü edər.

**Poemadan bəzi hissələr:**

*Düşün, qardaşım, bir az.*
*Dərk elə ki, hamıdan təşəkkür ummaq olmaz!*
*Alçaqların tərifi igid üçün, mərd üçün*
*Təhqir deyilmi məgər?*
*Nadanların "sağ ol"u "gəbərib öl!" deməkdir,*
*azca düşünsən əgər.*
*Sən hər zatıqırıqdan qanacaqmı umursan?*
*Toqquşmalarla dolu bu həyat səhnəsinə*
*Bəlkə sən göz yumursan?!*
*Kişilər qızıl kimi az tapılır… bunu bil.*
*O qartların, qurdların heç biri kişi deyil.*

*Onlar tikana bənzər dünya gülüstanında.*
*… Biz insanı ən parlaq gövhər adlandırmışıq.*
*Gizlətmişik deyəsən özgə bir adətini,*
*Yırtıcı xislətini.*
*Zibildaşıyan maşın gəlir hər gün dan üzü,*
*Boş gəlib dolu gedir.*
*Tüstülənir hardasa qabıq, sümük, kağız, mum.*
*Baxıram yer üzündə dik gəzən alçaqlara.*
*Zir-zibillə bərabər onları yer üzündən*
*Kürümək istəyirəm.*
*Dörd yandan alov kimi bürümək istəyirəm.*
*Bu saf təmiz havanı onlar lap nahaq udur.*
*Xəbis, paxıl mikrobdan yüz dəfə qorxuludur.*
*Bir vəzifə düşgünü, stola pərçim zəli –*
*Xərçəng xəstəliyindən min dəfə təhlükəli.*
*Vaxt olub, bəzisini sağaltmaq istəmişəm.*
*Cəsurluğu qorxağa calaq vuraq! – demişəm.*
*Bir insanı yetirmək*
*Yüz bağçaya, min bağa bağbanlıqdan çətinmiş.*
*Qaranlıq könüllərə işıq salmaq – ən zor iş.*

*… Sənin uğrunda insan*
*Bilsən neçə min kərə özünü oda atmış.*
*Dünyanı heyran qoyan möcüzələr yaratmış.*
*Sən bu əzmi, hünəri davam etdirməlisən.*
*Girəvə keçib ələ, rast gəlmisən əngələ*
*Vur təpiyi, dağılsın!*
*Ehkamları yıxmağın növlərini kəşf elə!*
*İnsan maneələri qıra-qıra boy atır.*
*Namərdlə toqquşanda mərdlik bir az da artır.*
*… Döyüş gedir dünyada, döyüş, amansız, qəti.*
*Hədələyir adicə qanmaz da, şöhrətbaz da*
*Hər kiçik zərrəsini min ilə qurduğumuz*
*nəhəng mədəniyyəti.*
*Kimin tərəfindəsən, söylə səngərin harda?*
*Tapmısanmı yerini sən bu vuruşmalarda?*
*Səngərsizsənsə, evə hər gün pərt gələcəksən.*

*… Əngəl də çox, dərd də çox, axıb gedir*
*ömür-gün*
*Söylə, bu gün yurd üçün neyləmisən sən özün?*
*De, hansı kəsafəti günəş kimi yarmısan?*
*De, hansı yıxılmışı ayağa qaldırmısan?*
*De, hansı qudurğanın dik burnunu ovmusan?*
*Ovçusan, ya ovmusan yırtıcılar önündə?*

*… Nümayiş alayında öndə getmək azdır, az.*
*Şüar tutmaq azdır, az.*
*Mərdliyə səsləyirəm dünyada hər kişini,*
*Kəşf eləsin həyatda ən gərəkli işini.*
*–Hara gedir bu dünya? – soruş*
*sökülməmiş dan,*
*Qaranlığı dağıdan qızıl addımlarından.*

*"Azərbaycan gəncləri"*
*29 iyul 1980-ci il*

Qəzet çapdan çıxan gün həm MK-nın Təbliğat və Təşviqat Şöbəsindən, həm də Mədəniyyət Şöbəsinin Ədəbiyyat sektorundan (sektorun müdiri ədəbiyyatşünas alim, təcrübəli partiya işçisi, yüksək mənəvi keyfiyyətlərə malik insan Xeyrulla Əliyev idi) mənə zənglər oldu. Qərara alındı ki, məsələ redaktor işə çıxandan sonra redaksiya heyətinin iclasında müzakirə olunsun.

Şamil müəllim işə qayıtdı, səmimi görüşdük, gülə-gülə dedi ki, eybi yox, töhmət verərik, keçib gedər… Onun sözünə əməl etmədiyim birinci dəfə olmadığına görə, o da buna alışmışdı...

Qeyd edim ki, Xəlil Rza ilə komsomolun Mərkəzi Komitəsində işləməyə başlayandan tanış olsaq da, "Azərbaycan gəncləri" qəzetinə işə keçəndən sonra bu tanışlıq səmimi dostluğa, əqidə qardaşlığına çevrilmişdi.

Sözü bu gün aramızda olmayan, "Azərbaycan gəncləri" qəzetinin şöbə müdiri, istedadlı, tanınmış jurnalist, sədaqətli dostum Həmid Nəcəfquliyevə verirəm. 2004-cü ildə çap etdirdiyi xatirə yönlü "Əqidəli söz sahibi" adlı məqaləsində yazırdı:

"Ə. Balayev redaktoru əvəz etməyə başlayan kimi redaksiyaya ən əvvəl Xəlil Rza gələr, yazılarını gətirərdi. Əlirza müəllimin onunla xüsusi əməkdaşlığı var idi. Bir-birlərini yarı sözdən başa düşərdilər. Nizaminin "Sirlər xəzinəsi"ndən şairin etdiyi tərcümələr, "Hara gedir bu dünya" adlı poeması, onlarca şeiri məhz Ə. Balayevin redaktorluğu ilə qəzetdə dərc olunmuşdu.

"Azərbaycan gəncləri" qəzetinin redaksiyasında ona göstərilən səmimi münasibətdən Xəlil Rza da həmişə xoşhal olardı. Hər təzə kitabı çıxan kimi redaksiyaya gələr, üstünü yazıb bizə hədiyyə edərdi və bu yazılar bir-birindən maraqlı olardı. Əlirza müəllim üçün yazdığı bir bənd şeir elə oynaq və ahəngdar idi ki, bu gün də xatırlayıram:

*Gözündə qalmasın kam,*
*Çatasan hər muraza.*
*Əbədi qardaş olsun*
*Xəlil Rza, Əlirza."*

Poema çap olunandan sonra şairə dedim ki, gərək mən redaktorluğa başlayandan sonra gələrdiniz. Duruxdu, zəndlə mənə baxdı və dedi: ağlıma gəlmirdi ki, redaktor müavini bir səhifəlik poema da çap edər, fikirləşdim ki, bəlkə Şamil müəllimdən keçirdə bildim…

Həmidin yazdığına əlavə edim ki, yuxarıdakı misraları Xəlil Rza 1977-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında çapdan çıxmış "Doğmalıq" adlı şeirlər kitabını mənə hədiyyə edərkən yazmışdı. 1983-cü ildə "Hara gedir bu dünya..." adlandırdığı şeirlər və poemalar kitabını hədiyyə edərkən isə, görünür, poemanın çap olunması macərasını xatırlayaraq, özünəməxsus pafosla yazmışdı: "Azərbaycanın qüdrətli və cəsur oğlu Əlirza kişiyə qardaş yadigarı. Xəlil Rza 20 noyabr 1984."

## Üzeyir Hacıbəyovun bəyliyinə görə irad

Qəzetin çapdan çıxan günü idi. Günortaya yaxın Mərkəzi Komitənin Təbliğat və Təşviqat Şöbəsindən zəng etdilər ki, Zahid Hüseynzadənin yanına gəlin. Zahid Hüseynzadə şöbə müdirinin birinci müavini idi.

Mən və Şahmar Əkbərzadə bir müddət əvvəl Zahid müəllimlə eyni vaxtda Sov.İKP MK-nın Yessentukidəki Kalinin adına sanatoriyasında istirahət etmişdik. Həmin günlərdə tanış olmuş, ünsiyyət saxlamışdıq. Partiya işinə diplomatik fəaliyyətdən gəldiyini bilirdik, amma bu barədə çox danışmazdı. Onun müddəti bizimkindən bir-iki gün əvvəl başa çatdı və dəmiryol vağzalından onu Bakıya yola saldıq.

Xalq yazıçısı Elmira Axundova yazır ki, "Z. Hüseynzadə XİN-də işləmişdi–əvvəlcə Misirdəki sovet səfirliyində müşavir, sonra isə SSRİ-nin İstanbulda Baş konsulu vəzifəsində. Böyük nüfuza malik idi. O, Heydər Əliyevin bir sıra tapşırıqlarını yerinə yetirmiş, bununla da ona 2-ci şöbənin müdiri, eləcə də DTK-nın sədr müavini işləyərkən çox kömək etmişdi. Misirdə, Camal Əbdül Nasirin vaxtında maneəsiz olaraq onun yanına getmək səlahiyyəti vardı. C. Ə. Nasir A. Qromıkodan xahiş etmişdi ki, Misirə aid bütün məsələləri səfirdən yan keçərək, Z. Hüseynzadə vasitəsilə həll etsin. Diplomatiya təcrübəsində belə şeylər az-az olur." (*Elmira Axundova. Heydər Əliyev. Şəxsiyyət və zaman. II hissə, Bakı, CBS polygraphıc production, s.118*).

Sanatoriyada olduğumuz az müddət ərzində Zahid müəllim bizdə alicənab, təmkinli və zəkalı adam təəssüratı doğurmuşdu.

Kabinetinə daxil olanda İnna Matuşkinanın da orada olduğunu gördüm. İ. Matuşkina mən hələ komsomolun Mərkəzi Komitəsində Mətbuat, radio və televiziya sektorunun müdiri işləyəndə "Молодёжь Азербайджана" qəzetinin redaktor müavini idi və səmimi, işgüzar münasibətimiz vardı. Mən "Azərbaycan gəncləri"nə işə keçəndən sonra artıq həmkar idik. Yerli ruslardan olan nəcib, düşüncəli xanım idi. Az müddət idi ki, partiya Mərkəzi Komitəsinə işə keçmişdi.

Zahid müəllimin stolunun üstündə "Azərbaycan gəncləri" qəzetinin yeni çıxmış nömrəsinin açıq səhifəsi dururdu: Firidun Şuşinski, "Hanı çal-çağırın Qarabağ?" Zahid müəllim məqaləyə nəzər saldı və çox sakit, təmkinli tərzdə izah etdi ki, Üzeyir Hacıbəyovun adının "Üzeyirbəy" kimi getməsi yanlışdır, bəstəkar özü-özünü heç vaxt "bəy" adlandırmayıb, Firidun Şuşinski yazıb, siz də dərc etmisiniz. Dedim ki, nəzərimizdən yayınıb. Diqqətli olmağımızı tövsiyə etdi və dedi ki, redaktor gələndə yığışıb müzakirə edər, şöbəyə də bir cavab göndərərsiniz. İnna Matuşkina heç danışmırdı, yalnız dinləyirdi.

Redaksiyaya qayıdanda qəzetə baxıb gördüm ki, Yalnız Üzeyirin yox, qardaşı Zülfüqar Hacıbəyovun da adı "Zülfüqarbəy" kimi gedib:

"Azərbaycan opera musiqisinin banisi Üzeyirbəy Hacıbəyov, Zülfüqarbəy Hacıbəyov, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Süleyman Ələsgərov, Zakir Bağırov, Aleksandr Melikpaşayev, Çingiz Hacıbəyov, Niyazi, Avanes İonesyan və bir çox başqaları öz gənclik illərini Qız qayasında, Daşaltıda, Cıdır düzündə, Çömçəli bulaqda keçirmiş, bu yerlərin təbii gözəlliklərindən ilhamlanaraq, dünya musiqi sənətinə solmaz incilər bəxş etmişlər."

*"Azərbaycan gəncləri"*
*1 mart 1983-cü il*

Mən dərhal anladım ki, Zahid müəllim məqaləni oxusaydı belə, "bəy" sözünə heç əhəmiyyət verməzdi – kimsə kənardan zəng edib. Məqalədə bir çox mətləblərlə yanaşı, 25 il ərzində Sovet İttifaqında tanı-

nan, 47 qızıl medal almış məşhur "Şur" kollektivinin öz fəaliyyətini dayandırmasına görə Mədəniyyət Nazirliyi, Ağdam Rayon Mədəniyyət Şöbəsi tənqid olunurdu...

Sonrasını oxucu bilir, yəni töhmət...

Təxminən iki ilə yaxın müddət ötdükdən sonra yenə redaktoru əvəz edərkən, Müzəffər Şükür şeirlərini təqdim etmişdi. Çap üçün seçdiyimiz iki şeirdən birində – "Qarabağ bülbülləri" adlı şeirdə "Üzeyirbəy" adını görən kimi qəsdən eynilə çapa göndərdim ki, görək bu dəfə nə olar? Zahid müəllim də MK-da öz vəzifəsində idi.

*Ucalır "Qatarım", dinir "Segah"ım,*
*Bülbüllər ötüşür nəfəs-nəfəsə.*
*Nəğmə qanadında əriyir ahım,*
*Baxıb həsəd çəkir quşlar bu səsə.*

*Beləcə əbədi ötsün, dəyməyin,*
*Onu dinləməyə yüz dağ gəlibdir.*
*Bəlkə də ruhudur Üzeyirbəyin,*
*Uçub bu dünyaya qonaq gəlibdir.*

*"Azərbaycan gəncləri"*
*18 dekabr 1984-cü il*

Heç bir səs-səmir olmadı. Əslində də, olmamalı idi. Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev sovet dövründə də özlərinin "bəy" titulları ilə asudə yaşayıb yaradırdılar. Üzeyirin də doğum şəhadətnaməsində "Üzeyir bəy" yazılmışdı. Sovet dövründə bəstəkar bundan imtina etmişdi. Qəzetdəki bir məqalədə "Üzeyirbəy" yazılıbsa, dünya dağılacaqdı?

## Yubileydən sonra "yubiley"

... Redaktoru əvəz etdiyim adi iş günlərinin birində iş otağımın qapısı zərblə açıldı, Famil Mehdi pörtmüş, üzü qızarmış, əsəbi halda əlində bir vərəq otağa daxil oldu. Salamsız-kəlamsız əlindəki vərəqi yellədə-yellədə səsini qaldıraraq, "Əlirza, belə şey olar, ədəbiyyat qəzeti mənim şeirimi çap eləmir" – dedi və səsini bir az da qaldıraraq: "mənim şeirimi çap eləmir..."

"Ədəbiyyat qəzeti" "Kommunist" (*indiki "Azərbaycan"*) nəşriyyatının 9-cu, "Azərbaycan gəncləri" qəzeti isə 8-ci mərtəbəsində yerləşirdi. Cəmi bir mərtəbə aşağı düşdüyünə görə hirsi hələ soyumamışdı... Bir təhər onu sakitləşdirdim, əyləşdi.

Şeiri alıb oxudum. Universitet müəllimim Nəriman Həsənzadənin ("Ədəbiyyat və incəsənət" qəzetinin redaktoru) şeiri çap etməməsi düzgün qərar idi. Şeir yaşadığımız cəmiyyətin "ahəngdar ab-havası"na uyğun deyildi. Lakin Famil müəllim, təbii ki, şeirini müzakirə eləməyə gəlməmişdi, inandığı bir adam kimi yanıma gəlmişdi. "Sabah nə olar olsun" düşüncəsi ilə şeiri çap etmək qərarına gəldim. Məsul katibin müavinini çağırıb tapşırdım ki, çapa gedən nömrənin 4-cü səhifəsində səhifənin dörddə biri qədər juxarıda yer boşaltsın, yeni yazı olacaq...

Famil müəllimin iştirakı ilə kiçik bir "ramka" (o zamanlar belə deyirdik – hansısa yazını təqdim edən kiçik mətn) da hazırladıq. "Nəğmə" adlı ilk şeirinin 30 il əvvəl "Azərbaycan gəncləri" qəzetində dərc olunduğunu yazdıq və 50 illiyi münasibətilə oxucularımız adından şairi təbrik də etdik. "Mənim yubileyim" şeirinə birini də qoşduq ki, "podborka" (bir neçə yazıdan ibarət) alınsın. Şeir vergülünə – nöqtəsinə toxunmadan dərc olundu.

### Mənim yubileyim

*Mənim iki gözüm,*
*Çörəyim, duzum,*
*Qohumum, qardaşım, yoldaşım, dostum!*
*Yubiley günümdə açıb qapımı*
*Məni tapmasanız heyrətlənməyin.*
*Tapdayıb o köhnə ayaqqabımı*
*Söylənə-söylənə geri dönməyin.*
*Atın o tarixi – ayı, ili də,*
*O köhnə qaydalar dağılmalıdır.*
*Şairin şeiri də, yubileyi də*
*Xalqın taleyindən doğulmalıdır.*
*Siz mənə yubiley keçirirsiniz,*
*Tərif şərbətləri içirirsiniz.*
*Ancaq ki, canımız möhnətdə qalıb –*
*Füzuli hələ də qürbətdə qalıb.*
*Yaxşı ki, dənizmiş torpağın səbri,*
*Hələ tapılmayıb Zakirin qəbri.*
*Zərdabi daş kimi susub yatıbdır,*
*Kollar arasında itib-batıbdır.*
*Yanında milyonçu birinə ancaq*

*Abidə qoyulub – günümə bir bax!*
*Siz mənə yubiley keçirirsiniz,*
*Tərif şərbətləri içirirsiniz.*
*Bir zaman düşməni ot kimi biçən,*
*Torpağa and içən, canından keçən,*
*Cəmil Əhmədovun hanı yubileyi?*
*Gəray Əsədovun hanı yubileyi?*
*Qafur Məmmədovun hanı jubileyi?*
*Bəs mən neyləyirəm quru bəyliyi!*
*Atılıb meydana hansı hünərlə,*
*Döşümə döyüm ki, mən vətən oğlu...*
*Araz körpüsünün üzümə hələ*
*Dəmir məftillərlə bağlıdır yolu.*
*Ələyib, keçirib söz ələyindən,*
*Nə vaxt susdurmuşam hansı dərvişi?*
*Bəlkə də yubiley xəstəliyindən*
*Bir az şeirimizin tökülüb dişi.*
*Bir az da qanında məddahlıq artıb,*
*Bir az da yolunda bədxahlıq artıb.*
*Odur ki, bu axşam – bu ad günümdə,*
*Tərifdən, tənqiddən azad günümdə*
*Uzaq bir komada*
*Mürəkkəbə mən,*
*Qanımdan bir damla qataraq hərdən*
*Yazıram, pozuram, heykəlləşirəm.*
*Ürək boşaldıqca yüngülləşirəm.*
*Yox, yox, xərcləmədim ömrü pul kimi.*
*Bir yeni nəğmədir hər ürək ağrım.*
*Yaşasa keçirər yubileyimi,*
*Mənim şeirlərim – mərd övladlarım.*

*"Azərbaycan gəncləri"*
*25 dekabr 1984-cü il*

Həmin gün şeir  oxucular, ziyalılar arasında, xüsusən Famil Mehdinin professoru, kafedra müdiri olduğu Bakı Dövlət Universitetində böyük maraqla oxunmuşdu. Elə həmin gün də rəsmi zənglərdən məlum oldu ki, şeir Mərkəzi Komitədə narazılıq doğurmuşdur. Yəni, mənim üçün yeni bir şey yox idi, mən bunları bilərəkdən şeiri çap etmişdim.

Şeirdəki bu misralar xüsusən etirazla qarşılanmışdı:

*Zərdabi daş kimi susub yatıbdır,*
*Kollar arasında itib-batıbdır.*
*Yanında milyonçu birinə ancaq*
*Abidə qoyulub – günümə bir bax!*

Famil Mehdi iş otağıma gələrkən yanımda kiminsə olduğunu xatırlamıram. Ancaq  Həmid Nəcəfquliyev sonralar yazırdı: "Famil Mehdinin bir şeirinə görə Əlirza müəllimə töhmət elan olunmuşdu. Famil Mehdinin həmin şeirinin çapının tarixçəsinin şahidi olduğuma görə indi də yaxşı xatırlayıram. Mən Əlirza müəllimin iş otağında ikən Famil Mehdi rəngi pörtmüş, əsəbi halda içəri daxil oldu və söylədi ki, "Ədəbiyyat və incəsənət" qəzetinə təqdim etdiyi şeirlərin arasından birini redaktor geri qaytarıb. Əlirza müəllim şeiri alıb oxudu və dedi ki, Famil müəllim, sabahkı nömrədə oxuyarsınız. Şeir çap olundu və ciddi araşdırmaya  səbəb oldu. Sonradan bildik ki, həmin şeir Azərbaycan KP MK-nın birinci katibi səviyyəsində irad doğurmuşdu. Bu barədə rəhmətlik Famil Mehdi bir neçə il əvvəl mətbuatda çap etdirdiyi xatirələrində yazmışdı." (*"Həftə" qəzeti, 10-16 yanvar 2004-cü il, s.8*).

Famil müəllim bu barədə bir neçə dəfə yazmış, müsahibələrində söyləmişdi. Mən onları kompüterdə saxlamışdım. Lakin bu yazı üzərində işləyərkən, çox təəssüf ki, onları tapmadım. Ancaq internet axtarışı zamanı məlum oldu ki, şair "Mənim tərcümeyi-halım" adlı kitab hazırlayıbmış.  Vəfatından sonra oğlu Şamil Mehdi redaksiyalara təqdim etmiş, bir çox hissələri çap olunmuşdur. Aşağıdakı sitat da onların birindən götürülmüşdür:

"Əlli illiyimin qeyd olunmasını yuxarılar qoymadı. Televiziyada verilişi dayandırdılar. "Literaturnaya qazeta" SSRİ Yazıçılar İttifaqının yaxşı təbrikini dərc etdi. "Ədəbiyyat və incəsənət"də yazı verilməsini qoymadılar. Ancaq 1984-cü il dekabrın 25-də bütün respublika qəzetləri qeyri-rəsmi olaraq 50-illiyimi qeyd etdilər. Qısa xoş sözlər yazıb, şeirlərimi verdilər. Həmin gün Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi redaktorların müşavirəsini keçirib, onları divara dirədi: "Sizə kim ixtiyar verib MK-nın qərarı olmadan Famil Mehdiyə yubiley keçirmisiniz?" "Kommunist" qəzetinin redaktoru Rəşid Mahmudov cavab verib: "Famil Mehdi ləyaqətli ziyalıdır. Görkəmli şairdir, ictimai xadimdir." Digər redaktorlar da onun dediyini təkrar ediblər. Pis vəziyyətdə qalan katib deyib: "Axı, MK-nın bu haqda qərarı yoxdur. Heç olmazsa, o yazıları eyni gündə yox, müxtəlif vaxtlarda verəydiniz." Katib daha çox "Azərbaycan gəncləri" qəzetinin redaktorunu əvəz edən müavin Əlirza Balayevin üstünə düşüb: "Famil Mehdinin "Mənim yubileyim" şeirini niyə dərc etmisiniz? Şeirdəki:

*Zərdabi daş kimi susub yatıbdır,*
*Kollar arasında itib-batıbdır.*
*O yanda milyonçu birinə ancaq*
*"Abidə" qoyulub - günümə bir bax! – misraları*

Fəxri xiyabanda kimə işarədir?"  Katibin göstərişi ilə Ə. Balayev redaksiya heyətinin iclasını keçirib, özünə və şöbə müdiri Tofiq Mütəllibova töhmət elan edib. MK-da işləyən tanışlarının köməyi ilə vəzifədən çıxarılmasının qarşısı alınıb...

Hətta, bir müddət adım qəzetlərdə xəbərlərdən çıxarıldı, televiziyaya buraxılmadım. Aşağıların adi bir "sağ ol"u mənə yuxarıların min təşəkküründən, mükafatından qat-qat üstündür." ("Təzadlar" qəzeti, 5 dekabr 2009-cu il, s.12);

Famil müəllim, təbii ki, iştirakçılardan eşitdikləri əsasında iclası  təxminən düzgün təsvir edir. Mən, bir qayda olaraq, yazılarına görə cəzalandırıldığım müəlliflərə bu barədə bir söz deməz, özləri soruşanda da söhbətdən yayındırardım.

Oxucular Famil müəllimdən gətirdiyim sitatda şeirdən misal gətirilən bəndə diqqət yetirdilərmi? "Azərbaycan gəncləri"ndə: "Yanında milyonçu birinə ancaq"; "Mənim tərcümeyi-halım" xatirə kitabında: "O yanda milyonçu birinə ancaq". Görünür, "yanında" sonradan şairi də vahimələndirib  və şeirə, kitablarında çap olunarkən,  düzəliş edib.

Famil müəllimin yazdıqlarına əlavə edim ki, iclası aparan Mərkəzi Komitənin ideoloji iş üzrə katibi Ramiz Mehdiyev idi. Ramiz müəlliimlə bir-birimizi mən komsomolun Mərkəzi Komitəsində, o isə Naxçıvan Vilayət Komsomol Komitəsində işlədiyi vaxtdan tanıyırdıq. Mən mətbuata işə keçəndə Ramiz müəllim də partiya Mərkəzi Komitəsinin Təbliğat və Təşviqat Şöbəsində çalışırdı.

Famil müəllimin Tofiq Mütəllibova töhmət verilməsi ilə bağlı yazdıqları  həqiqət deyil. Tofiq müəllimə "Azərbaycan gəncləri" qəzetində Ədəbiyyat və incəsənət şöbəsinin müdiri işlədiyi illərdə nəinki töhmət vermək, ona heç irad  bildirmək də heç kəsin ağlına gəlməzdi. Bu hissədə söhbət açdığım bütün hallarda onun, sadəcə, heç bir iştirakı olmayıb. Ona görə ki, xatası çıxa biləcək hər hansı bir  yazını, ona böyük hörmətimin əlaməti olaraq, ona göstərmədən, imzası olmadan çapa göndərirdim ki, sonradan onun adı hallanmasın.  O da, redaksiya da, hətta deyərdim ki, MK-nın şöbəsindəki dostlarımız da bunu bilirdilər və bu artıq bir qayda halını aldığına görə, heç zaman, heç yerdə ədəbiyyat şöbəsinin ünvanına heç bir sorğu-sual olmazdı. Biz Tofiq müəllimlə elə dost idik, o elə mərd adam idi ki,  Famil Mehdinin şeirini çapa məsləhət gördüyümü və onun da fikrini bilmək istədiyimi söyləsəydim, şeiri oxumadan çapa imzalayardı.

Mərkəzi Komitədə keçirilən iclaslarda etikaya ciddi əməl edilməli idi.  Xüsusən, katiblərin apardığı iclaslarda əsasən dinləyər, suallara cavab verər, etiraz bildirməzdik... Ancaq redaksiya heyətinin iclasında da "yanındakı kimdir?" sualı ortaya çıxanda,  mən həmkarlarıma da izah edə bilmədim ki, onlar Qəbiristanlıq JEK-nin arayışını yox, şeir, poeziya nümunəsi oxuyurlar və şeirdəki "yanında" qəbiristanlığın o biri başında da ola bilər...

Sonda qeyd edim ki, bu yazı üzərində işləyərkən, hədiyyə kitablarına da nəzər salırdım. Maraqlı bir təsadüf ortaya çıxdı. Demə, Famil müəllim şeirinin çapından 5-6 gün əvvəl "Gənclik" nəşriyyatında yeni çapdan çıxmış "Borc" adlı şeirlər və poema kitabını mənə hədiyyə edib, üstündə yazıbmış: "Jurnalist-publisist dostum, sadə, səmimi və təvazökar dostum, qardaşım Əlrza Balayev üçün. Ən yaxşı arzularla. İmza. 20.XII. 84."

* * *

"Mənim yubileyim" şeirinə görə aldığım töhmət "Azərbaycan gəncləri" qəzetində işlədiyim dövrdə sonuncusu oldu. "Sonuncu" deyəndə ki, başqa töhmətlər, iradlar da  olub. Lakin mən oxuculara ən maraqlılarını təqdim etdim. Həmid Nəcəfquliyev adı çəkilən məqaləsində, həqiqətən, belə halların  dəfələrlə baş verdiyini  yazırdı: "Mən "Azərbaycan gəncləri" qəzetinə işə keçəndən sonra Əlirza Balayev ilə neçə illər birgə çalışdıq. Redaktor müavini vəzifəsinə komsomol işindən gəlməsinə baxmayaraq, sovet dövrünün təbiri ilə desək, dissident düşüncəli, demokratik xislətli adam idi, ancaq sözünü yeridəndə sərt olurdu. Fəaliyyətində həmişə nəzərə çarpan bu cəhət ildə bir neçə dəfə – redaktor məzuniyyətə, ezamiyyətə, xarici səfərə gedərkən xüsusilə barizlik kəsb edər və bunun ona həmişə başağrısı gətirməsinə baxmayaraq, beləcə davam edərdi. Redaktoru belə əvəzetmələrin heç biri qalmaqalsız ötüşməzdi. Hər dəfə partiyanın Mərkəzi Komitəsində yazıya irad tutular, redaktor qayıdandan sonra onun məsələsi redaksiya heyətinin iclasında müzakirə olunar və cəzalandırılardı." ("Həftə" qəzeti, 10-16 yanvar 2004-cü il, s.8).



*Ön cərgədə: Zeynal Babayev, Cəmil Əlibəyov, İdris Qasımov; ikinci cərgədə: Əli Səmədov, Həmid Nəcəfquliyev, Abdulqəni Qədirov, Əlirza Balayev, Tofiq Mütəllibov, Əmrah Əmrahov*

Həmidin yazdıqları həqiqətdir. Lakin qəlb isindirən, güc verən münasibətlər də olurdu:
**"Azərbaycan gəncləri" qəzetinin redaksiyası**
**Əlirza Balayevə**

Salam! 7 avqust tarixli nömrənizdə verilən səhifə həddindən artıq xoşuma gəldi. Əjdər Fərzəlinin "Həməşəra saatı", "Ağası gülüm olanın..." adlı məqalələri yazılış tərzinin şirinliyi ilə bərabər həm də maraqlı elmi dəlil və faktlarla zəngindir. Xüsusən Əjdərin məqaləsindən çox şey öyrəndim. Mənim təşəkkürümü müəllifə yetirmənizi xahiş edirəm.

İ. Abdullayevin "Dünya yaxşıların dünyasıdır" məqaləsi şeir qədər təsirli olmaqla böyük fəlsəfi ümumiləşdirməyə malikdir. Bu mövzuda bir şeir yazdım.

"Qanımda yaşayan eşq" şeiri Şahmarın ən yaxşı şeirlərindəndir. İdeya da gözəldir, ideyanın həlli də. Çünki yaşanmış hissdir.

Ümumiyyətlə, bu səhifəyə görə redaksiyanın əməkdaşlarına və müəlliflərə dərin təşəkkürümü bildirirəm. Sağ olun.

*Hörmətlə*
**B. Vahabzadə**
*Şəki (il göstərilməyib)*

# Qlavlit hara baxırdı?

Haqqında söhbət gedən dövrün mətbuat aləminə bələd olan hər kəsin qarşısına belə bir sual çıxacaq: bəs Qlavlit hara baxırdı? Danışıqda bu cür adlandırdığımız təsisatın adı belə idi: Azərbaycan SSR Nazirlər Soveti yanında Mətbuatda Dövlət Sirrini Qoruyan İdarə. Baş idarə isə Moskvada idi: SSRİ Nazirlər Soveti yanında Mətbuatda Dövlət Sirrini Qoruyan Baş İdarə. Müttəfiq respublikalardakı idarələr birbaşa Moskvaya tabe idi və oradan alınan sənədlər, təlimatlar əsasında işləyirdi. Əslində isə, Qlavlitin Moskvadakı Baş İdarəsi Sovet İttifaqının baş senzoru, müttəfiq respublikalardakı idarələri isə yerlərdəki senzorlar idi. Heç bir mətbuat Qlavlitin imzası olmadan çap edilə bilməzdi. Dövlət sirrini qorumaq isə bir örtü idi. Jurnalistdə hansı dövlət sirri ola bilərdi ki, onu faş etsin? Mən təcrübəmdə Qlavlitdən heç zaman "bu dövlət sirridir, çıxardın" sözünü eşitmədim. Bütün hallarda

Qlavlitin tapşırığına əməl olunmalı idi. Bizim toqquşmamız da buradan qidalanırdı. Sözü yenə Həmid Nəcəfquliyevə verirəm:

"Sual oluna bilər ki, F. Mehdinin şeiri Qlavlitdən necə keçmişdi? Məsələ bundadır ki, Ə. Balayev redaktoru əvəz edərkən Qlavlitlə həmişə mübahisəyə qalxardı. Famil Mehdinin şeirlərinin çapından əvvəl baş vermiş belə mübahisələrdən birini xatırlayıram.

Ə. Balayev qəzetin növbəti nömrəsini çapa imzalayaraq, komsomolun Mərkəzi Komitəsinə iclasa getmişdi. Redaksiyaya qayıtdığı zaman qəzetin çapı ilə maraqlananda, ona bildirdilər ki, Qlavlit çapa icazə vermir, Məmməd İsmayılın şeirini nömrədən çıxarmağı tələb edir. Onun Qlavlitlə telefon söhbəti indiki kimi yadımdadır: Məmməd İsmayılın şeirini biz qəzetdən çıxarmayacağıq, çapa icazə verməsəniz, qəzeti buraxmayacağıq. Sabah, yəqin ki, Mərkəzi Komitədə "Azərbaycan gəncləri" qəzetinin nə üçün çıxmadığını araşdırarlar. Kimi günahkar hesab etsələr, o da cavab verər.

Redaksiya intizarla gözləyirdi. Ə.Balayevin xasiyyətinə bələd olan işçilər bilirdilər ki, Qlavlit qəzetin çapına icazə verməsə, o da Məmməd İsmayılın şeiri olmadan çapa göndərməyəcək. On-on beş dəqiqədən sonra Qlavlitdən zəng edib, qəzetin çapına icazə verildiyini bildirdilər..." (*"Həftə" qəzeti, 10-16 yanvar 2004-cü il, s.8*).

Hadisəni, təbii ki, yaxşı xatırlayıram, unudulası əhvalat deyil. Həmin qəzeti o zaman götürüb saxlamağıma baxmayaraq, onu tapmadım. Ancaq eynilə baş verən toqquşmaya aid digər qəzet əlimin altındadır. İradlar Xəlil Rzanın "Mən bir azdan uçasıyam!" və yuxarıda haqqında bəhs etdiyim Müzəffər Şükürün "Qarabağ bülbülləri" şeirlərinə aid idi. Xəlil Rzanın şeirində belə bir bənd vardı:

*Gözlərim saatın üç əqrəbində,*
*Əsrlər, eralar ixtiyarımda.*
*Doğma İdel çayı, Bozsu, Araz, Kür*
*Vurur nəbzim kimi şah damarımda.*

*"Azərbaycan gəncləri"*
*18 dekabr 1984-cü il*

Tələb edirdilər ki, "İdel" əvəzinə "Volqa" olmalıdır. Şair çayı türk xalqlarında olduğu kimi adlandırmışdı.

Özü Qarabağdan olan Müzəffər Şükürün isə şeirinin son bəndində mətnaltı məna görürdülər:

*Nisgilli qəlbləri yatırmaq üçün*
*Ötən şirin dillər Qarabağdadır.*
*Bayquş səslərini batırmaq üçün*
*Yaxşı ki, bülbüllər Qarabağdadır.*

*"Azərbaycan gəncləri"*
*18 dekabr 1984-cü il*

Mən söhbətə artıq hazırlaşmışdım. Qarabağda bayquşlar yaşayır, ya yox? Mənbələrə baxdım: bayquşlar dağ yamaclarındakı kolluqlarda, meşədəki ağac koğuşunda, qayalardakı yarıq yerlərdə yaşayırlar ki, bunların da hamısı Qarabağda var. Dedim ki, Qarabağda ermənilərlə yanaşı, bayquşlar da yaşayır.

Hər iki düzəlişdən imtina elədim. Mübahisə davam edəndə isə, dedim ki, qəzet çıxmayacaq, görək sabah kim cavab verəcək. Bir azdan zəng oldu ki, qəzet imzalanıb, gəlin çapa aparın... Bu, Famil Mehdinin "Mənim yubileyim" şeirinin çapından bir həftə əvvəl olmuşdu.

Qəzet çapdan çıxandan iki gün sonra Qulu Xəlilov mənə hədiyyə etdiyi irihəcmli "Həyatdan gələn səslər" adlı kitabında yazırdı: "Şəxsiyyətinə, vətəndaşlığına, cəsarətinə və jurnalist hünərinə dərin rəğbət bəslədiyim Əlirza müəllimə - dostluq hissləri ilə dolu. 20.XII. 1984." Bir neçə gün sonra Şəmşad Rza irihəcmli "İnam" adlı povestlər kitabını hədiyyə edərkən yazdığı mətn:"Köməyimiz, arxamız, son dərəcə qayğıkeş jurnalist qardaşım Əlirzaya nişanə hörmətlə. Ş.Rza 26.XII 84"

Qlavlitlə ən ciddi toqquşmam 5-6 il sonra baş verəcək və elə ciddi ki, SSRİ Nazirlər Soveti yanında Mətbuatda Dövlət Sirrini Qoruyan Baş İdarə də işə qarışmalı olacaq... Bu barədə sonrakı hissələrin birində...

(*Davamı var*)

## PSİXOLOGİYA DEPARTAMENTİ ƏMƏKDAŞININ MƏQALƏSİ “*AZƏRBAYCAN TƏBABƏTİNİN MÜASİR NAİLİYYƏTLƏRİ*” JURNALINDA




Xəzər Universiteti Psixologiya departamentinin əməkdaşı Mirsadiq Muxtarovun “Kleptomaniyanın etiologiyasına, epidemiologiyasına, diaqnostika və müalicəsinə müasir yanaşma” adlı məqaləsi Ali Attestasiya Komissiyasının siyahısına daxil olan “*Azərbaycan Təbabətinin Müasir Nailiyyətləri*” jurnalında (təsisçi: Beynəlxalq Ekoenergetika Akademiyasının Biotəbabət bölməsi) dərc olunmuşdur (2024, № 3).

Müəllif məqalədə kleptomaniyanın simptomları, epidemiologiyası, tarixi, etiologiyası, diaqnozu, mövcud psixofarmakoloji və psixoterapevtik müalicə üsullarından bəhs edir. O, həmçinin, beynəlxalq tədqiqatlara əsaslanaraq, bu psixopatologiya barədə ən son elmi araşdırmalar haqqında sistemli məlumat vermişdir. Kleptomaniyanın tədqiq edilməsində neyrogörüntülənmənin önəmini qeyd edərək, beyin bölgələrindəki funksional dəyişikliklərə diqqət yetirmişdir. Məqalədə, kleptomaniyanın müalicəsində psixofarmakoloji müdaxilə ilə psixoterapiyanın birləşdirilməsinin effektiv metod olduğu vurğulanmışdır.

## PSYCHOLOGY DEPARTMENT STAFF MEMBER`S ARTICLE PUBLISHED IN "*MODERN ACHIEVEMENTS OF AZERBAIJAN MEDICINE*" JOURNAL

A research article titled "Contemporary Approach to the Etiology, Epidemiology, Diagnosis, and Treatment of Kleptomania" by Mirsadig Mukhtarov, a member of Khazar University's Psychology Department, has been published in the "*Modern Achievements of Azerbaijan Medicine*" journal (2024, Issue 3). The journal is listed in the Higher Attestation Commission's approved publications and is published by the Azerbaijan Institute of Education.

In this scholarly work, the author provides a comprehensive analysis of kleptomania, examining its symptomatology, epidemiology, historical context, etiology, diagnostic criteria, and current psychopharmacological and psychotherapeutic treatment modalities. Drawing from international research, he presents a systematic review of the latest scientific investigations into this psychopathology. The article emphasizes the significance of neuroimaging in studying kleptomania, highlighting functional alterations in specific brain regions. Furthermore, it underscores the efficacy of combining psychopharmacological intervention with psychotherapy as an optimal treatment approach for managing kleptomania.

## PROF. AKAD. HAMLET İSAXANLI BDU-DA BEYNƏLXALQ TÜRK AKADEMİYASININ PREZİDENTİ AKAD. ŞAHİN MUSTAFAYEVİN TƏRTİB ETDİYİ “TƏBRİZ LİVASININ MÜFƏSSƏL DƏFTƏRİ” KİTABININ TƏQDİMATINDA



*Şahin Mustafayev*



*Hamlet İsaxanlı*

## PROF. ACAD. HAMLET ISAKHANLI ATTENDS BOOK LAUNCH AT BSU FOR "DETAILED REGISTER OF TABRIZ LIVA" BY INTERNATIONAL TURKIC ACADEMY PRESIDENT ACAD. SHAHIN MUSTAFAYEV

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı fevralın 19-da Bakı Dövlət Universitetində (BDU) Beynəlxalq Türk Akademiyasının prezidenti Akad. Şahin Mustafayevin tərtib etdiyi iki cildlik “Təbriz livasının müfəssəl dəftəri” kitabının təqdimatında iştirak etmişdir.

H.İsaxanlı çıxışında Təbriz şəhərinin Azərbaycan tarixində böyük rolu və Türk Akademiyasının prezidenti Akad. Şahin Mustafayevin hazırladığı geniş giriş məqaləsi yazilmiş iki cildlik “Təbriz livasının müfəssəl dəftəri” kitabının əhəmiyyətindən bəhs etmişdir.

Professor Acad. Hamlet Isakhanli, the founder and Chairman of the Board of Directors and Trustees of Khazar University, attended the presentation of the two-volume book “Detailed Register of Tabriz Liva” compiled by Acad. Shahin Mustafayev, President of the International Turkic Academy, at Baku State University (BSU) on February 19.

In his address, Isakhanli highlighted the significant historical role of Tabriz in Azerbaijan's history and emphasized the importance of the two-volume “Detailed Register of Tabriz Liva,” which features an extensive introductory article by Academician Shahin Mustafayev, President of the Turkic Academy.

## TƏLƏBƏLƏR QANUN NƏŞRİYYATINDA FİLOLOJİ TƏCRÜBƏDƏ

Fevralın 20-də Xəzər Universitetinin Mərmər salonunda Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisasının IV kurs tələbələrinin filoloji təcrübəsi ilə bağlı iclas keçirilib. İclası Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan əvəzi Aygün Verdiyeva giriş sözü ilə açıb və tələbələrə uğurlar arzulayıb.

Filoloji təcrübənin rəhbəri, Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy təcrübə haqqında məlumat verib. Qanun Nəşriyyatının İnsan resursları üzrə mütəxəssisi Zərifə Məmmədova tələbələrin nəşriyyatda görəcəkləri işlər və onların prinsipləri haqda çıxış edib.

## STUDENTS BEGIN PHILOLOGICAL INTERNSHIP AT GANUN PUBLISHING HOUSE

A meeting regarding the philological internship of fourth-year Philology (Azerbaijani Language and Literature) students was held in the Marble Hall of Khazar University on February 20, 2025. The meeting was opened with introductory remarks by Aygun Verdiyeva, Acting Dean of the Faculty of Humanities, Education and Social Sciences, who wished the students success.

Ulvi Babasoy, instructor at the Department of Languages and Literature and supervisor of the philological internship, provided information about the internship. Zarifa Mammadova, Human Resources Specialist at Ganun Publishing House, spoke about the work students will perform at the publishing house and their principles.






## “DİLİMİZ KİMLİYİMİZDİR: DİLİMİZİ QORUYAQ!”

Fevralın 21-də Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun təşkilatçılığı ilə universitetin Mərmər salonunda “Dilimiz kimliyimizdir: dilimizi qoruyaq!” mövzusunda maarifləndirici tədbir keçirildi. Tədbirin məqsədi Azərbaycan dilinin hazırkı səviyyəyə çatmaq üçün hansı çətinliklərdən keçdiyini, necə formalaşdığını və ən əsası dilimizi necə qorumalı olduğumuzu iştirakçılara çatdırmaq idi.

Tədbir Azərbaycan Dövlət Himninin ifası ilə başlandı. Xəzər Universitetinin birinci kurs tələbələri Nigar Ələsgərli və Pəri Nəsibova Xalq şairi Bəxtiyar Vahabzadənin “Ana dilim“ şeirini söylədilər. Xəzər Universitetinin Kamera orkestrının çıxışından sonra söz Mədəni Antropologiya və Folklor İnstitutunun koordinatoru Dos. Aynur Qəzənfərqızına verildi. O, “21 fevral Beynəlxalq Ana dili Günü”nün yaranma tarixindən danışdı və qeyd


*Aynur Qəzənfərqızı*

edilməsinin vacibliyini vurğuladı. Hər zaman, hər yerdə ana dilini qorumağın müqəddəs borc olduğunu qeyd etdi.

Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxışında ədəbi dil tariximizdən, dilimizin keçdiyi inkişaf yolundan, Azərbaycan dilinin

## "OUR LANGUAGE IS OUR IDENTITY: LET'S PRESERVE OUR LANGUAGE!"

An educational event titled "Our Language is Our Identity: Let's Preserve Our Language!" was held in the Marble Hall of Khazar University on February 21, 2025, organized by the Institute of Cultural Anthropology and Folklore. The event aimed to inform participants about





*Hamlet İsaxanlı*

öyrənilməsinin ingilis dilli Xəzər Universiteti üçün önəmindən danışdı və qeyd etdi ki, Xəzər Universitetində bütün ixtisaslar üzrə Azərbaycan dili tədris olunur.

Xəzər Universitetinin müəllimləri aşıq Ramin Qarayev və müğənni Məhsəti Cabbarova Hamlet İsaxanlının sözlərinə "Gödək donu" havası üstündə şən mahnı ifa etdilər.



*Sevinc Qəmbərli*

Azərbaycan Respublikasının sabiq təhsil naziri - türkoloq, filologiya elmləri doktoru, Prof. Firudin Cəlilov çıxışında dünya dilləri içərisində türk dilləri ailəsinin mövqeyi, türk dillərinin xüsusiyyətləri, sinharmonizm qanunu, türk dillərində olan ümumi və xüsusi qrammatik kateqoriyalar

(*Ardı səh.60-da*)

the challenges the Azerbaijani language has overcome to reach its current level, how it developed, and most importantly, how to preserve the language.

The event began with the performance of the Azerbaijan National Anthem. First-year Khazar University students Nigar Alasgarli and Pari Nasibova recited the poem "My Mother Tongue" by People's Poet Bakhtiyar Vahabzade. Following a performance by Khazar University's Chamber Orchestra, Associate Professor Aynur Gazanfargizi, coordinator of the Institute of Cultural Anthropology and Folklore, addressed the audience. She spoke about the history of "February 21 - International Mother Language Day" and emphasized the importance



*Firudin Cəlilov*

of its commemoration. She noted that preserving one's mother tongue is a sacred duty at all times and places.

In his speech, Professor Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, discussed the history of our literary language, the development path of our language, and the importance of learning the Azerbaijani language for the English-language Khazar University. He noted that Azerbaijani language is taught in all specialties at Khazar University. Khazar University teachers ashug Ramin Garayev and singer Mahsati Jabbarova performed a cheerful song set to the tune of "Godak Donu" with lyrics by Hamlet Isakhanli.

Former Minister of Education of the Republic of Azerbaijan, Turkologist, Doctor of Philological Sciences, Professor Firudin Jalilov discussed the

(*To be continued page 60*)

barəsində danışdı. Qədim türklərin məskəni, ulu dil nəzəriyyələri haqqında məlumat verdi. Dillərdə olan sözyaratma, sözalma proseslərinə toxundu, türklər üçün ortaq terminologiyanın yaradılması istiqamətində işlərin vacibliyini vurğuladı. Çıxışının sonunda öz kitablarını Xəzər Universitetinin kitabxanasına bağışladı. Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Sevinc Qəmbərli çıxış edərək, Azərbaycan dilinin dialektologiyası və müvafiq terminlərdə olan dəyişikliklər, bu sahədəki yeniliklər haqqında danışdı. Türk dilləri ailəsində ilk dəfə olaraq Azərbaycan dilində dialektoloji atlasların tərtib edilməsini,1990-ci ildə "Azərbaycan dilinin dialektoloji atlası", 2015-ci ildə "Naxçıvan dialektoloji atlası " və 2022-ci ildə isə "Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nın işıq üzü gördüyünü qeyd etdi. Tədbir Xəzər Universitetinin Kamera orkestrinın çıxışı ilə başa çatdı.

**Nigar Ələsgərli**
*Xəzər Universiteti,*
*Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası, 1 kurs*



*Ramin Qarayev* *Məhsəti Cabbarova*

position of the Turkic language family among world languages, characteristics of Turkic languages, the law of synharmonism, and general and special grammatical categories in Turkic languages. He provided information about the ancestral home of ancient Turks and theories of proto-language. He touched upon word formation and borrowing processes in languages and emphasized the importance of creating common terminology for Turkic peoples. At the end of his speech, he donated his books to the Khazar University library. Dr. Sevinj Gambarli, lecturer at the Department of Languages and Literature at Khazar University, spoke about the dialectology of the Azerbaijani language, changes in relevant terminology, and innovations in this field. She noted that dialectological atlases were first compiled in the Azerbaijani language among the Turkic language family, with the "Dialectological Atlas of the Azerbaijani Language" published in 1990, the "Nakhchivan Dialectological Atlas" in 2015, and the "Karabakh and Eastern Zangezur Dialectological Atlas" in 2022. The event concluded with a performance by Khazar University's Chamber Orchestra.

**Nigar Alasgarli**
*Khazar University,*
*Azerbaijan Language and Literature Teaching, 1st year*

## TƏLƏBƏLƏR ARXEOLOGİYA VƏ ANTROPOLOGİYA İNSTİTUTUNDA

Fevralın 20-də AMEA Arxeologiya və Antropologiya İnstitutunun Muzey-Sərgi Zalında Xəzər Universitetinin ikinci kurs tarix-coğrafiya müəllimliyi ixtisası tələbələrinə Sivilizasiyalar tarixi ilə əlaqəli keçirilən dərs zamanı mühüm arxeoloji materiallarla tanışlıq oldu.

Dərsi Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanov təşkil etmişdi. Ekskurs-dərs şəklində keçən interaktiv məşğələ tələbələrin fənni əyani mənimsəməsinə yardımçı oldu.

## STUDENTS VISIT THE INSTITUTE OF ARCHAEOLOGY AND ANTHROPOLOGY

On February 20, second-year History-Geography Education students from Khazar University had the opportunity to examine important archaeological materials during a class related to the History of Civilizations at the Museum-Exhibition Hall of the Institute of Archaeology and Anthropology of the Azerbaijan National Academy of Sciences (ANAS).

The class was organized by Orkhan Zamanov, instructor from the Department of History and Archaeology. The interactive session, conducted in the form of a guided tour-lesson, helped students gain hands-on understanding of the subject.

## KİTABXANA İNFORMASİYA MƏRKƏZİNİN DİREKTOR MÜAVİNİ ELMİ-PRAKTİK SEMİNARDA

## DEPUTY DIRECTOR OF LIBRARY INFORMATION CENTER PARTICIPATES IN SCIENTIFIC-PRACTICAL SEMINAR

Fevralın 20-də Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) Kitabxana İnformasiya Mərkəzi tərəfindən keçirilən "Akademik kitabxana fondları mədəni irsimizdə" mövzusunda elmi-praktik seminarda iştirak etdi.

Tədbirə Bakıda və regionlarda yerləşən bir çox ali təhsil müəssisələrinin kitabxana rəhbərləri və əməkdaşları dəvət olunmuşdular.

Seminarda müasir dövrdə ali təhsil müəssisələri kitabxanalarının fəaliyyət istiqamətləri, milli-mədəni irsin qorunmasında akademik kitabxanaların rolu, mədəni irsin xəzinəsi olan nadir nəşrlər və digər mövzulardan bəhs edilmişdir.

On February 20, Aytaj Misgarli, Deputy Director of Khazar University's Library Information Center, participated in a scientific-practical seminar on "Academic Library Collections in Our Cultural Heritage" organized by the Library Information Center of Azerbaijan State University of Culture and Arts (ADMIU).

Library directors and staff from numerous higher education institutions in Baku and the regions were invited to the event.

The seminar discussed the activities of university libraries in the modern era, the role of academic libraries in preserving national cultural heritage, rare publications as treasures of cultural heritage, and other related topics.

## ALMAN DİLİ MÜƏLLİMLƏRİ ELMİ SEMİNARDA

## GERMAN LANGUAGE TEACHERS PARTICIPATE IN ACADEMIC SEMINAR

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin Alman dili müəllimləri Şəlalə Mirzəyeva və Sevinc Allahverdiyeva fevralın 22-də Azərbaycan Alman dili Müəllimləri Birliyi (DLV) və Alman Akademik Mübadilə Mərkəzi (DAAD) Bişkek filialının birgə təşkil etdikləri seminarda iştirak ediblər. Azərbaycan Dillər Universitetinin Germanistika Mərkəzində keçirilən ikigünlük seminarın moderatorları DAAD-nin Bişkek nümayəndəsi Anja Lange və Guldastan İsmayılova olublar. Seminarın birinci günündə "Elmi işlər və onların yazılması qaydaları" mövzusu əsasında məruzə dinlənilib və müzakirələr aparılıb. Seminarın ikinci günündə isə "Alman dilinin texniki sahələrdə tədrisi metodikası" məsələləri ətrafında nəzəri və praktik tapşırıqlar icra edilib.

German language instructors from Khazar University's Department of Languages and Literature, Shalala Mirzayeva and Sevinj Allahverdiyeva, participated in a seminar jointly organized by the Azerbaijan German Language Teachers Association (DLV) and the German Academic Exchange Service (DAAD) Bishkek branch on February 22. The two-day seminar, held at Azerbaijan University of Languages' Center for German Studies, was moderated by DAAD Bishkek representative Anja Lange and Guldastan Ismayilova. On the first day of the seminar, presentations and discussions focused on "Academic Papers and Their Writing Guidelines." The second day involved theoretical and practical exercises on "Methodology of Teaching German Language in Technical Fields."

# PROF.AKAD. HAMLET İSAXANLI "AI BƏŞƏRİYYƏTLƏ GÖRÜŞÜR: KORPORATİV MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI VƏ PSİXİ RİFAHIN TƏŞVİQİ" KONFRANSINDA ÇIXIŞ EDİB



*Hamlet İsaxanlı*

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı regionda insan resurslarının gələcəyi ilə bağlı fikirlərini bölüşmək və müzakirə etmək üçün fevralın 22-də aparıcı HR ekspertlərini bir araya gətirən, "Badamdar Hotel & Residences"-də eksklüziv toplantı olan "AI Meets Humanity: Shaping Corporate Culture and Promoting Mental Well-Being. The Event for HR Community in Azerbaijan" konfransında dəvətli məruzəçi kimi çıxış etmişdir.

Prof.Akad. İsaxanlı "Intelligence that Changes the World / Dünyanı Dəyişən İntellekt" adlı çıxışında süni intellekt və insan zəkasının inkişaf edən əlaqələri haqqında fikirlərini bölüşüb. Müasir iş yerlərinin formalaşmasında süni intellektin rolunu və onun cəmiyyət üçün təsirlərini araşdıraraq, texnoloji innovasiyaların insan mərkəzli dəyərlərlə balanslaşdırılmasının vacibliyini vurğulayıb.

Tədbirdə digər görkəmli natiqlərlə yanaşı Vivek Arora (SHRM-də MENA Regionunun idaəedici direktoru), Kęstutis Vaškelevičius (Litvanın Azərbaycandakı səfiri), Laura Həmidova (FireWorks HRM-nin təsisçisi və direktoru) və Mayis Əliyev (hüquq elmləri doktoru, professor) çıxış ediblər.

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva da tədbirdə iştirak etmişdir.

# PROF. ACAD. HAMLET ISAKHANLI SPEAKS AT THE CONFERENCE "AI MEETS HUMANITY: SHAPING CORPORATE CULTURE AND PROMOTING MENTAL WELL-BEING"

The founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, participated as a guest speaker at the exclusive gathering "AI Meets Humanity: Shaping Corporate Culture and Promoting Mental Well-Being. The Event for HR Community in Azerbaijan" held on February 22, in "Badamdar Hotel & Residences", which brought together leading HR experts to share and discuss ideas about the future of human resources in the region.

In his presentation titled "Intelligence that Changes the World," Prof. Acad. Isakhanli shared his thoughts on the evolving relationship between artificial intelligence and human intellect. Exploring the role of AI in shaping modern workplaces and its impacts on society, he emphasized the importance of balancing technological innovations with human-centered values.

Other prominent speakers at the event included Vivek Arora (Managing Director of MENA Region at SHRM), Kęstutis Vaškelevičius (Lithuanian Ambassador to Azerbaijan), Laura Hamidova (Founder and Director of FireWorks HRM), and Mayis Aliyev (Doctor of Legal Sciences, Professor).

Dr. Raziya Isayeva, Dean of the Faculty of Economics and Management at Khazar University, also attended the event.

# "RED HAT – SYSTEM ADMİNİSTRATİON" TƏLİMLƏRİNİN BAĞLANIŞ MƏRASİMİ

# CLOSING CEREMONY OF "RED HAT – SYSTEM ADMINISTRATION" TRAINING

Xəzər Universiteti, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İDDA) və Coders Azerbaijan-ın birgə təşkilatçılığı ilə keçirilən "Red Hat – System Administration" təlimləri uğurla tamamlanmışdır.

The "Red Hat – System Administration" training, jointly organized by Khazar University, the Innovation and Digital Development Agency, and Coders Azerbaijan, has been successfully completed.



*Mahirə Quliyeva, Fəxrəndə Əfəndiyeva, Nicat Abdullayev, Elman Kərimli (İDDA), Seymur Həmidov, Qumral Bağırlı, Tamerlan Məmmədov*

Fevralın 22-də Qafqaz Baku Hotel&Residence-də keçirilən bağlanış mərasimində Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva və Coders Azerbaijan-ın həmtəsisçisi və idarə heyətinin üzvü Seymur Həmidov təlimi başa vuran tələbələri təbrik etmiş, onlara gələcək fəaliyyətlərində uğur arzulamışlar.

Tədbir çərçivəsində "Kiber təhlükəsizlik ekosistemi: yerli kadrların yetişdirilməsi" mövzusunda keçirilən panel müzakirəsində ekspertlər kiber təhlükəsizlik sahəsində yerli ixtisaslı kadrların hazırlanmasının vacibliyi barədə mülahizələrini bildiriblər.

Sonda təlimi uğurla tamamlayan məzunlara sertifikat və hədiyyələr təqdim olunub.

At the closing ceremony held on February 22, at the Qafqaz Baku Hotel&Residence, Fakhrada Afandiyeva, Dean of the School of Science and Engineering at Khazar University, and Seymur Hamidov, co-founder and board member of Coders Azerbaijan, congratulated the students who completed the training and wished them success in their future endeavors.

Within the framework of the event, experts participated in a panel discussion on the topic "Cybersecurity Ecosystem: Training Local Personnel", sharing their perspectives on the importance of developing qualified local professionals in the field of cybersecurity. At the conclusion of the event, graduates who successfully completed the training were presented with certificates and gifts.

*https://we.tl/t-zGovnQL7E4 - Khazar*




## PSİXOLOGİYA DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ “*JOURNAL OF BEHAVIORAL ADDICTIONS*” JURNALINDA

## KHAZAR UNIVERSITY PSYCHOLOGY DEPARTMENT PROFESSOR'S ARTICLE PUBLISHED IN THE "*JOURNAL OF BEHAVIORAL ADDICTIONS*"

Xəzər Universiteti Psixologiya departamentinin müəllimi Ülkər İsayevanın da həmmüəlliflərdən biri olduğu “The International Work Addiction Scale (IWAS): A screening tool for clinical and organizational applications validated in 85 cultures from six continents” (“Beynəlxalq İş Asılılığı Şkalası (IWAS): Altı qitədən 85 mədəniyyətdən təsdiq edilmiş, klinik və təşkilati tətbiqlər üçün ölçmə aləti”) adlı məqalə “Journal of Behavioral Addictions” jurnalında dərc edilmişdir. Qeyd edək ki, jurnal davranış asılılıqları ilə bağlı elmi məlumat mübadiləsi etmək və davranış asılılıqları, eləcə də genetik, neyrobioloji, psixoloji, klinik psixiatrik, epidemioloji, sosial və antropoloji yanaşmalarla bağlı tədqiqatları özündə əks etdirir. “*Journal of Behavioral Addictions*” dünyada ən nüfuzlu məqalələr toplusu kimi Q1 olaraq indekslənən jurnallardan biri olaraq qəbul olunur.

Məqalədə son illərdə iş asılılığı mövzusunda aparılan elmi araşdırmalar nəticəsində mühüm irəliləyişlər əldə edilsə də, bu sahədəki əsas problemlərdən biri olaraq dünya miqyasında etibarlı və keçərli bir ölçmə alətinin olmadığı vurğulanıb. Bu çatışmazlığı aradan qaldırmaq məqsədilə həyata keçirilən bu tədqiqat iş asılılığını elmi şəkildə müəyyənləşdirmək üçün mədə-

An article titled "The International Work Addiction Scale (IWAS): A screening tool for clinical and organizational applications validated in 85 cultures from six continents," co-authored by Ulker Isayeva, professor at Khazar University's Psychology Department, has been published in the "Journal of Behavioral Addictions."

The journal serves as a platform for scientific exchange on behavioral addictions and encompasses research on genetic, neurobiological, psychological, clinical psychiatric, epidemiological, social, and anthropological approaches to behavioral addictions. "*Journal of Behavioral Addictions*" is recognized as one of the most prestigious academic publications globally, indexed as Q1.

The article highlights that despite significant advances in scientific research on work addiction in recent years, a major challenge in this field remains the absence of a globally reliable and valid measurement instrument.

This research, conducted to address this deficiency, has established a scale with cross-cultural reliability and validity for scientifically identifying work addiction.

The International Work Addiction Scale (IWAS),

niyyətlərarası güvənirliyi və keçərliliyi olan şkala olaraq formalaşdırılıb.

Beynəlxalq İş Asılılığı Şkalası (IWAS) 16 maddədən ibarət anket, dünya üzrə 85 fərqli mədəniyyətdən olan 31.352 işçi üzərində tətbiq edilib. Tədqiqatın nəticələrinə əsasən iş asılılığı ilə iş stresinin yüksək olması, iş məmnuniyyəti və özünə inam arasında əlaqə müəyyən edilmişdir. Araşdırma IWAS ilə fərqli mədəniyyətlərdə və dillərdə etibarlı nəticələr əldə etməyin mümkün olduğunu, həmçinin klinik və təşkilati mühitlərdə də istifadə oluna biləcəyini göstərir.

Tədqiqatın nəticələri iş asılılığının qlobal bir problem olaraq daha geniş şəkildə müzakirə olunmasını və araşdırılmasını tövsiyyə edir.

a 16-item questionnaire, was administered to 31,352 employees across 85 different cultures worldwide.

The findings revealed correlations between work addiction and high work stress, job satisfaction, and self-confidence.

The research demonstrates that the IWAS can yield reliable results across different cultures and languages, indicating its potential utility in both clinical and organizational settings.

*https://doi.org/10.1556/2006.2025.00005*

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ "*FILOMAT*" JURNALINDA

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Some spectral problems of dissipative q-Sturm-Liouville operators in limit-point case for q > 1" ("q > 1 üçün limit-nöqtə halında dissipativ q-Ştu rm-Liuvill operatorlarının bəzi spektral məsələləri") adlı birinci müəllifi olduğu məqalə "Filomat" (2024, Cild 38, № 22) jurnalında dərc olunmuşdur. Qeyd edək ki, "*Filomat*" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib.

Məqalənin əsas məqsədi uyğun Hilbert fəzasında dissipativ sinqulyar q-Ştu rm-Liuvill operatorlarını araşdırmaq və limit-nöqtə halında minimal simmetrik operatorun genişlənmələrini tədqiq etməkdir. Baxılan dissipativ q-Ştu rm-Liuvill operatorunun məxsusi və qoşulmuş funksiyalar sisteminin tamlığı haqqında teorem isbat edilir.

(The main purpose of this study is to investigate dissipative singular q-Sturm-Liouville operators in a suitable Hilbert space and to examine the extensions of a minimal symmetric operator in limit-point case. We present a theorem about the completeness of the system of eigenfunctions and associated functions of the dissipative q-Sturm-Liouville operator).

Məqaləyə keçid:

*https://www.pmf.ni.ac.rs/filomat-content/2024/38-22/FILOMAT%2038-22.html*

*https://journal.pmf.ni.ac.rs/filomat/index.php/filomat*

## MATHEMATICS DEPARTMENT PROFESSOR'S ARTICLE PUBLISHED IN "*FILOMAT*" JOURNAL

Professor Bilandar Allahverdiyev of Khazar University's Mathematics Department has published an article titled "Some spectral problems of dissipative q-Sturm-Liouville operators in limit-point case for q > 1" in the "*Filomat*" journal (2024, Volume 38, No. 22). Professor Allahverdiyev is the lead author of this scholarly publication. It is worth noting that the "Filomat" journal is indexed in both "Web of Science" and "Scopus" databases.

The main purpose of this study is to investigate dissipative singular q-Sturm-Liouville operators in a suitable Hilbert space and to examine the extensions of a minimal symmetric operator in limit-point case. We present a theorem about the completeness of the system of eigenfunctions and associated functions of the dissipative q-Sturm-Liouville operator.




# XOCALI FACİƏSİNİN ANIM TƏDBİRİ

# COMMEMORATION CEREMONY FOR THE KHOJALY TRAGEDY



*Söhrab Mustafayev*

Fevralın 26-da Xəzər Universitetində Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə Xocalı faciəsinin 33-cü ildönümü münasibətilə anım tədbiri keçirildi. Tədbirdə Tarix və arxeologiya departamentinin müəllimi Dr. Söhrab Mustafayev və Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti Boran Əzizli çıxış etdilər. Çıxışlarda Xocalı hadisələrinin mahiyyəti, xalqımızın milli müstəqillik və ərazi bütövlüyümüz uğrunda sərgilədiyi mübarizə ruhu, xalqımıza qarşı törədilən vəhşiliklər qeyd olundu.

Tədbirdə universitetin müəllim heyəti və tələbələr iştirak etdilər.

On February 26,a commemoration ceremony marking the 33rd anniversary of the Khojaly tragedy was held at Khazar University, organized by the Department of History and Archaeology. Dr. Sohrab Mustafayev, lecturer at the Department of History and Archaeology, and Associate Professor Boran Azizli from Baku State University's Department of Azerbaijan History (for humanities departmens) delivered speeches at the event.

The speeches highlighted the essence of the Khojaly events, the spirit of struggle demonstrated by our people for national independence and territorial integrity, and the atrocities committed against our people.

The university's faculty members and students participated in the ceremony.



## XOCALI SOYQIRIMININ 33 İLLİYİ "YADDAŞDAN SƏNƏTƏ" ADLI SƏRGİDƏ

Fevralın 26-da Xəzər Universitetində Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunmuş "Yaddaşdan sənətə" adlı sərgi keçirilib. Sərgidə Memarlıq və dizayn departamentinin Təsviri incəsənət müəllimliyi və Dizayn ixtisaslarında təhsil alan tələbələrin rəsm əsərləri nümayiş olunub. Tələbələrin əsərləri Xocalı faciəsinə gənc sənətkarların yaradıcı baxışlarını əks etdirib.

## 33RD ANNIVERSARY OF KHOJALY GENOCIDE COMMEMORATED IN "FROM MEMORY TO ART" EXHIBITION







On February 26, an exhibition titled "From Memory to Art" dedicated to the 33rd anniversary of the Khojaly



tragedy was held at Khazar University. The exhibition showcased artwork by students studying Fine Arts Teaching and Design at the Department of Architecture and Design. The students' works reflected young artists' creative perspectives on the Khojaly tragedy.




# “KÖHNƏ ÇAMADANLAR” FİLMİNİN NÜMAYİŞİ

# SCREENING OF THE FILM “OLD SUITCASES”

Fevralın 26-da Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə universitetin Nərimanov kapmusunda “Köhnə çamadanlar” filminin nümayişi və yaradıcı heyətlə görüş keçirilib. Tədbiri giriş sözü ilə açan departamentin müdiri Dos. Dilbər Zeynalova qonaqları salamladıqdan


*Dilbər Zeynalova*

On February 26, a screening of the film "Old Suitcases" and a meeting with the creative team was held at the Narimanov campus of Khazar University, organized by the Department of Languages and Literature. After opening the event with an introductory speech, the department head, Assoc. Prof. Dilbar Zeynalova, greeted the guests and commemorated the memory of those who were martyred in Khojaly and for the homeland in general.

The film "Old Suitcases" depicts human destinies (especially women's) and their tragedies during the First and Second Karabakh Wars. The film was directed by Saida Hagverdiyeva, with a screenplay by Sevda Sultanova. The film also includes real footage from the Second Karabakh War and Victory Day. The cast features People's Artist, Professor of ADAU Mammadsafa Gasimov, Honored Artist Gulzar Gurbanova, actresses Zemfi-



sonra Xocalıda və ümumilikdə vətən uğrunda şəhid olanların xatirəsi yad olunub.

"Köhnə çamadanlar" filmində I və II Qarabağ müharibəsində insan taleləri (xüsusilə qadınların) və onların faciələrindən bəhs olunub. Filmin rejissoru Səidə Haqverdiyeva, ssenari müəllifi Sevda Sultanovadır. Filmdə, həmçinin, II Qarabağ müharibəsinə aid real kadrlara və Zəfər Gününə də yer verilib. Rollarda Xalq artisti, ADMİU-nun professoru Məmmədsəfa



*Sevda Sultanova*

Qasımov, Əməkdar artist Gülzar Qurbanova, aktrisalar Zemfira Əbdülsəmədova, Zümrüd Qasımova, Zülfiyyə Qurbanova, Ülviyyə Əliyeva, aktyorlardan Türkay Cəfərli, filmin ssenari müəlliflərindən Sevda Sultanova, görüntü rejissoru



*Səidə Haqverdiyeva*

ra Abdulsamadova, Zumrud Gasimova, Zulfiyya Gurbanova, Ulviyya Aliyeva, actor Turkay Jafarli, one of the screenplay authors Sevda Sultanova, cinematographer Shahmar Safaroglu, film editor Hamida Rustamova, and actors from the Oyug Theater Studio.

A discussion about the film was held at the end of the event.

Şahmar Səfəroğlu, filmin redaktoru Həmidə Rüstəmova və Oyuq teatr studiyası aktyorları iştirak ediblər.

Sonda film ətrafında müzakirə aparılıb.



*Türkay Cəfərli, Məmmədsəfa Qasımov, Zümrüd Qasımova, Ülviyyə Əliyeva*

# XƏZƏR UNİVERİSTETİNİN DƏVƏTİ İLƏ AZƏRBAYCANA GƏLƏN EGE UNİVERSİTETİ PROFESSORUNUN SEMİNARI



*Çiler Çilingiroğlu*

## SEMINAR BY EGE UNIVERSITY PROFESSOR INVITED BY KHAZAR UNIVERSITY

Fevralın 26-da AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunda Xəzər Univeristetinin dəvəti ilə Azərbaycanda olan Türkiyə Cümhuriyyətinin İzmir şəhərində yerləşən Ege Universiteti Ədəbiyyat Fakültəsinin Tarix Öncəsi və Ön Asiya Arxeologiyası bölümünün müəllimi Prof. Dr. Çiler Çilingiroğlu`nun "Anadolunun Neolitləşməsi" adlı seminarı keçirilib.

Seminarda AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun direktoru Dos. Fərhad Quliyev başda olmaqla institut əməkdaşları, o cümlədən Xəzər Univeristeti Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Yaqub Məmmədov və Ülviyyə Səfərova iştirak ediblər. Dos. Fərhad Quliyev Anadoluda neolitləşmə barədə tədqiqatların son nəticələri barədə məlumatları bölüşmək üçün Xəzər Universiteti tərəfindən Prof. Dr. Çiler Çilingiroğlu`nun Azərbaycana dəvət edildiyini iştiakçıların diqqətinə çatdırıb.

Prof. Dr. Çiler Çilingiroğlu mühazirəsində Anadolu yarımadasındakı arxeoloji mədəniyyətlərin yerləşdiyi əraziyə, landşaft, qədim dövrdəki ekoloji mühit və xronoloji ardıcıllığa görə fərqli xüsusiyyətlərindən bəhs edib. Təqribən e.ə. IX minilliyə aid Göbəklitəpə abidəsində e.ə. 8-ci minilliyin ikinci yarısına, yəni, erkən keramik neolit dövrünə aid Çatalhöyük abidəsində aparılan tədqiqatların son nəticələri barədə məlumat verib.

Seminar institut əməkdaşları ilə müzakirə formatında davam etdirilib.

On February 26, a seminar titled "Neolithization of Anatolia" was held at the Institute of Archaeology and Anthropology of ANAS (Azerbaijan National Academy of Sciences), featuring Prof. Dr. Çiler Çilingiroğlu from the Department of Prehistory and Near Eastern Archaeology at the Faculty of Literature of Ege University, located in İzmir, Türkiye. The professor was invited by Khazar University.

The seminar was attended by the director of the Institute of Archaeology and Anthropology of ANAS, Assoc. Prof. Farhad Guliyev, along with institute staff, including Dr. Yagub Mammadov and Ulviyya Safarova from the History and Archaeology Department of Khazar University. Assoc. Prof. Farhad Guliyev noted that Prof. Dr. Çiler Çilingiroğlu was invited to Azerbaijan by Khazar University to share the latest research findings on neolithization in Anatolia. In her lecture, Prof. Dr. Çiler Çilingiroğlu discussed the archaeological cultures of the Anatolian peninsula, focusing on their geographical location, landscape, ecological environment in ancient times, and chronological sequence. She presented the latest research results from the Göbeklitepe site, dating back to approximately the 9th millennium BCE, and the Çatalhöyük site from the second half of the 8th millennium BCE, which corresponds to the early ceramic Neolithic period.

The seminar continued in a discussion format with the institute's staff.



Raziyə İsayeva

## “MÜƏLLİF HÜQUQLARI VƏ PLAGİARİZM” MÖVZUSUNDA TƏLİM

Fevralın 27-də Xəzər Universitetinin koordinatoru olduğu ERASMUS+DIRNA layihəsi çərçivəsində universitetin İqtisadiyyat və menecment fakültəsinin dekanı Raziyə İsayeva tərəfindən  “Müəllif hüquqları və plagiarizm” mövzusunda təlim keçirildi. Təlimdə layihə çərçivəsində iştirak edən universitetlərin - Xəzər Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti və Lənkəran Dövlət Universitetinin əməkdaşları əyani və onlayn şəkildə iştirak etdilər.

Təlimçi “Müəllif hüquqları nədir?”, “Araşdırmada müəllif hüquqları kimə məxsusdur”?, “Müəllif müqavilələri üzrə müəlliflik hüquqlarının verilməsi”, “Tədqiqatda müəllif hüquqları ilə qorunan materiallardan istifadə”, “Plagiarizm nədir?”,” Plagiarizmin növləri”, “Düzgün sitat və istinad”, “Sitat və istinad idarəetmə vasitələri», “Plagiatın yoxlanılması vasitələri” haqqında iştirakçılara ətraflı məlumat verdi. Təlimin sonunda mövzu ərtafında müzakirələr aparıldı.

## TRAINING ON “COPYRIGHT AND PLAGIARISM”

On February 27, a training session on "Copyright and Plagiarism" was conducted by Raziya Isayeva, Dean of the School of Economics and Management at Khazar University, within the framework of the ERASMUS+DIRNA project, where Khazar University serves as the coordinator.

The training was attended by staff from project partner universities, both in-person and online, including: Khazar University, Baku State University, Azerbaijan Technical University, State Customs Committee Academy, Nakhchivan State University, Ganja State University, Mingachevir State University, Lankaran State University.



The trainer provided comprehensive information on the following topics: “What are copyrights?”, “Who owns research copyrights in research?”, “Transfer of copyright through author agreements”, “Using copyright-protected materials in research”, “What is plagiarism?”, “Types of plagiarism”, “Proper citation and referencing”, “Citation and reference management tools”, “Plagiarism detection methods”.

The training concluded with discussions around the subject matter.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN BAKI YUNUS ƏMRƏ İNSTİTUTU İLƏ BİRGƏ SEMİNARI

Fevralın 27-də Bakı Yunus Əmrə İnstitutunun təşəbbüsü və Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə Nərimanov kampusunda "Oxumaq, yazmaq və yaşamaq" adlı seminar keçirilib. Tədbirdə Bakı Yunus Əmrə İnstitutunun direktoru Güven Çolak, Dillər və ədəbiyyatlar departamentinin müəllim heyəti və universitet tələbələri iştirak ediblər. Tədbiri giriş sözü ilə açan Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova iştirakçıları və qonaqları salamlayaraq, "Türkiyə və Türkoloji Konfranslar Silsiləsi"nin ilk tədbirinə ev sahibliyi etməkdən məmnunluğunu bildirib Seminara Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr. Semiha Özel Yaman moderatorluq edib.

Əsas mövzu üzrə Bakı Yunus Əmrə İnstitutunun "Türkiyə və Türkoloji Konfranslar Silsiləsi" layihəsinin ilk qonağı yazar Aykut Ertuğrul iştirakçıların, əsasən də tələbələrin diqqətini çəkən "yazarlıq necə formalaşır", "əsər yazarkən nədən ilhamlanmaq olar", yaradıcılığın psixologiyası və s. haqqında öz mülahizələrini bölüşüb. Qeyd edək ki, Aykut Ertuğrul`un 2013-cü ildə çap olunmuş "Mümkün öykülerin en iyisi" kitabı Türkiyə Yazarlar Birliyinin təsis etdiyi "Ən yaxşı hekayə kitabı" mükafatına layiq görülüb.

Seminarın davamında departamentin müəllimi Dos. Ülvi Babasoyun müzakirə edilən əsas mövzu ilə bağlı çıxışı dinləyicilərdə maraq oyadıb. Sonra Aykut Ertuğrul tələbələri maraqlandıran sualları cavablandırıb.



*Semiha Özel Yaman, Güven Çolak, Aykut Ertuğrul, Aygün Ələkbərzadə (Yunus Əmrə İnstitutu), Dilbər Zeynalova, Reyhan Mədətova, Xatirə Yusifova (Xəzər Universiteti)*

## DEPARTMENT OF LANGUAGES AND LITERATURES JOINT SEMINAR WITH BAKU YUNUS EMRE INSTITUTE

On February 27, a seminar titled "Reading, Writing, and Living" was held at the Narimanov campus, organized by the Baku Yunus Emre Institute's initiative and the Department of Languages and Literatures at Khazar University. The event was attended by Güven Çolak, director of the Baku Yunus Emre Institute, faculty members of the Department of Languages and Literatures, and university students.

Opening the event with a welcome speech, Associate Professor Dilbar Zeynalova, head of the Department of Languages and Literatures, greeted the participants and guests, expressing her pleasure in hosting the first event of the "Türkiye and Turkology Conference Series".

The seminar was moderated by Dr. Semiha Özel Yaman from the Department of Languages and Literatures.

As the first guest of the "Türkiye and Turkology Conference Series" project, writer Aykut Ertuğrul shared his insights on topics that particularly captured the students' attention, such as "how writing takes shape", "sources of inspiration for writing", and the psychology of creativity. It is worth noting that Aykut Ertuğrul's book "The best of possible stories", published in 2013, was awarded the "Best Story Book" prize by the Turkish Writers' Association.

In the continuation of the seminar, the presentation by Associate Professor Ülvi Babasoy on the main discussed topic sparked interest among the listeners. Afterwards, Aykut Ertuğrul answered questions from the students.

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNSTİTUSİONAL REPOZİTORİYA ŞƏBƏKƏSİ DAXİLİNDƏ İNKLÜZİV TƏHSİL” MÖVZUSUNDA TƏLİM



*Ətir Quliyeva*

Fevralın 27-də Xəzər Universitetinin koordinatoru olduğu ERASMUS+ DIRNA layihəsi çərçivəsində “İnstitusional repozitoriya şəbəkəsi daxilində inklüziv təhsil” adlı təlim keçirildi.

Təlimdə layihə çərçivəsində iştirak edən universitetlərin – Xəzər Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti və Mingəçevir Dövlət Universitetinin əməkdaşları əyani və onlayn şəkildə iştirak etdilər.

Təlimçi Təhsil İnstitutunun Təhsildə innovasiyalar şöbəsinin mütəxəssisi Ətir Quliyeva idi. O, ilk növbədə institusional repozitoriyanın tarixi, yaradılma məqsədi, strategiyası və funksiyası haqqında məlumat verdi.

Ötən əsrin 80-ci illərində inklüziv təhsil anlayışının meydana çıxması, 1994-cü ildə öz kulminasiya dövrünü Salamanka bəyannaməsi ilə yaşadığını, Salamanka bəyannaməsinin məqsədinin isə xüsusi təhsil müəssisələrinin sayının azaldılması və onların ümumi təhsilə inteqrasiya olunmasına təşviq etməkdən ibarət olduğunu qeyd etdi. İnklüziv təhsildə xidmətlərin təmin olunmasında məhdudiyyətli şəxslərin yaxından köməyinin, iştirakının əvəzolunmazlığını vurğuladı. İnklüziv təhsil üçün yararlı ola biləcək rəqəmsal resurslar, platformalar – Moodle, Ava Scribd, NVDA, Colour Oracle, Atbar, DocsPlus və s., video və multimedia materialları haqqında ətraflı məlumat verdi.

## TRAINING ON "INCLUSIVE EDUCATION WITHIN THE INSTITUTIONAL REPOSITORY NETWORK" UNDER THE DIRNA PROJECT

On February 27, a training session titled “Inclusive Education within the Institutional Repository Network” was held within the framework of the ERASMUS+ DIRNA project, coordinated by Khazar University.

The training was attended by staff from universities participating in the project, including Khazar University, Baku State University, Azerbaijan Technical University, Academy of the State Customs Committee, Nakhchivan State University, Ganja State University, Lankaran State University, and Mingachevir State University, both in-person and online. The trainer was Etir Guliyeva, a specialist from the Educational Innovations Department of the Education Institute. She first provided information about the history, purpose, strategy, and functions of the institutional repository. She noted that the concept of inclusive education emerged in the 1980s, reaching its culmination with the Salamanca Statement in 1994. The statement's goal was to reduce the number of specialized educational institutions and encourage their integration into general education.

Guliyeva emphasized the irreplaceable role and close assistance of individuals with disabilities in ensuring services in inclusive education. She provided detailed information about digital resources and platforms that could be useful for inclusive education, such as Moodle, Ava Scribd, NVDA, Colour Oracle, Atbar, DocsPlus, and others, along with video and multimedia materials.



# “BİZNES VƏ ELM: AKADEMİK BİLİKLƏRİN SƏNAYE VƏ İNNOVASİYADA TƏTBİQİ ÜZRƏ I FORUM”






Fevralın 27-də Xəzər Universitetinin təşkilatçılığı, Azərbaycan Sahibkarlar Konfederasiyası, Azərbaycan-Türkiyə İş Adamları Birliyi, Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi və Energazer şirkətinin dəstəyi ilə universitetin Mərmər salonunda “Biznes və Elm: Akademik Biliklərin Sənaye və İnnovasiyada Tətbiqi üzrə I Forumu” keçirildi. Forumda iştirakçı qurumların, digər təşkilat və şirkətlərin rəhbərləri, sahibkarlar və tibb mütəxəssisləri iştirak edirdilər.



*Vüqar Zeynalov*

Tədbirin əsas məqsədi elmi tədqiqatçılarla sənaye nümayəndələrini bir araya gətirərək, elmi biliklərin iqtisadiyyata inteqrasiyasını müzakirə etmək idi.



*Süleyman Məcidli*

On February 27, the First Forum on "Business and Science: Application of Academic Knowledge in Industry and Innovation" was held at the Marble Hall of Khazar University. The event was organized by Khazar University and supported by the Azerbaijan Entrepreneurs Confederation, Azerbaijan-Turkey Business Association, Independent Industrialists and Businessmen Association, and Energazer company. Participants included leaders of participating organizations, other organizations and companies,

# "THE 1ST FORUM ON BUSINESS AND SCIENCE: APPLICATION OF ACADEMIC KNOWLEDGE IN INDUSTRY AND INNOVATION WAS"

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı universitetlərin yaranma tarixi, cəmiyyətə verdiyi töhfələr, müasir dövrdə universitetlərin tədqiqat mərkəzlərinə çevrilməsi mövzusunda geniş məruzə etdi. Bildirdi ki, akademik biliklər yalnız universitet divarları arasında qalmamalıdır, əksinə, onlar real iqtisadiyyat və sənaye sahələrində tətbiq edilərək, innovasiyaların yaranmasına səbəb olmalıdır.

(*Ardı səh.76-da*)





*Zalbəy Ağadadaşov* *Rəşad Cabirli*

entrepreneurs, and medical specialists.

The main purpose of the event was to bring together scientific researchers and industry representatives to discuss the integration of scientific knowledge into the economy.

Khazar University's Founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, delivered a comprehensive report on the history of universities, their contributions to society, and their transformation into research centers in the modern era. He emphasized that academic knowledge should not remain wit-

(*To be continued page 76*)





hin university walls but should be applied in real economy and industrial sectors to generate innovations.

Suleyman Majidli, founder and leader of Energazer company, spoke about the newly created "Khazar University Business Industry Club (KUBIC)", its goals and mission, which was established through the joint efforts of Khazar University and several leading Azerbaijani businessmen. He highlighted the importance of the university-business-industry triangle, promoting the application of academic knowledge in industry, strengthening university-industry cooperation, and supporting the startup environment. He also emphasized the importance of identifying and introducing skilled and educated students to the business world.

Energazer şirkətinin təsisçisi və rəhbəri Süleyman Məcidli Xəzər Universiteti ilə Azərbaycanın bir neçə qabacıl iş adamlarının birgə səyi nəticəsində yeni yaradılmış "Xəzər Universiteti Biznes Sənaye Klubu (KUBIC)", onun məqsədləri və missiyası barədə çıxış etdi. O, universitet-biznes-sənaye üçgəninin əhəmiyyətini, akademik biliklərin sənayedə tətbiqinin təşviqini, universitet-sənaye əməkdaşlığının gücləndirilməsini və startap mühitinin dəstəklənməsini vurğuladı. Həmçinin, bacarıqlı və savadlı tələbələrin müəyyən edilib iş dünyasına təqdim olunmasının vacibliyi qeyd olundu.



Forumda Azərbaycan Sahibkarlar Konfederasiyası İdarə Heyətinin vitse-prezidenti Vüqar Zeynalov, Azərbaycan-Türkiyə İş Adamları Birliyinin İdarə Heyətinin üzvü Zalbəy Ağadadaşov və Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin İdarə Heyətinin sədri Rəşad Cabirli çıxış edərək, universitet və sənaye əməkdaşlığının əhəmiyyətindən, peşə təhsilinin vacibliyindən, həmçinin sahibkarlarla ortaq layihələrin həyata keçirilməsinin önəmindən danışdılar.

Forum müzakirələrlə davam etdi və iştirakçılar universitet-sənaye əməkdaşlığının inkişafı üçün təkliflərini irəli sürdülər.

Forumun sonunda tədbir təşkilatçıları bu platformanın davamlı olacağı və yeni əməkdaşlıqların qurulmasına imkan yaradacağı barədə məlumat verdilər. "Bu forum sadəcə bir görüş deyil, gələcək innovativ layihələrin başlanğıcıdır" – deyə vurğulandı.

Forum participants, including Vugar Zeynalov (Vice President of the Azerbaijan Entrepreneurs Confederation), Zalbay Agaddasov (Board Member of the Azerbaijan-Türkiye Business Association), and Rashad Jabirli (Chairman of the Board of the Independent Industrialists and Businessmen Association), spoke about the importance of university-industry collaboration, the significance of vocational education, and the value of joint projects with entrepreneurs. The Forum continued with discussions, and participants put forward proposals for the development of university-industry cooperation.

At the end of the Forum, the organizers informed that this platform would be continuous and would create opportunities for new collaborations. "This forum is not just a meeting, but the beginning of future innovative projects," was emphasized.

# ELMİ ŞURANIN İCLASI

Fevralın 28-də Xəzər Universitetinin Elmi Şurasının növbəti iclası keçirildi. İclası universitetin rektoru vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev açaraq, gündəlik məsələləri Elmi Şura üzvlərinin nəzərinə çatdırdı.

İlk olaraq, M. Nuriyev Elmi Şuranın tərkibində edilən dəyişikliklər barədə məlumat verdi. Sonra gündəliyin birinci məsələsi – doktorant və dissertantların dissertasiya mövzuları və elmi rəhbərləri barədə Təbiət elmləri, sənət və texnologiya fakültəsinin dekanı Günel Bahəddinova məruzə etdi. Hər bir tələbə tədqiqat aparacağı dissertasiya mövzusunun aktuallığı, istifadə olunacaq metodlar və digər mühüm məqamlar haqqında danışdı. Şura üzvləri tələbələrə suallar ünvanladı və mövzular səsvermə yolu ilə təsdiq edildi.

M. Nuriyev gündəliyin ikinci məsələsi – imtahan sessiyalarının nəticələri haqqında Elmi Şura üzvlərini məlumatlandırdı. Qeyd etdi ki, 2024/25-ci tədris ilinin payız semestri üzrə imtahan sessiyası 6-28 yanvar tarixləri arasında təşkil edilmişdir. Sessiyada bakalavr səviyyəsi üzrə 3.948, magistratura səviyyəsi üzrə isə 493 olmaqla, ümumilikdə 4.441 tələbə iştirak etmişdir. O, fakültələrin təşkil etdiyi final, cərimə və tamamlama imtahanları ilə bağlı geniş məlumat Verdi, fakültələrin keyfiyyət və müvəffəqiyyət göstəricilərini şura üzvlərinin diqqətinə çatdırdı.

M. Nuriyev gündəliyin üçüncü məsələsi – 2024/25-ci tədris ilinin payız və yaz semestrləri üzrə departamentlərin dərs yükü barədə danışdı. O, hər bir departamentin mövcud fənn və qrup sayı haqqında məlumat verərək, müdirləri olmayan departamentlərə təcili şəkildə rəhbər təyin olunmasının vacibliyini vurğuladı.

Elmi şuranın gündəliyindəki bütün məsələlər müzakirə olunaraq, müvafiq qərarlar qəbul edildi.

# ACADEMIC COUNCIL MEETING

On February 28, the next meeting of the Khazar University Academic Council was held. The meeting was opened by Prof. Mahammad Nuriyev, who is currently serving as the rector, and he brought the agenda items to the attention of the Academic Council members.

First, M. Nuriyev provided information about changes in the composition of the Academic Council. Then, the first agenda item was a report by Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Art and Technology, regarding the dissertation topics and scientific supervisors of doctoral and dissertation students. Each student spoke about the relevance of their research topic, the methods to be used, and other important aspects. Council members asked questions to the students, and the topics were approved by voting.

M. Nuriyev informed the Academic Council members about the second agenda item – the results of exam sessions. He noted that the exam session for the autumn semester of the 2024/25 academic year was organized between January 6-28. A total of 4,441 students participated in the session, including 3,948 at the bachelor's level and 493 at the master's level. He provided detailed information about the final, penalty, and completion exams organized by the faculties and brought the quality and success indicators of the faculties to the attention of the council members.

M. Nuriyev discussed the third agenda item – the teaching load of departments for the autumn and spring semesters of the 2024/25 academic year. He provided information about the number of existing courses and groups for each department and emphasized the urgent need to appoint heads for departments without directors.

All items on the Academic Council's agenda were discussed, and appropriate decisions were made.



# NƏZAKƏT FƏTƏLİ QIZI MƏMMƏDLİ

Azərbaycan ədəbiyyatşünaslıq elminə ağır itki üz vermişdir. Görkəmli alim, elmimizi dünyanın bir çox ölkəsində ləyaqətlə təmsil etmiş filologiya elmləri doktoru Nəzakət Məmmədli 2025-ci il fevralın 3-də ömrünün 53-cü ilində vəfat etmişdir. 2022-ci ildən Xəzər Universitetinin Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun müdiri vəzifəsində çalışan alim indiyə qədər Füzuli, Həmzə Nigari Qarabaği, Seyid Yəhya Şirvani, Sevdayi və bir çox azərbaycanlı müəllifin ədəbi irsi üzərində tədqiqatlar aparmış, Fəridəddin Əttar, Mövlana Cəlaləddin Rumi ilə bağlı əsərlər nəşr etdirmişdir.

Nəzakət Məmmədli 1971-ci ildə Sabirabad rayonunda dünyaya göz açmışdır. 1989-94-cü illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini fərqlənmə ilə bitirmiş, 1994-97-ci illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil almışdır. 1997-ci ildə "Füzulinin "Leyli və Məcnun" əsərində təsəvvüf və onun bədii ifadə sistemi" adlı tədqiqatı ilə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2023-cü ildə isə "Fəridəddin Əttar və Azərbaycan ədəbiyyatı" mövzusunda elmlər doktorluğu dissertasiyasını müdafiə etmişdir. Alimin respublikada və ölkə xaricində nəşr olunmuş 145 elmi məqaləsi, 5 monoqrafiya, 9 tərcümə, transfonoliterasiya etdiyi kitabı vardır.

Nəzakət Məmmədli 1994-2010-cu illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi olmuş, 2010-cu ildən vəfat edənə kimi AMEA Füzuli adına Əlyazmalar İnstitutunda işləmişdir.

Tanınmış alim, qayğıkeş və səmimi insan Nəzakət Məmmədlinin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**Xəzər Universiteti**

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi